# Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu

***Qəbul edilmişdir: 7 dekabr 1999-cu il, № 772-IQ***
***Əlavə və dəyişikliklər: 1. 23 noyabr 2001-ci il***

***2. 23 aprel 2002-ci il***

**Maddə 1. Qanunun təyinatı**

Bu Qanun bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsinin prinsiplərini, yerli büdcə prosesinin əsaslarını və bu sahələrdə bələdiyyələrin səlahiyyətləri və onların müvafiq icra hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edir.

**Maddə 2. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında qanunvericilik**

Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası ilə, bu Qanunla, "Bələdiyyələrin statusu haqqında", "Dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə tənzimlənir.

**Maddə 3. Bələdiyyə maliyyəsinin iqtisadi əsasları və formalaşması prinsipləri**

1. Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir.

2. Bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq ve yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsiplərinə əsas lanır.

**Maddə 4. Yerli büdcə**

1. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir.

Yerli büdcə bələdiyyə büdcəsi olub dövlət büdcəsinin tərkib hissəsi deyil.

2. Bələdiyyələrin bu Qanuna müvafiq olaraq yerli büdcənin tənzimlənməsi proşssində dövlət büdcəsindən vəsait almaq hüququ vardır.

3. Yerli büdcənin tərtibi və icrası prosesində büdcə sisteminin qanunvericiliklə müəyyən edilmiş ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur.

4. Büdcə ili yanvarın 1-də başlanır və dekabrın 31-də qurtarır.

**Maddə 5. Yerli büdcənin müstəqilliyi**

1. Yerlii büdcənin müstəqilliyi öz mədaxil mənbələrinin olması və bələdiyyənin yerli büdcə vəsaiti barədə sərəncam vermək müstəsna hüququ ilə təmin edilir.

2. Azərbaycan Respublikası qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrin büdcə fəaliyyətinə müdaxiləsinə, Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, yol verilmir.

3. Bələdiyyə yerli büdcənin maliyyə ilinin sonuna əmələ gəlmiş sərbəst qalıqlarına müstəqil sərəncam verir.

4. Bələdiyyə yerli büdcəni iqtisadi qanunların tələblərinə uyğun, müstəqil olaraq tərtib, müzakirə, təsdiq, icra və onun icrasına nəzarət edir.

**M addə 6. Büdcələrarası və dövlət hakimiyyəti orqanları ilə münasibətlər**

1. Yerli büdcələrin müstəqilliyinə dövlət zəmanət verir və onun öhdəliklərinə görə məsuliyyət daşımır. Dövlət zəmanəti aşağıdakılara əsaslanır:

1.1. investisiya və pul-kredit siyasəti əsasında istehsal sferasının inkişafıııa şərait yaratmaq;

1.2. yerli sosial-iqtisadi inkişaf proqramlarını yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən

edilməsi vəya dövlət büdcəsindən dotasiya və sübvensiyaların alınması.

2. Qanunvericilik və icra hakimiyyəti orqanları bələdiyyələrə əlavə səlahiyyətlər həvalə etdikdə, onları bu səlahiyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti ilə təmin edirlər.

3. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xörclərinin artması baş verdikdə uyğun, azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur.

4. Bələdiyyə qanunvericiliklə nəzərdə tutulmuş qaydada yerli büdcənin icrasına dair məlumatı statistika orqanlarına təqdim edir.

**Maddə 7. Yerli büdcənin gəlirləri**

1 . Yerli büdcənin gəlirlərinə aşağıdakılar aid edilir:

1.1. fiziki şəxslərdən torpaq vergisi;

1.2. fiziki şəxslərdən əmlak vergisi;

1.3. yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;

1.4. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;

1.5. bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə ödəniş;

1.6. kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli ödənişlər;

1.7. Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar;

1.8. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər;

1.9. fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları;

1.10. dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaiti.

2. Bu maddənin 1.1—1.4-cü, 1.6-cı yarımbəndlərində göstərilən yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və güzəştlərin verilməsi qaydası, habelə dərəcələrinin aşağı və yuxarı həddi qanunla müəyyən edilir, tətbiqinin zəruriyyəti və konkret dərəcələri isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir. Bu maddənin 1.5-ci yarımbəndində göstərilən bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə reklamının yerləşdirilməsi, yayımı və reklam tarifi zonaları üzrə ödənilən haqqın minimum miqdarının hesablanması qaydaları “Reklam haqqında” Azərbaycan Respublikasının Qanunu iiə nəzərdə tutulmuş qaydada müəyyən olunur, konkret dərəcələri isə bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

3. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada bələdiyyələr yerli əhəmiyyətli məsələlərin maliyyələşdirilməsi üçün bu maddənin 1.6-cı yarımbəndində göstərilən yerli ödənişlər, habelə könüllü birdəfəlik ödənişlər barədə qərarlar qəbul edə bilərlər. Könüllü birdəfəlik ödənişlər barədə qərarlar nəticəsində əldə olunan vəsait yalnız məqsədli təyinatı üzrə istifadə olunur.

**Maddə 8. Yerli büdcələrin xərcləri**

1. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

2. Yerli büdcə bələdiyyənin idarəetmə xərcləri, sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanması xərcləri nəzərə alınmaqla bələdiyyələrin müəyyən etdiyi xərc normativləri əsasında formalaşdırılır.

Yerli büdcələrdə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloji proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər.

3. Dövlət büdcəsindən dotasiya alan yerli büdcənin xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsinin xərclərinin proqnozlaşdırılması üçün tətbiq olunan xərc normativlərindən yüksək ola bilməz.

4. Dotasiyanın maksimum həddi hesablanarkən dövlət büdcəsinin

proqnozunda xərc normativləri və ərazinin respublika maliyyə resurslarının formalaşmasında xüsusi çəkisi nəzərə alınır.

5. Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunvericilik və icra hakimiyyətləri tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi yerli büdcənin məxaric hissəsində ayrıca sətirlə göstərilir.

6. Xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

**Maddə 9. Yerli büdcənin tərtibi**

1. Yerli büdcənin layihələri müəssisələrin cari və perspektiv təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi ilə bələdiyyələrin ərazi sosial-iqtisadi proqnozları və məqsədli proqramlar əsasında formalaşdırılır.

2. Bələdiyyələr dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcə layihəsini tərtib edərkən müvafiq icra hakimiyyəti orqanına mayın 1-dək lazımi hesablamalar verirlər.

**Maddə 10. Yerli büdcənin müzakirəsi və təsdiqi**

1. Yerli büdcə layihəsinin müzakirəsi və təsdiqi qaydası bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

2. Növbəti maliyyə ili üçün dövlət büdcəsindən dotasiya nəzərdə tutulan yerli büdcənin layihəsi cari ilin dekabr ayının 25-dən gec olmayaraq bələdiyyənin qərarı şəklində təsdiq edilir.

3. Təsdiq edilmiş yerli büdcə bələdiyyənin qərarı ilə dəqiqləşdirilə bilər.

**Maddə 11. Yerli büdcənin icrası**

1. Bələdiyyələr dövlət büdcəsindən alınmış məqsədli vəsaitlər istisna olmaqla, yerli büdcənin icrası prosesində mədaxil və məxaric maddələrində büdcə təsnifatı üzrə təsdiq edilmiş təxsisat həddində dəyişikliklər apara bilərlər.

2. Yerli büdcələrin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqdan sonra bir ay ərzində başa çatdırılır. Bu müddət ərzində istifadə olunmayan vəsait Azərbaycan Respublikasının qanunvericiliyinin dəyişdirilməsi halları istisna olmaqla bələdiyyələrin sərəncamında qalır.

3. Bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında hesabatı təsdiq edir və öz əhalisinə çatdırırlar.

**Maddə 12. Yerli büdcənin tarazlaşdırılması**

Əgər bələdiyyə büdcəsinin icrası prosesində mədaxil mənbələri üzrə daxil olan vəsait azalarsa və bu, kəsrin son həddi aşmasına gətirib çıxararsa, məxaricin ixtisarı mexanizmi tətbiq edilə bilər. Məxaricin ixtisarı müdafiə olunmuş maddələr istisna olmaqla, büdcənin bütün maddələri üzrə məxaricin mütənasib surətdə azaldılmasından ibarətdir.

**Maddə 13. Yerli büdcəyə nəzarət**

1. Yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna bələdiyyə nəzarət edir və bu məqsədlə müstəqil auditorları cəlb etmək hüququna malikdir.

2. Qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrə verdikləri səlahiyyətlərin həyata keçirilməsi üçün maliyyə vəsaitindən istifadəyə həmin orqanlar nəzarət edirlər.

**Maddə 14. Bələdiyyələrin maliyyə-kredit və sığorta təşkilatları ilə qarşılıqlı əlaqəsi**

1. Bələdiyyələr öz maliyyəsinin təşkili işini həm müvafiq bələdiyyə ərazisində, həm də onun hüdudlarından kənarda fəaliyyət göstərən Azərbaycan Respublikasının rezidenti olan kredit təşkilatları ilə qarşılıqlı əlaqədə yerinə yetirirlər.

2. Bələdiyyələrlə kredit və sığorta təşkilatları arasında qarşılıqlı münasibətlər müqavilə əsasında həyata keçirilir.

3. Bələdiyyələrin qanunvericiliklə müəyyən edilmiş qaydada:

3.1. özünün hesablaşma və kassa əməliyyatlarının aparılması üçün müvəkkil

bankı seçmək və xəzinədarlığı yaratmaq;

3.2. Azərbaycan Respublikasının rezidenti olan banklardan və digər kredit təşkilatlarından qısamüddətli və uzunmüddətli kreditlər almaq;

3.3. bələdiyyə mülkiyyətində olan obyektlərin, bələdiyyə qulluqçularının sığortalanması haqqında qərar qəbul etmək hüququ vardır.

4. Kredit təşkilatları qarşısında bələdiyyələrin öhdəlikləri üzrə dövlət məsuliyyət daşımır.

**Maddə 15. Keçid müddəaları**

Bələdiyyələrin vergi xidməti orqanları formalaşanadək bu Qanunun 7-ci maddəsinin 1-ci bəndində göstərilən vergi və ödənişlərin yığılması və yerli büdcələrə köçürülməsi bələdiyyələrin müraciəti əsasında bağlanılan müqavilə ilə dövlət vergi xidməti orqanları tərəfindən həyata keçirilir.

2000-ci ildə yerli büdcələrə dotasiyalar "Azərbaycan Respublikasının 2000-ci il dövlət büdcəsi haqqında" Qanunun 11-ci maddəsinə uyğun olaraq verilir.

## "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Nazirlər Kabineti bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

2. Müəyyən edilsin ki:

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

**Bank və digər kredit təşkilatlarında əhalinin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən, habelə qiymətli kağızlar üzrə dividendlərdən gəlir vergisinin tutulmaması üzrə müəyyən edilmiş güzəştin hüquqi qüvvəsinin uzadılması haqqında Azərbaycan Respublikasının Qanunu**

***Qəbul edilmişdir: 14 dekabr 1999-cu il, № 775-IQD***

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Bank və digər kredit idarələrində əhalinin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən, habelə qiymətli kağızlar üzrə dividendlərdən gəlir vergisinin tutulmaması üzrə müəyyən edilmiş güzəştin hüquqi qüvvəsinin uzadılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1999-cu il, №1, maddə 10) hüquqi qüvvəsi 2002-ci il yanvarın 1-dək uzadılsın.

2. Bu Qanun 2000-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Avtomobil yolları haqqında Azərbaycan Respublikasının Qanunu**

***Qəbul edilmişdir: 22 dekabr 1999-cu il, № 778-IQ***

***Əlavə və dəyişikliklər: 1.15 noyabr 2001-ci il***

***2. 23 noyabr 2001-ci il***

*Bu Qanun Azərbaycan Respublikasında avtomobil yollarının və onlarla əlaqədar mühəndisi qurğuların layihələndirilməsi, tikilməsi, istifadəsi, saxlanılması və inkişaf etdirilməsinin, habelə yol təsərrüfatının idarə edilməsinin hüquqi, texniki-iqtisadi və təşkilati prinsiplərinin ümumi əsaslarını müəyyənləşdirir və yol təsərrüfatı subyektləri arasında yaranan əsas münasibətləri tənzimləyir.*

## I Fəsil

### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

**avtomobil yolu** — dövlət standartlarına, yol hərəkəti qaydalarına və digər normativ hüquqi aktlara uyğun olan ölçülərə və kütləyə malik sürəti tənzimlənən avtomobil nəqliyyatı vasitələrinin bütün il boyu fasiləsiz, təhlükəsiz və rahat hərəkətini təmin edən konstruksiyalar və mühəndisi qurğular sistemidir;

**avtomagistral** — müəyyən məsafədə avtomobil nəqliyyatı vasitələrinin məhdudlaşdırılmayan sürətlə və maneəsiz hərəkətini təmin edən, yüksək hərəkəti buraxma qabiliyyətinə və ayırıcı zolağa malik olan, eyni səviyyədə kəsişmələri olmayan avtomobil yoludur;

**yol fəaliyyəti** — yolların yaradılması, inkişafı, saxlanılması və idarə edilməsi məqsədi ilə həyata keçirilən fəaliyyət növlərinin məcmusudur;

**avtomobil yollarının yaradılması** — müvafiq proqramlar əsasında yol tikintisi məqsədi ilə torpaq sahələrinin ayrılması, elmi-tədqiqat, layihə-axtarış, tikinti-quraşdırma və yenidənqurma işlərinin aparılmasıdır;

**avtomobil yollarının saxlanılması** — yolun müvafiq layihəyə uyğun olaraq istifadəçilərin tələblərinə cavab verməsini təmin etmək məqsədi ilə bütün il boyu yola və yol qurğularına xidmət göstərilməsi, onların müayinəsi, yoxlanması və mühafizəsi tədbirlərinin məcmusudur;

**avtomobil yollarının təmiri** — yol geyiminin, torpaq yatağının və mühəndisi qurğuların gücləndirilməsi və genişləndirilməsi, o cümlədən deformasiyalara və dağılmalara məruz qalmış konstruksiyaların və ya onların ayrı-ayrı hissələrinin bərpası, səmərəli və möhkəm elementlərlə əvəz edilməsi, yol örtüyünün, hamarlığının, ilişmə keyfiyyətlərinin yaxşılaşdırılması ilə bağlı işlər kompleksidir. Yolların təmiri növlərinə görə cari, orta və əsaslıolur;

**avtomobil yollarının yenidən qurulması** — mövcud yolun və yol qurğularının nəqliyyat-istismar göstəricilərinin yüksəldilməsi, yolun bütövlükdə və ya ayrı-ayrı hissələrinin daha yüksək texniki dərəcəyə keçirilməsi məqsədi ilə həndəsi parametrlərin

normativ-texniki sənədlərin tələblərinə uyğun olaraq dəyişdirilməsi ilə müşayiət olunan işlər kompleksidir;

**avtomobil yollarının tikintisi** — texniki-iqtisadi əsaslandırma və normativ-texniki sənədlərin tələblərinə uyğun olaraq iki məntəqə arasında zəlzələyə, digər təbii və texnogen təsirlərə davamlı yeni avtomobil yolunun və yol qurğularının inşasıdır;

**avtomobil yolu təsərrüfatı** — tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq konkret ərazidə mövcud olan avtomobil yolları şəbəkəsinin, həmçinin onların inkişafı, saxlanılması və əlaqələndirilməsi ilə məşğul olan subyektlərin məcmusudur;

**yol təsərrüfatı orqanları** — müvafiq icra hakimiyyəti orqanı və avtomobil yol fəaliyyətinin idarə edilməsi funksiyalarını həyata keçirən bələdiyyələrin orqanlarıdır;

**avtomobil yolunun istifadəçiləri —** öz ehtiyaclarını ödəmək və ya başqalarına xidmət göstərmək məqsədi ilə avtomobil yolları ilə hərəkət edən nəqliyyat vasitələrinin mülkiyyətçiləri, sürücülər və piyadalardır;

**yol təsərrüfatının subyektləri** — yol fəaliyyətini həyata keçirən və yoldan istifadə edən hüquqi və fiziki şəxslərdir;

**avtomobil yolları şəbəkəsi** — müəyyən ərazidə sərnişin və yük daşımalarını təmin edən bütün avtomobil yollarının vahid sistemidir;

**hərəkəti buraxmaq qabiliyyəti** — yolun və ya onun hər hansı bir hissəsinin vahid vaxt ərzində müəyyən edilmiş sürəti və təhlükəsizliyi təmin etməklə keçirə biləcəyi avtomobil nəqliyyatı vasitələrinin maksimum sayıdır;

**hərəkət şiddəti** — vahid vaxt ərzində yoldan və ya onun hər hansı bir hissəsindən hər iki istiqamətdə keçən avtomobil nəqliyyatı vasitələrinin sayıdır;

**yol qurğuları** — yolda hərəkətin fasiləsizliyini və təhlükəsizliyini, habelə yoldan istifadə edənlərə xidmət göstərilməsini təmin edən zəruri keçidlər, qurğular, tikililər və avadanlıqlardır;

**torpaq yatağı** — yol geyiminin konstruktiv laylarının və yolun digər elementlərinin yol zolağında səmərəli və dayanıqlı yerləşdirilməsini təmin edən qrunt tərkibli konstruksiyadır;

**yol geyimi** — torpaq yatağı üzərində yerləşən və avtomobil nəqliyyatı vasitələrinin yola təsirindən meydana gələn gərginliklərin torpaq yatağına ötürülməsini təmin edən, yol örtüyü də daxil olmaqla bir və ya çox laylı möhkəm və dayanıqlı monolit konstruksiyadır.

**Maddə 2. Avtomobil yollarının təyinatı**

Avtomobil yolları Azərbaycan Respublikasının ərazisində avtomobillərlə daxili və ya tranzit yük və sərnişin daşımalarının təhlükəsizliyinin təmin edilməsi sahəsində bütün hüquqi və fiziki şəxslərin, dövlət hakimiyyəti orqanlarının zəruri tələbatının ödənilməsinə, habelə dövlətin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsinə xidmət edir.

Avtomobil yolları ölkənin digər nəqliyyat-yol infrastrukturu ilə daşınmaların ardıcıl və təhlükəsiz paylanmasına və ötürülməsinə maksimum təminat yaradır.

Avtomobil yolları mövcud normativ hüquqi aktların tələbləri həddində piyadaların, əlillərin və müvafiq mexaniki nəqliyyat vasitələrinin tələblərinin ödənilməsi məqsədi ilə də istifadə edilə bilər.

**Maddə 3. Avtomobil yolları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Avtomobil yolları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, yol hərəkəti və fəaliyyətinə aid olan digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Bu qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

## II Fəsil

## Avtoraobil yollarının təsnifatı

**Maddə 4. Avtomobil yollarının təsnifatlandırılmasının əsasları**

Avtomobil yolları, bir qayda olaraq, əhəmiyyətinə, yol şəbəkəsində tutduğu yerə, funksional təyinatına, istifadə imkanlarına, istifadəçilərinə və mülkiyyətçilərinə görə təsnif

edilir.

İstifadəçilərinə görə avtomobil yolları ümumi istifadədə olan və xüsusi istifadədə olan yollara bölünür.

Mülkiyyətçilərinə görə avtomobil yolları dövlət, bələdiyyə və özəl yollar kimi təsnif edilir.

Əhəmiyyətinə və yol şəbəkəsində tutduğu yerə görə avtomobil yolları respublika, yerli və sahə yollarına bölünür.

Bunlarla yanaşı, avtomobil yollarının həndəsi parametrlərini, istehlak və texniki-konstruktiv xüsusiyyətlərini əks etdirən texniki təsnifatı tərtib edilir.

Bu təsnifatlarda funksional təyinatlarına və istifadə imkanlarına görə yolun hərəkət şiddətinə uyğun olaraq beş dərəcəyə bölünməsi, onların əsas, köməkçi, müvəqqəti, ikinci dərəcəli, yanaşma, bir və iki tərəfli, bir, iki və çox zolaqlı, eyni və müxtəlif səviyyəli, habelə tənzimlənən və tənzimlənməyən olması da nəzərə alınır.

Avtomobil yollarının təsnifatlaşdırılması müəyyən olunmuş qaydada işlənib hazırlanan və təsdiq edilən standartların və digər normativ hüquqi aktların tələbləri əsasında həyata keçirilir.

Avtomobil yollarından istifadə qaydaları onların mülkiyyətçiləri tərəfindən müvafiq qanunvericilik aktları çərçivəsində müəyyənləşdirilir.

**Maddə 5. Ümumi istifadədə olan avtomobil yolları**

Ümumi istifadədə olan avtomobil yolları tabeliyindən asılı olmayaraq ölkə ərazisində avtomobil yollarının bütün istifadəçilərinin tələbatını təmin edən avtomobil yolları şəbəkəsindən ibarətdir.

Ümumi istifadədə olan avtomobil yollarının tərkibinə, həmçinin beynəlxalq və müdafiə təyinətlı yollar da daxildir.

Əsas etibarı ilə müdafiə xarakterli yüklərin daşınması və hərbi texnikanın hərəkəti üçün nəzərdə tutulan müdafiə təyinatlı yollara aid edilən respublika, yerli və sahə yollarının təsnifatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tərtib və təsdiq edilir.

Əsasən respublika əhəmiyyətli yollardan ibarət olan beynəlxalq avtomobil yollarının təsnifatı Azərbaycan Respublikasının müvafiq beynəlxalq müqavilələri ilə müəyyənləşdirilir.

Ümumi istifadədə olan avtomobil yolları şəbəkəsinin təsnifatı müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada tərtib və təsdiq edilir.

Özəl, bələdiyyə və sahə yolları onların mülkiyyətçilərinin qərarı ilə o halda ümumi istifadə üçün açıq ola bilər ki, buna müvafiq icra hakimiyyəti orqanlarının müəyyən edilmiş qaydada müsbət rəyi alınmış olsun.

**Maddə 6. Dövlət avtomobil yolları**

Respublika ərazisində dövlət mülkiyyətinə aid edilən bütün yaşayış məntəqələri, dövlət müəssisələri və ictimai infrastruktur obyektləri arasında yük və səmişin daşınmasına, habelə ölkənin müdafiə və təhlükəsizlik qabiliyyətinin güclənməsinə təminat yaradan respublika və yerli əhəmiyyətli, habelə sahə avtomobil yolları dövlət avtomobil yollarının tərkibinə daxil edilir.

Dövlət avtomobil yollarının təsnifatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tərtib və təsdiq edilir.

**Maddə 7. Bələdiyyə avtomobil yolları**

Bələdiyyə avtomobil yollarına şəhər, qəsəbə və başqa yaşayış məntəqələri daxilində yerləşən və onların mülkiyyətində olan küçələr, keçidlər, ictimai nəqliyyat xətləri, digər yollar və yol qurğuları aiddir. Bələdiyyə yolları bələdiyyə qurumlarının ərazisi hüdudlarında avtomobil və başqa nəqliyyat əlaqələrini təmin edir.

Zəruri hallarda bələdiyyə yolları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada bələdiyyələr tərəfindən ümumi istifadə üçün açıla bilər.

Bələdiyyə yollarından istifadə qaydalarını bələdiyyələr bu Qanunun tələblərinə uyğun olaraq müəyyənləşdirirlər.

Bələdiyyə avtomobil yollarının təsnifatı qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada tərtib və təsdiq edilir.

**Maddə 8. Özəl avtomobil yolları**

Özəl avtomobil yollarına hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyətində olan qeyri-dövlət avtomobil yolları aiddir.

Özəl yollardan istifadə qaydalarını həmin yolların mülkiyyətçiləri bu Qanunun tələblərinə uyğun olaraq müəyyən edirlər.

Özəl avtomobil yollarının təsnifatı qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqani tərəfindən müəyyən edilmiş qaydada tərtib və təsdiq edilir.

**Maddə 9. Respublika əhəmiyyətli avtomobil yolları**

Respublika əhəmiyyətli avtomobil yolları ümumi istifadədə olan avtomobil yolları şəbəkəsinin tərkib hissəsi olmaqla ölkə ərazisində avtomobillərlə zəruri yük və sərnişin daşınmalarına xidmət edir.

Respublika əhəmiyyətli avtomobil yolları Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərindən avtomobillərin Azərbaycan Respublikası ilə həmsərhəd olan ölkələrə çıxışını təmin etməklə, Bakı şəhərini respublikanın şəhərləri, rayon mərkəzləri, şəhər tipli qəsəbələri, hava, dəniz və çay limanları, dəmiryol stansiyaları, qoruq və istirahət zonaları, həmçinin xüsusi obyekt və müəssisələrlə birləşdirir.

Respublika əhəmiyyətli avtomobil yollarının təsnifatı qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada tərtib və təsdiq edilir.

**Maddə 10. Yerli əhəmiyyətli avtomobil yolları**

Yerli əhəmiyyətli avtomobil yolları ümumi istifadədə olan avtomobil yollarının tərkibinə daxil olmaqla, rayonlararası və konkret şəhər və rayonla onun inzibati-ərazi, habelə təsərrüfat vahidləri arasında nəqliyyat əlaqələrini təmin edir;

Yerli əhəmiyyətli avtomobil yollarının təsnifatı qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada tərtib və təsdiq edilir.

**Maddə 11. Sahə avtomobil yolları**

Sahə avtomobil yollarına təsərrüfatdaxili və texnoloji daşımaları, habelə digər ehtiyacları ödəmək üçün müvafiq qaydada müəssisə və təşkilatların mülkiyyətində, təsərrüfat və ya əməli idarəçiliyində olan, həmçinin bu məqsədlə onların öz vəsaitləri hesabına yaradılan avtomobil yolları aiddir.

Sahə yollarından istifadə qaydalarını həmin yolların mülkiyyətçiləri bu Qanunun tələblərinə uyğun olaraq müəyyən edirlər. Sahə yollarının təsnifatı qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada tərtib və təsdiq edilir.

**Maddə 12. Yolkənarı infrastruktur obyektləri**

Yolkənarı infrastruktur obyektləri avtomobil yol istehlakçılarının zəruri ehtiyaclarını ödəmək, həmçinin avtomobil nəqliyyatı vasitələrinin hərəkətinə mane olmayan, yol hərəkəti təhlükəsizliyinin digər tələblərini, avtomobil yollarının saxlanılması və təhlükəsiz istismarı qaydalarını pozmayan digər fəaliyyət növlərini yerinə yetirmək üçün təşkil edilir.

Yolkənarı infrastruktur obyektlərinin yaradılması, saxlanılması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər bu Qanunla və digər aidiyyəti olan normativ hüquqi aktlarla tənzimlənir.

**Maddə 13. Avtomobil yollarının torpaq sahəsi**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada avtomobil yollarının əlverişli yerləşdirilməsi, tikintisi, inkişafı, saxlanılması, təmiri və istifadəsi üçün zəruri torpaq sahəsi ayrılır.

Ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının yerləşdiyi torpaq sahələri dövlət mülkiyyətidir.

Ümumi istifadədə olan bələdiyyə yollarının yerləşdiyi torpaq sahələri də bələdiyyə mülkiyyətinə aid edilir.

Özəl və sahə avtomobil yollarının yerləşdiyi torpaq sahələrinin mülkiyyət növünə aid edilməsi torpaq ayrılması sənədlərinə və həmin subyektlərin özlərinin mülkiyyət formasına uyğun olaraq müəyyənləşdirilir.

**Maddə 14. Avtomobil yollarının təhkim zolağı**

Avtomobil yollarının təhkim zolağı avtomobil yolları üçün ayrılmış torpaq sahəsinin tərkib hissəsi olmaqla yol konstruksiyasının özünün tikintisi, təmiri, onun istifadəsi, saxlanılması üçün zəruri olan yolkənarı infrastruktur obyektlərinin, digər mühəndisi, sosial və texniki qurğuların, tikililərin, həmçinin dekorativ və qoruyucu yaşıllıqların yerləşdiyi ərazini əhatə edir.

Təhkim zolağının ölçüləri avtomobil yollarının təsnifat göstəriciləri və konkret şərait nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada təyin edilir.

Avtomobil yollarının təhkim zolağından istifadə edilməsi müvafiq normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla həyata keçirilir.

Müstəsna hallarda ümumi istifadədə olan avtomobil yollarının təhkim zolağında digər mühəndisi qurğuların layihələndirilməsi və tikilməsi üçün torpaq sahəsi yolun perspektiv inkişafı, təmiri və tikintisi, habelə hərəkətin təhlükəsizliyinin təmin edilməsi nəzərə alınmaqla yalnız müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə ayrılır.

Təhkim zolağı hüdudunda olan obyektlərin yerləşdiyi torpaq sahələri bu zonalardan istifadə rejiminin müəyyən etdiyi hallar istisna olmaqla, onların mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən torpaq qanunvericiliyində müəyyən edilmiş qaydada geri alına (satın alına) bilər.

Təhkim zolağının yeni ölçüləri və torpaq ayrılması haqqında qərar qəbul edildiyi gündən bir ay müddətində bu zonada olan əmlak mülkiyyətçilərinə, torpaq istifadəçilərinə və icarəçilərinə yazılı məlumat verilir, onlar bu torpağın xüsusi istifadə rejimi və gələcəkdə onun avtomobil yollarının ehtiyacı üçün satın alına bilməsi haqqında xəbərdar edilirlər.

Təhkim zolağı hüdudunda torpaq sahələrinin başqa hüquqi və ya fiziki şəxslərin ehtiyacları üçün ayrıldığı və orada yerləşən obyektlərin alqı-satqısı zamanı, onun yeni sahibkarları torpaqdan istifadə rejimi şərtləri ilə tanış edilməlidirlər.

Təhkim zolağından savayı yol ehtiyacları məqsədi ilə daimi və ya müvəqqəti istifadə üçün digər torpaq sahələri da ayrıla bilər. Belə torpaqların ayrılma qaydaları müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

**Maddə 15. Təhkim zolağında kommunikasiyaların çəkilməsi və yenidən qurulması şərtləri**

Avtomobil yollarının mühəndisi kommunikasiyalarla kəsişməsi və bu məqsədlə təhkim zolağından istifadə edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən mövcud standartlara, texniki normativlərə və digər normativ hüquqi aktlara uyğun olaraq müəyyənləşdirilir.

Avtomobil yollarının təhkim zolağında, xüsusi xidmət kommunikasiyaları istisna olmaqla, hər hansı yeni kommunikasiyaların çəkilməsinə, bir qayda olaraq, yol verilmir.

Mövcud avtomobil yollarından keçən və yenidən qurulan kommunikasiyalar yalnız avtomobil yolları mülkiyyətçilərinin və müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə qüvvədə olan normativ-texniki şərtlər və layihə-smeta sənədləri əsasında həyata keçirilə bilər.

Kommunikasiyaların çəkilməsi və ya yenidən qurulması işlərinə başlamazdan əvvəl bu kommunikasiyaların mülkiyyətçiləri avtomobil yollarının saxlanılmasını həyata keçirən yol təsərrüfatı orqanları ilə müvafiq müqavilə bağlamalıdırlar.

Avtomobil yollarında mühəndisi kommunikasiyaların çəkilməsini həyata keçirən sifarişçilər bu işlərlə bağlı bütün xərcləri ödəməlidirlər.

**Maddə 16. Yol qurğuları üzərindən kommunikasiyaların çəkilməsi şərtləri**

Müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə tunellərin, körpülərin, estakadaların və digər yol qurğularının üzərindən müəyyən olunmuş qaydada təsdiq edilmiş layihə sənədləri əsasında normalarla qadağan olunmayan müvafiq mühəndisi kommunikasiyalar çəkilə bilər.

Yeni kommunikasiyaların və bu məqsədlər üçün lazımi qurğuların tikintisinə, habelə aparıcı (əsas) konstruksiyaların əlavə gücləndirilməsinə sərf olunan bütün xərclər kommunikasiya mülkiyyətçilərinin üzərinə düşür.

Kommunikasiyaların çəkilməsinə icazəni yol qurğularının mülkiyyətçiləri verir.

Kommunikasiyalar çəkilərkən qurğuların təhlükəsizliyi təmin olunmazsa, yol

təsərrüfatı orqanları körpülərdə və digər qurğularda kommunikasiyaların tikintisinə etiraz edə bilər.

Kommunikasiya mülkiyyətçiləri onların istismarını yol qurğularının zədələnməsini istisna edən normaya uyğun olaraq təmin etməlidirlər.

**Maddə 17. Digər avtomobil yolları ilə kəsişmələrin tənzimlənməsi**

Hüquqi və fiziki şəxslərə mövcud avtomobil yolları ilə birləşmə və kəsişmə qovşaqlarının tikintisinə, yenidən qurulmasına və təmirinə yalnız müəyyən edilmiş qaydada təsdiq olunmuş layihə sənədi əsasında icazə verilə bilər.

Avtomobil yollarına ümumi istifadə üçün qovuşan, birləşən avtomobil yollarının örtüyünün möhkəmliyi bütün yol boyunca mövcud avtomobil yolları üçün müəyyənləşdirilmiş layihə normalarından az olmamalıdır.

Qovuşma və kəsişmənin tikintisi ilə bağlı bütün xərcləri bu işlərin sifarişçisi ödəyir. Kəsişmə və qovuşmanın tikintisi zamanı texniki normalara əməl edilmədikdə müvafiq yol təsərrüfatı orqanları onların tikintisindən imtina etmək hüququna malikdir.

Avtomobil yollarının mülkiyyətçiləri onların razılığı olmadan müvafiq qovuşma və kəsişmənin tikintisini, yenidənqurma və təmirini sifariş edən və ya aparan hüquqi və fiziki şəxslərdən onları dərhal dayandırmaq, sökmək və avtomobil yollarını ilkin vəziyyətə gətirməyi tələb etmək hüququna malikdir. Belə işlərin icrasından imtina və ya razılaşdırılmış müddətdə onların icrası üzrə qəbul olunmuş öhdəliklərdən yayınma hallarında yolun mülkiyyətçisi qeyri-qanuni hərəkət etmiş hüquqi və fiziki şəxslərə qarşı avtomobil yollarını ilkin vəziyyətə gətirməklə, bu səbəbdən sərf olunan xərcləri ödəmələri barədə iddia irəli sürə bilərlər.

Müxtəlif mülkiyyətçilərində olan avtomobil yollarının kəsişmə və qovuşma yerlərində sərhədlər, həmin yolların təhkim zolaqları ilə birlikdə müəyyən edilir.

**Maddə 18. Dəmir yolları ilə kəsişmələrin tənzimlənməsi**

Avtomobil yollarının dəmir yolları ilə kəsişməsi müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə mövcud standart və normaların və digər normativ hüquqi aktların tələblərinə uyğun olaraq müəyyən olunmuş qaydada təsdiq edilmiş layihə sənədləri əsasında həyata keçirilir. Avtomobil yolları mülkiyyətçiləri dəmir yol mülkiyyətçilərindən yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədi ilə dəmir yollarında eyni səviyyəli keçid qurğularının quraşdırılmasını tələb etməli, eyni zamanda yol qurğularının dəmir yolu hərəkətinə təblükəli şərait yaratdığı hallarda dəmir yol mülkiyyətçilərinin tələbi ilə müvafiq tədbirlər görməlidirlər.

Eyni səviyyəli dəmir yol keçidlərində dəmir yol mülkiyyətçiləri dəmir yol keçidlərindən istifadə qaydalarına uyğun olaraq müəyyən edilən məsafədə avtomobil yol sahələrini lazımi vəziyyətdə saxlamalıdırlar.

Mövcud dəmir yol xətlərinin genişləndirilməsi və ya yenilərinin tikintisi ilə bağlı avtomobil yolları və dəmir yollarının kəsişmə qurğusu üzrə işlər dəmir yol mülkiyyətçilərinin vəsaiti hesabına həyata keçirilir. Belə kəsişmə qurğuları mövcud avtomobil yollarının genişləndirilməsi və ya yenilərinin tikintisindən irəli gələrsə, bu halda kəsişmə qurğusu avtomobil yol mülkiyyətçilərinin vəsaiti hesabına həyata keçirilir.

Dəmir yollarından keçən kəsişmələrdə onların mülkiyyətçiləri qatarların hərəkətinə rəhbərliyi təmin etməli və dəmir yolunun təhkim zolaqlarında işin görülməsinə razılıq verməli və texniki şərtlər qoymalıdır.

Eyni səviyyəli dəmir yollarından keçən avtomobil yol keçidlərinin bağlanması və açılması haqqında qərarlar, dəmir və avtomobil yolları mülkiyyətçilərinin və müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul olunur.

**Maddə 19. Avtomobil yolları yanında rekla və digər məlumat qurğularının yerləşdirilməsi şərtləri**

Avtomobil yollarının təhkim zolağında reklam lövhələri, digər məlumat işarələri və göstəricilərinin yerləşdirilməsi avtomobil yolları mülkiyyətçilərinin müstəsna hüququdur və mövcud qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə ayrıca müqavilələr əsasında həyata keçirilir.

Avtomobil yollarının bilavasitə yaxınlığında yerləşdirilən və yol hərəkəti təşkilinin texniki vasitələrinə aidiyyəti olmayan reklam lövhələri və qurğular, elanlar və digər məlumat

işarələri və göstəricilər yol şəraitinin qiymətləndirilməsinə mane olmamalı və onu pisləşdirməməli, həmçinin yol hərəkətinin təhlükəsizliyi tələblərinə cavab verməlidir.

Təhkim zolağında qurulacaq reklam lövhələri və digər məlumat işarələri və göstəricilər müvafiq normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmalı və qurulmalıdır.

## III Fəsil
## Yol təsərrüfatının təşkili və idarə edilməsi

### Maddə 20. Yol təsərrüfatı sisteminin təşkili

Azərbaycan Respublikasında avtomobil daşımalarının ahəngdarlığını, maksimum təhlükəsizliyini və fasiləsizliyini təmin etmək məqsədi ilə yol fəaliyyətinin subyektləri arasında əlaqələrin koordinasiyası və yol fəaliyyətinin həyata keçirilməsi üçün müvafiq yol təsərrüfatı subyektləri və orqanları yaradılır, qanunvericiliklə müəyyən olunmuş qaydada onların fəaliyyətinin tənzimlənməsi təmin edilir.

### Maddə 21. Yol təsərrüfatının idarə edilməsi

Yol təsərrüfatının idarə edilməsi məqsədi ilə bu fəaliyyətin tənzimlənməsinin və həyata keçirilməsinin vahid normativ hüquqi bazası yaradılır. Bu sahədə antiinhisar siyasəti aparılır, qüvvədə olan qanunvericilik aktlarının tələblərinə uyğun olaraq xüsusi razılıq sistemi tətbiq edilir, yolların qeydiyyatı, uçotu və işarələnməsi təmin edilir.

Yol fəaliyyətinin idarə olunması əsas etibarı ilə onun yaradılması, inkişafı və saxlanılmasının planlaşdırılması, maliyyələşdirilməsi və həyata keçirilməsinin optimal və sərfəli variantlarının tapılmasını, həmçinin avtomobil yolları istifadəçiləri üçün münasib şəraitin təmin edilməsini nəzərdə tutur.

Bu Qanunla nəzərdə tutulan yol fəaliyyətini tam təmin etmək üçün yol təsərrüfatı sisteminin idarə edilməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Yol təsərrüfatının idarə edilməsi məqsədi ilə aşağıdakıların həyata keçirilməsi təmin edilir:

avtomobil yollarının təsnifatının, onların aid edilmə göstəricilərinin müəyyənləşdirilməsi və yolların siyahısının təsdiq edilməsi;

yol təsərrüfatı orqanları sisteminin və onların formalaşması qaydasının müəyyənləşdirilməsi, fəaliyyətinin təşkili;

yol təsərrüfatı orqanlarının fəaliyyətinin ümumi təşkilati prinsiplərinin müəyyənləşdirilməsi, yol fəaliyyətinə dövlət nəzarət sisteminin və onun tənzimlənməsinin formalaşdırılması;

respublika əhəmiyyətli avtomobil yollarının və onların saxlanılması üçün zəruri olan əmlakını, habelə yol fəaliyyəti həyata keçirilərkən istifadə olunan digər əmlakın idarə olunması;

yol hərəkətinin təhlükəsizliyini təmin edən hüquqi əsasların və avtomobil yollarının yol hərəkətinin təhlükəsizliyi tələblərinə uyğunluğunu təmin edən vahid qaydaların, standart, texniki norma və digər normativ sənədlərin yaradılması;

avtomobil yollarında yük və sərnişinlərin sərbəst daşınmasını təmin etmək məqsədi ilə nəqliyyat kommunikasiyalarının əlaqələndirilməsi və avtomobil yollarından istifadənin ümumi prinsiplərinin müəyyənləşdirilməsi;

avtomobil yollarında istifadə olunan materialların, cihazların və avadanlıqların qanunvericiliklə müəyyən edilmiş qaydada standartlaşdırılmasının və sertifikatlaşdırılmasının həyata keçirilməsi;

avtomobil yollarının təkmilləşdirilməsi, yaradılması və inkişafı ilə bağlı dövlət siyasətinin, dövlət proqramlarının və digər proqramların işlənib hazırlanması və yerinə yetirilməsi;

yol təsərrüfatında vahid texniki, maliyyə, kredit və məqsədli investisiya siyasətinin əsaslarının işlənib hazırlanması;

Dövlət Yol Fondunün formalaşması, ondan təyinatı üzrə istifadəni təmin edən prinsiplərin işlənib hazırlanması;

beynəlxalq əməkdaşlığın və əlaqələrin həyata keçirilməsi məqsədi ilə avtomobil yollarının inkişafı və istifadəsi məsələləri üzrə beynəlxalq müqavilələrin bağlanması, beynəlxalq avtomobil yolları şəbəkəsinin formalaşması, Azərbaycan Respublikası yollarında beynəlxalq daşınmaların yerinə yetirilmə qaydalarının müəyyənləşdirilməsi.

**Maddə 22. Yol işlərinin planlaşdırılması**

Dövlət avtomobil yollarının yaradılması və saxlanılması tədbirləri ölkənin ümumi sosial-iqtisadi inkişaf proqnozlaşmasının tərkib hissəsidir.

Dövlət avtomobil yollarında yol işlərinin illik planlaşdırma proqramları müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının, onun inzibati-ərazi vahidlərinin müvafiq ümumi inkişaf proqramları, təsdiq edilmiş sahə, sahələrarası və regional proqramlar əsasında və bu məqsədlər üçün ayrılan müvafiq vəsait nəzərə alınaraq həyata keçirilir.

Bələdiyyə yollarında yol işlərinin planlaşdırılması, yerli sosial və iqtisadi inkişaf proqramları və ya müvafiq tikintilərin layihələri və nəqliyyatın inkişafı sxemləri əsasında həyata keçirilir.

Yol işləri planlaşdırılarkən müvafiq icra hakimiyyəti orqanları ilk növbədə maliyyə vəsaitlərinin səmərəli istifadəsini və mövcud yol şəbəkəsinin saxlanılması, təmiri və mühafizəsinin tam icrasını birinci növbədə təmin etməlidir.

**Maddə 23. Ümumi istifadədə olan avtomobil yollarının adı və indeksasiyası**

Ümumi istifadədə olan avtomobil yollarının adı və indeksi olmalıdır.

Ümumi istifadədə olan avtomobil yollarının adına onun birinci və axırıncı yaşayış məntəqələrinin adı, lazım gələrsə, aralıq yaşayış məntəqələrinin adı da daxil edilir.

Addan başqa, ümumi istifadədə olan avtomobil yollarının onların göstəricisi olan yerlərdə və xəritələrdə Azərbaycan əlifbasının hərfləri və rəqəmlərlə qeyd olunmuş indeksi dəolur.

Ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Dövlət avtomobil yollarının adı və indeksləri yol təsərrüfatı subyektlərinin təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Beynəlxalq avtomobil yollarının adlandırılməsı və indeksasiyası beynəlxəlq sazişlər əsasında müəyyənləşdirilir.

Sahə avtomobil yollarının adlandırılması və indeksasiyası müvafiq icra hakimiyyəti orqanı və müəssisələr tərəfindən birgə müəyyənləşdirilir.

Bələdiyyə yollarının adlandırılması və indeksasiyası qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələr tərəfindən müəyyənləşdirilir.

Mülkiyyətçi ona məxsus özəl yolların adlandırılmasını müəyyənləşdirmək hüququna malikdir.

**Maddə 24. Avtomobil yollarında məsafələrin hesablanması**

Avtomobil yollarında məsafə şərti olaraq qəbul edilmiş başlanğıc və son hesablama nöqtələri arasında aparılır. Bu hesablama nöqtələri kimi aşağıdakılar qəbul olunur:

- Bakı şəhərindən çıxan respublika əhəmiyyətli dövlət yolları üçün — Bakı şəhərində Azərbaycan Respublikası avtomobil yollarının sıfır kilometr işarəsi hesab edilən Hökumət evi qarşısındakı Azadlıq meydanı;
- yaşayış məntəqələrini birləşdirən yerli əhəmiyyətli yollar və bələdiyyə yolları üçün — yaşayış məntəqəsinin mərkəzində yerləşdirilən poçt, kütləvi tanınan digər binalar, qurğular və ya xüsusi qurulan işarələr;
- ümumi istifadədə olan başqa avtomobil yollarını birləşdirən və ya onlara qoşulan yollar üçün — çarpaz yolların kəsişmə oxları;
- tarixi-coğrafi və başqa xüsusi obyektləri birləşdirən yollar üçün — bu obyektlərin sərhədi.

Bələdiyyə mülkiyyətində olan daxili küçə və yollar avtomobil yollarının ümumi uzunluğuna daxil edilmir.

**Maddə 25. Avtomobil yollarının qeydiyyatı**

Müvafiq sosial-iqtisadi inkişaf proqnoz və proqramları hazırlanarkən, yolların uzunluğu, yollarda hərəkətin şiddəti, yolların vəziyyəti, yolların inkişaf perspektivləri və yollardan istifadənin səmərəliliyinin yüksəldilməsi üzrə digər göstəricilər də mütləq nəzərə alınmalıdır.

Bu məqsədlə avtomobil yollarının qeydiyyatı təşkil edilir və o, aşağıdakıları nəzərdə tutur:

- avtomobil yollarının rəsmi xəritəsinin tərtib edilməsi;

- hər bir yolun adı, indeksi və uzunluğu göstərilməklə avtomobil yollarının siyahısının tərtib edilməsi;
- hər bir avtomobil yolunun balans qiyməti, onun dəyişməsi və köhnəlməsi;
- avtomobil yollarının texniki pasportlarının və yolların faktiki vəziyyəti, örtüyün növü və vəziyyəti, yol nişanlarının dislokasiyası, avtomobil yollarının tutduğu torpaq sahəsi haqqında informasiyanın, avtomobil yollarının nişanlarının və istismarının planlaşdırılması üçün vacib olan digər göstəricilərin hazırlanması və saxlanılması.

**Maddə 26. Yol xidmətinin təşkili**

Avtomobil yolları əməyin, qidalanmanın və istirahətin normal şəraitini, imkan daxilində isə yol hərəkəti iştirakçılarının rabitə əlaqələrini təmin etmək üçün nəzərdə tutulan xidməti obyektlərlə təchiz edilir.

Yol təsərrüfatı orqanları bu məqsədlə, həmçinin müvafiq istirahət meydanları və xüsusi dayanacaqlar da yarada bilərlər.

Yol xidməti obyektlərinin qurulması hərəkətin təhlükəsizliyini və yolun saxlanılma şərtlərini pisləşdirməməli, sanitariya-gigiyena və ekoloji tələbləri pozmamalı, qüvvədə olan standartlara və digər texniki normalara müvafiq yerinə yetirilməlidir.

Yol servisi obyektlərinin layihələri onların yerləşdiyi yerlərin mülkiyyətçiləri, yol təsərrüfatı orqanları və müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır.

Ümumi istifadədə olan avtomobil yollarının mühafizə olunan pullu dayanacaqları, habelə bu maddədə göstərilən məqsədlər üçün avtomobil yollarının sərbəst torpaq sahələri icarəyə verilə bilər.

Keçidlərin, dayanacaqların, nəqliyyat vasitələrinin saxlanması üçün meydançaların, sutəmizləmə qurğularının və yol servisinin digər qurğularının təmiri, qurulması və saxlanılması üçün xərclər həmin obyektlərin mülkiyyətçiləri tərəfindən çəkilir.

Yol servisi obyektlərinin qeydiyyatı yalnız bu maddədə göstərilmiş şərtlərə riayət edildiyi halda həyata keçirilə bilər.

**Maddə 27. Yol işlərinin qəbulu**

Avtomobil yollarında tikilmiş yol qurğularının ve yerinə yetirilmiş yol işlərinin qəbulu onların mülkiyyətçiləri tərəfindən həyata keçirilir.

Tikintisi, təmiri və ya yenidən qurulması tamamlanmış avtomobil yollarının və yol qurğularının təsdiqlənmiş layihə sənədlərinin, mövcud standartların və digər normativ hüquqi aktların tələblərinə uyğun olması bu yollarda aparılan müayinə və sınaqların nəticələri əsasında tərtib edilən avtomobil yollarının istismara qəbulu aktı ilə təsdiqlənir.

Avtomobil yollarının və müvafiq yol qurğularının istismara qəbulu onların mülkiyyətçilərinin təqdimatı əsasında təyin edilmiş müvafiq qəbul komissiyası tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi əsasında həyata keçirilir.

## IV Fəsil
## Avtomobil yollarından istifadənin əsasları

**Maddə 28. Avtomobil yollarından istifadə qaydaları**

Azərbaycan Respublikasında avtomobil yollarından istifadənin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən vahid qaydaları tətbiq edilir. Avtomobil yollarının və onlarla bağlı mühəndisi qurğuların mülkiyyətçiləri bu qaydaların normalarını pisləşdirməyən əlavə tələblər də nəzərdə tuta bilərlər.

Avtomobil yollarından istifadədə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün subyektlər üçün eyni hüquqi rejim yaradılır.

Təbii fəlakətin və digər fövqəladə halların nəticələrinin ləğv edilməsi zamanı avtomobil yollarından xüsusi istifadə qaydaları və müddətləri tətbiq edilir.

**Maddə 29. Avtomobil yollarından istifadənin tənzimlənməsi prinsipləri**

Azərbaycan Respublikasında avtomobil yollarının nəqliyyat vasitələrinin yükünə, qabaritinə və sürətinə uyğunlaşdırılması üçün avtomobil yollarının texniki dərəcəsindən asılı olaraq müvafiq dövlət standartları və normaları tətbiq edilir.

Azərbaycan Respublikasının avtomobil yollarında nəqliyyat vasitələrinin yükü,

qabariti və hərəkətin sürət həddi nəqliyyat vasitəsinin tipi, daşınan yükün xüsusiyyətləri, yolda hərəkətin şiddəti, meteoroloji şərait, yolun texniki dərəcəsi və yol hərəkəti qaydaları nəzərə alınmaqla müəyyənləşdirilir.

Avtomobil yollarının mülkiyyətçiləri avtomobil yollarının müayinəsi zamanı müvafiq konstruksiya və mühəndisi qurğuların möhkəmliyində qüsurlar aşkar etdikdə və zəruri yol işləri yerinə yetirdikdə müəyyən müddət üçün nəqliyyat vasitələrinin yüklərinə və hərəkət sürətinə məhdudiyyətlər və qadağalar qoyulması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları qarşısında məsələ qaldırmaq və ya onları bilavasitə tətbiq etmək hüququna malikdirlər.

Bu qəbildən olan məhdudiyyətlər tətbiq edilən vaxt yolların mülkiyyətçiləri aidiyyəti subyektləri qabaqcadan xəbərdar etməklə yollarda müvafiq yol nişanları və işarələri qoyurlar.

Qanunvericiliklə müəyyən olunmuş qaydada aparılmasına icazə verilmiş kütləvi tədbirlər zamanı da yoldan istifadəyə müvafiq məhdudiyyətlər qoyula bilər.

Yoldan istifadəyə məhdudiyyətlər və ya istifadənin tam dayandırılması haqqında qərarlar avtomobil yoluna aidiyyəti olan müvafiq icra hakimiyyəti orqanları və yolun mülkiyyətçiləri tərəfindən qəbul edilir.

Hərəkətin təhlükəsizliyi üçün yol şəraiti real təhlükə yaratdığı hallarda müvafiq icra hakimiyyəti orqanı yol mülkiyyətçilərinə hərəkətin qadağan olunması barədə göstəriş vermək hüququna malikdir.

Yol təsərrüfatı orqanları, fövqəladə şəraitlər istisna olmaqla, hərəkətin məhdudlaşdırılması və ya dayandırılması, habelə onların müddəti və yeni hərəkət sxemi barədə avtomobil yollarından istifadə edənlərə qabaqcadan məlumat verməlidirlər.

Beynəlxalq avtomobil yollarında hərəkətin məhdudlaşdırılması və ya bağlanması hallarında məlumat müvafiq xarici dövlətlərin nümayəndələrinə də çatdırılmalıdır.

Yol təsərrüfatı orqanları onların tabeliyində olan avtomobil yollarında normal hərəkət rejiminin bərpası üçün təcili ölçü götürməyə borcludurlar.

Ümumi istifadədə olan avtomobil yollarında hərəkətin təhlükəsizliyini təmin etmək və yolların dağılmasının qarşısını almaq məqsədi ilə mexaniki nəqliyyat vasitələrinin müəyyən növləri və tipi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq məhdudiyyətlər tətbiq edilir.

Yükü və ya texniki göstəriciləri müəyyən olunmuş həddi aşmaqla yol konstruksiyalarını zədələyə və ya korlaya bilən nəqliyyat vasitələrinin buraxılışına icazə, avtomobil yollarının bərpası üçün müvafiq vəsait keçirildikdən sonra verilir.

Bu vəsaitin məbləği və ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.

Yükü və qabariti müəyyən olunmuş normaları aşan nəqliyyat vasitələrinin hərəkət marşrutu yolun və yol qurğularının sahibləri ilə də razılaşdırılmalıdır. İri qabaritli, ağır çəkili və ya təhlükəli yüklər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydalara əsasən yolun mülkiyyətçisi ilə razılaşdırılmış marşrut üzrə daşına bilər.

Bu cür nəqliyyat vasitələrinin hərəkət marşrutu xüsusi qurğular, mühəndis kommunikasiyaları ilə kəsişmə tələb edərsə, marşrut həmin qurğuların mülkiyyətçiləri ilə də razılaşdırılmalıdır.

**Maddə 30. Velosipedlərin, arabaların, mal-qaranın hərəkətinin təşkili**

Avtomagistralda texniki xarakterinə görə hərəkət sürəti 50 km/saatdan aşağı olan nəqliyyat vasitələrinin, o cümlədən velosipedlərin, arabaların, minik və yük heyvanlarının, habelə ev heyvanlarının hərəkətinə icazə verilmir.

Digər avtomobil yollarında bu subyektlərin hərəkəti yol hərəkəti qaydalarının tələblərinə və yoldan istifadə qaydalarına uyğun olaraq təşkil olunur.

Avtomobil yolundan mal-qaranın ötürülməsinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yerdən keçirməklə icazə verilir.

**Maddə 31. Nəqliyyat vasitələrinin bərə və üzən körpü ilə buraxılması**

Avtomobil yollarında bərə və üzən körpülər dövlət, bələdiyyə və xüsusi mülkiyyətə aid ola bilər. Bu qurğuların mülkiyyətçiləri nəqliyyat vasitələrini müvafiq icra hakimiy-əti orqanları ilə razılaşdırılmış qaydada və tariflə haqq alaraq buraxa

bilərlər.

**Maddə 32. Avtomobil yollarında kütləvi tədbirlərin keçirilməsi**

Avtomobil yollarında nümayişlər və yürüşlər, yığıncaqlar, mitinqlər, piketlər yalnız Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarının tələblərinə uyğun olaraq təşkil oluna bilər.

Avtomobil yollarında idman yarışları (qaçış, avto-velo və digər yarışlar) yol təsərrüfatı orqanlarının razılığı ilə verilən icazə əsasında təşkil olunur və xüsusi qaydalara müvafiq aparılır.

Bu tədbirlərin keçirilməsi mümkün dolama yolların köməyi ilə yol şəbəkəsinin fasiləsiz fəaliyyətini təmin etməklə həll edilməlidir.

Əmək və sosial münaqişələrin həlli məqsədi ilə siyasi etirazlarını bildirmek üçün avtomobil yollarını bağlamaq qadağandır.

**Maddə 33. Avtomobil yollarında sahibkarlıq və digər fəaliyyət növlərinin həyata keçirilməsi**

Avtomobil yollarında və ya təhkim zolağında sahibkarlıq və digər fəaliyyət növləri nəqliyyat vasitələrinin və piyadaların hərəkətinə mane olmamalı və avtomobil yolları mülkiyyətçilərinin razılığına uyğun olaraq xüsusi ayrılmış yerlərdə həyata keçirilməlidir.

Ümumi istifadədə olan avtomobil yollarının torpaq yatağı hüdudlarında ticarət və digər sahibkarlıq fəaliyyəti qadağandır. Bu məqsədlər üçün təhkim zolağında ayrılmış yolyanı sahədən istifadə qaydası isə müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

Avtomobil yolları ərazisində sahibkarlıq və digər fəaliyyəti həyata keçirən fiziki və hüquqi şəxslər, bu cür fəaliyyətin həyata keçirilməsi ilə yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məşğul ola bilərlər.

Yolyanı zolaqda ticarət və digər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi ve fiziki şəxslər, avtomobil yollarının mülkiyyətçiləri ilə bağlanmış müqavilə əsasında, müqavilədən irəli gələn öhdəliyi yerinə yetirməklə həyata keçirə bilər.

**Maddə 34. Avtomobil yollarının istifadəçilərinin hüquqları**

Dövlət avtomobil yolları istifadəçilərinin hüquqlarının müdafiəsinə təminat verir.

Aytomobil yolları istifadəçilərinin aşağıdakı hüquqları var:

- qanunvericiliklə müəyyən olunmuş xüsusi hallar istisna olmaqla, ümumi istifadədə olan dövlət və bələdiyyə avtomobil yolları ilə sərbəst və ödənişsiz hərəkət etmək, yol təsərrüfatı orqanlarının və onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində əmlakına və sağlamlağına dəymiş zərərin ödənilməsini tələb etmək və ya müvafiq məhkəmələrdə iddia qaldırmaq;
- yollardan istifadə etdiyi zaman ehtiyac yaranarsa, pulsuz təcili tibbi yardım almaq;
- müəyyən olunmuş qaydada yol təsərrüfatı orqanlarından, habelə həmin orqanların vəzifəli şəxslərindən şikayət etmək;
- yol təsərrüfatı orqanlarından avtomobil yollarının şəbəkəsi, marşrutları, yol şəraiti, hərəkətin müvəqqəti məhdudiyyəti və ya dayandırılması, daşına biləcək yükün miqdarı, qabariti və digər müvafiq məsələlər barədə məlumat almaq;
- yol təsərrüfatı orqanlarının məsul şəxslərindən nəzakətli münasibət tələb etmək.

## V Fəsil

## Avtomobil yollarının saxlanılmasının əsasları

**Maddə 35. Ümumi istifadədə olan avtomobil yollarının saxlanılmasının prinsipləri**

Avtomobil yollarının saxlanılması onların təyinatına görə istifadə edilməsi zamanı istifadəçilərin və nəqliyyat vasitələrinin fasiləsiz və təhlükəsiz hərəkətinə təminat yaratmalıdır.

Ümumi istifadədə olan avtomobil yollarının saxlanılması müvafiq içra hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilən qaydada yollardan istifadənin və yol hərəkətinin təhlükəsizliyini təmin edən norma və standartlara istinadən təşkil edilməlidir.

Yolların saxlanılması bu işlər üçün müvafiq imkanları olan və bu işlər üçün məsuliyyət daşıyan yol təsərrüfatı orqanları və ya xidmətləri tərəfindən həyata

keçirilməlidir.

**Maddə 36. Bələdiyyə, sahə və özəl avtomobil yollarının saxlanılması**

Yerli özünüidarəetmə orqanları ümumi istifadədə olmayan bələdiyyə avtomobil yollarının saxlanılmasını müstəqil təşkil edir.

Ümumi istifadədə olmayan bələdiyyə, sahə və özəl avtomobil yollarının saxlanılması onların mülkiyyətçiləri tərəfindən müəyyənləşdirilən qaydada təşkil edilir və onlar yolları istifadəçilərin və yol hərəkətinin təhlükəsizliyini təmin edən standartların tələblərinə cavab verən vəziyyətdə saxlamalıdır.

**Maddə 37. Avtomobil yollarının müayinəsi və diaqnostikası**

Müvafiq yol təsərrüfatı orqanları avtomobil yollarının nəqliyyat-istismar vəziyyətini, onların etibarlılıq və təhlükəsizlik səviyyəsini əks etdirən standartların və digər normativ-texniki sənədlərin tələblərinə uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə avtomobil yollarının müayinəsini və diaqnostikasını aparmağa borcludur. Müayinə aparılması qaydaları və onun dövriliyi müvafiq normativ hüquqi aktlarla müəyyənləşdirilir.

**Maddə 38. Avtomobil yollarının qorunması**

Dövlət avtomobil yollarının qorunması müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Dövlət avtomobil yollarının qorunmasını həyata keçirən orqanlar yol əmlakının qorunmasını onların korlanmasına səbəb ola biləcək mümkün halların qarşısını almaqla yerinə yetirirlər.

Avtomobil yollarının qorunmasını yerinə yetirən orqanlar qarşılıqlı fəaliyyət göstərirlər.

Avtomobil yollarının qorunmasını həyata keçirən subyektlərin strukturunu, hüquq və vəzifələrini onları yaratmış müvafiq icra hakimiyyəti orqanları müəyyən edir.

**Maddə 39. Ətraf mühitin qorunması**

Yol fəaliyyəti həyata keçirilən zaman ətraf mühitin qorunması haqqında Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq ekologiyanın və əhalinin sağlamlığının mühafizəsi tələbləri də yerinə yetirilməlidir.

Avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri ilə bağlı bütün layihələr üzrə işlərin maliyyələşdirilməsi və yerinə yetirilməsi yalnız dövlət ekoloji ekspertizasının müsbət rəyi alındıqdan sonra həyata keçirilir.

Avtomobil yollarının yaradılmasında yeni texnologiyanın, kimyəvi maddələrin tətbiqi xüsusi ekspertizanın onların təbiətə təsiri barədə müsbət rəyindən sonra tətbiq edilir.

Avtomobil yollarında işləyən yol təsərrüfatı orqanları ekoloji təhlükəsizlik normalarının tələblərinə riayət etməlidir.

Avtomobil yollarından istifadə edən hüquqi və fiziki şəxslər ətraf mühitə zərər vurmamalı, avtomobil yollarını və yolyanı zolağı çirkləndirməməlidir.

**Maddə 40. Avtomobil yollarının səfərbərliyə hazırlığı**

Avtomobil yollarının səfərbərliyə hazırlığı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq avtomobil yollarından fövqəladə şəraitdə istifadəsini təmin etmək məqsədi ilə həyata keçirilir.

Avtomobil yollarının səfərbərliyə hazırlığına rəhbərliyi dövlət avtomobil yollarında— müvafiq icra hakimiyyəti orqanları, bələdiyyə yollarında isə müvafiq bələfdiyyə orqanları həyata keçirirlər.

Yol təsərrüfatı orqanları avtomobil yollarında hərəkətin pozulmasına səbəb olan hadisələrin nəticələrini aradan qaldırmaq üçün müvafiq tədbirlər görməlidir. Bu məqsədlə onlar müvafiq maddi və texniki vəsaitlərlə təmin edilirlər.

## VI Fəsil

## Yol fəaliyyətinin iqtisadi əsasları

**Maddə 41. Yol təsərrüfatı subyektləri arasında iqtisadi münasibətlərin tənzimlənməsi**

Azərbaycan Respublikasında yol təsərrüfatı subyektlərinin fəaliyyətinin vahid prinsipləri rəhbər tutulur, rəqabət və mülkiyyətin forma müxtəlifliyi təmin edilir.

Qanunvericiliklə müəyyən edilmiş məhdudiyyət halları istisna olmaqla, yol təsərrüfatı subyektləri arasında münasibətlər bağlanmış müqavilə şərtləri çərçivəsində qurulur.

Avtomobil yollarının təmiri, tikintisi, yenidən qurulması, tədqiqi və sınağı üzrə layihə və podrat işlərinin icrası müsabiqə əsasında seçilən hüquqi və fiziki şəxslər tərəfindən yol təsərrüfatı orqanları ilə bağlanan podrat müqavilələri əsasında həyata keçirilir.

Yol işlərinin ayrı-ayrı növlərinin icrasında müqavilələrin şərtləri onların spesifik xüsusiyyətləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının, standart və normalarının tələblərinə əməl olunmasını da əhatə etməlidir.

Yol işlərinin icra keyfiyyətinə nəzarət yalnız bu işə səlahiyyətli olan yol təsərrüfatı orqanları, o cümlədən müqavilə əsasında bu məqsədlə cəlb olunan ixtisaslaşmış müəssisə və təşkilatlar tərəfindən həyata keçirilə bilər.

**Maddə 42. Yol təsərrüfatının əmlakı**

Yol təsərrüfatının əmlakı Azərbaycan Respublikasının dövlət mülkiyyətində, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

Yol təsərrüfatı əmlakının idarə edilməsi qüvvədə olan normativ hüquqi aktlara uyğun olaraq yolun mülkiyyətçiləri tərəfindən qəbul olunmuş qaydada həyata keçirilir.

Dövlət mülkiyyətindəki ümumi istifadədə olan avtomobil yollarının əmlakının tərkibinə avtomobil yolları, tikililər, qurğular və avadanlıqlar, həmçinin onların saxlanılması və idarə olunması üçün vacib olan torpaq sahələri daxildir.

Bələdiyyə yolları əmlakının tərkibi yol-küçə şəbəkəsinin xüsusiyyətləri və hərəkətin təhlükəsizliyi nəzərə alınaraq, müvafiq bələdiyyə orqanları tərəfindən müəyyən edilir.

Sahə və özəl avtomobil yolları əmlakının tərkibi onların mülkiyyətçiləri tərəfindən müəyyən edilir.

Ümumi istifadədə olan avtomobil yolları və yol qurğuları həmçinin onların tutduğu sahə, Azərbaycan Respublikası qanunvericiliyində başqa hal nəzərdə tutulmayıbsa, alqı-satqı, girov və digər mülki-hüquqi müqavilələrin bağlanması üçün obyekt ola bilməz.

Avtomobil yollarına mülkiyyət formalarının dəyişməsi zamanı yeni mülkiyyətçi əvvəlki mülkiyyətçidən avtomobil yollarını müəyyən edilmiş tələblərə cavab veren və yol hərəkətinin təhlükəsizliyini təmin edən vəziyyətə gətirilməsini tələb etmək hüququna malikdir.

Yeni tikilmiş avtomobil yollarına mülkiyyət hüququ Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən onların istismara qəbulundan sonra yaranır.

Avtomobil yollarının dövlət və ya bələdiyyə mülkiyyətinə keçməsi Azərbaycan Respublikası qanunlarının müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 43. Yol təsərrüfatının daşınmaz əmlakının qeydiyyatı**

Yol təsərrüfatının əmlakı və torpaq sahələri mövcud qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq qeydiyyatda olmalıdır.

Yol təsərrüfatı əmlakının və torpaq sahəsinin icarəsi də qeydiyyata alınır.

Yeni tikilən və yenidən qurulan avtomobil yolları həmin obyektlərin müəyyən olunmuş qaydada tərtib edilən istismara qəbul aktları əsasında qeydiyyata alınmalıdır.

Dövlət avtomobil yollarının qeydiyyatına çəkilən xərclər Dövlət Yol Fondundan ayırmalarda nəzərdə tutulur.

Avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatına, habelə bununla bağlı əməliyyatlara çəkilən xərci avtomobil yollarının mülkiyyətçiləri ödəyir.

Avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 44. Avtomobil yollarının yaradılması, saxlanması və inkişafı ilə bağlı işlərin maliyyələşdirilməsi və uçotu**

Azərbaycan Respublikasında yol şəbəkəsinin və yol təsərrüfatı orqanlarının fəaliyyəti ilə bağlı işlərin maliyyələşdirilməsi bu məqsədlə hazırlanmış planların və investisiya proqramlarının əsasında mülkiyyətçilər tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasında avtomobil yollarının yaradılması, saxlanılması və inkişafı aşağıdakı maliyyə mənbələri hesabına həyata keçirilir:

- dövlət büdcəsinin, o cümlədən Dövlət Yol Fondunun vəsaiti;
- yerli büdcələrin vəsaiti;

- investisiya layihələrinin müvafiq infrastruktur xərcləri üçün nəzərdə tutulan vəsaiti;
- kreditlər;
- fiziki və hüquqi şəxslərin vəsaitləri/qrant və başqa formada ayırdıqları ianələr.

Konkret maliyyə mənbələrindən istifadə qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyənləşdirilir.

Ayrılmış və sərf edilən hər bir vəsaitin istifadəsinin ayrıca uçotu təşkil edilir və yol fəaliyyəti barəsində müvafiq hesabat tərtib edilir. Uçot və hesabatın həyata keçirilməsi müvafiq qanunvericiliklə tənzimlənir.

Maliyyələşmə mənbəyindən və mülkiyyətçisindən asılı olmayaraq bütün avtomobil yollarında aparılan tikinti, yenidənqurma və təmir işləri müəyyən olunmuş qaydada tərtib edilən istismara qəbul aktları əsasında uçota alınır.

**Maddə 45. Yol təsərrüfatında əmək münasibətləri**

Yol təsərrüfatı orqanları işçilərinin əmək münasibətləri əmək qanunvericiliyi ilə tənzimlənir.

## VII Fəsil

## Beynəlxalq əməkdaşlıq, məsuliyyət və mübahisələrin həlli

**Maddə 46. Avtomobil yolları sahəsində beynəlxalq əməkdaşlıq**

Azərbaycan Respublikası avtomobil yolları sahəsində beynəlxalq əməkdaşlığın inkişafına, bu sahədə olan problemlərin həlli və onların hüquqi cəhətdən tənzimlənməsi və beynəlxalq nəqliyyat kommunikasiya sisteminə inteqrasiya olunmasına səy göstərir.

Azərbaycan Respublikası ərazisində yol işlərini icra edən və ya avtomobil yollarından istifadə edən xarici ölkələrin hüquqi və fiziki şəxsləri qanunvericiliklə nəzərdə tutulan hallar istisna olmaqla, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər hüquqlara malikdirlər, mövcud qanunvericilikdə və beynəlxalq müqavilələrdə nəzərdə tutulan qaydada məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikası ərazisinə gəlmiş avtonəqliyyat vasitələrinin mülkiyyətçiləri və onlardan istifadə edən xarici ölkə vətəndaşları öz məsuliyyət riskini sığorta etməlidir.

Nəqliyyat vasitələrinin mülkiyyətçilərinin və onlardan istifadə edən xarici ölkə vətəndaşlarının məcburi sığorta qaydaları və sığorta məbləğinin həcmi Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyənləşdirilir.

Beynəlxalq avtomobil marşrutu üçün avtomobil yollarından istifadə Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilə ilə tənzimlənir.

Xarici ölkələrin vətəndaşları və nəqliyyat vasitələrinin mülkiyyətçiləri Azərbaycan Respüblikası avtomobil yollarından istifadə edərkən Azərbaycan Respublikasının müəyyən etdiyi yol hərəkəti qaydalarına və avtomobil yollarından istifadə qaydalarına riayət etməlidirlər.

**Maddə 47. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Avtomobil yolları sahəsindəki fəaliyyətini həyata keçirərkən bu Qanunun, habelə Azərbaycan Respublikasının digər aidiyyəti normativ hüquqi aktlarının pozulmasında təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Yol fəaliyyətinin həyata keçirilməsi və ya avtomobil yollarından istifadə zamanı dəyən zərər könüllü, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmə qərarı əsasında ödənilir.

**Maddə 48. Yol təsərrüfatı orqanlarının, onların idarə, məəssisələrinin və vəzifəli şəxslərinin məsuliyyəti**

Avtomobil yollarının idarə olunmasını həyata keçirən yol təsərrüfatı orqanları, habelə onların idarə, müəssisələri və vəzifəli şəxsləri qanünvericiliklə müəyyən olunmuş qaydada avtomobil yolları haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət daşıyır.

**Maddə 49. Sahə və özəl avtomobil yolları mülkiyyətçilərinin məsuliyyəti**

Sahə və özəl avtomobil yollarının sahibləri bu yollardan istifadə edənlərin və dövlətin qarşısında öz vəzifələrinə və ya öhdəliklərinə görə, habelə avtomobil yolları haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət daşıyırlar.

**Maddə 50. Avtomobil yolları istifadəçilərinin məsuliyyəti**

Avtomobil yolları istifadəçiləri yol verdikləri aşağıdakı hüquq pozuntularına görə məsuliyyət daşıyırlar:

- yol konstruksiyalarının və qurğuların korlanmasına, zədələnməsinə və dağıdılmasına;
- avtomobil yollarından onların təyinatına uyğun olmayaraq istifadəyə görə;
- yol təsərrüfatı orqanları ilə razılaşdırmadan avtomobil yollarında və avtomobil yolları torpaqlarında iş görülməsi və xidmətlərin göstərilməsinə görə;
- icazəsiz başqa yolların qovuşma vaavtomobil yollarının başqa yollarla kəsişmə qurğularının tikintisinə, avtomobil yolları torpaqlarında xatirə (yaddaş) lövhələrinin qoyulmasına, reklam və digər icazəsiz tikililərə görə;
- yol hərəkəti qaydalarına və avtomobil yollarından istifadə qaydalarına riayət olunmamasına görə;
- avtomobil yol istifadəçisinin təqsiri üzündən baş vermiş yol-nəqliyyat hadisəsi nəticəsində avtomobil yollarına dəymiş ziyana görə;
- avtomobil yol hərəkətində fasilələrə səbəb olan hadisələr nəticəsində ziyan yetirilməsinə görə;
- yol qanunvericiliyinin digər tələb və normalarının pozulmasına görə.

**Maddə 51. Xarici dövlətlərin avtonəqliyyat vasitələrinin mülkiyyətçilərinin və istifadəçilərinin məsuliyyəti**

Avtomobil yollarında hərəkət qaydalarının pozulmasına yol vermiş xarici dövlətlərin nəqliyyat vasitələrinin mülkiyyətçiləri və istifadəçiləri Azərbaycan Respublikası qanunvericiliyinin müəyyən etdiyi qaydada məsuliyyətə cəlb olunurlar.

**Maddə 52. Dəyən zərərin ödənilməsi**

Yol təsərrüfatı orqanlarının, habelə onların idarə və müəssisələrinin öz vəzifələrini yerinə yetirmədiklərindən və ya lazımınca yetirmədiklərindən yol şəraitinin qeyri-qənaətbəxş olduğuna görə avtomobil yol istifadəçilərinin həyatına və sağlamlığına dəyən zərər həmin orqanların, onların idarə və müəssisələrinin vəsaiti hesabına ödənilir.

Yol konstruksiyalarının və qurğularının zədələnməsində və ya avtomobil yollarının gələcəkdə qismən və ya tam istifadədən çıxa bilməsi üçün şərait yaradılmasında təqsirkar olan avtomobil yolu istifadəçilərinin və ya yol təsərrüfatı müəssisələrinin fəaliyyəti nəticəsində dövlətə dəyən zərər onların vəsaiti hesabına ödənilir.

Ümumi istifadədə olan avtomobil yollarında dövlət mülkiyyətinə dəyən zərər pul vəsaiti formasında Dövlət Yol Fonduna, başqa mülkiyyət növləri üzrə isə müvafiq büdcələrə və şəxslərə ödənilir.

Yol konstruksiyalarının, tikililərinin və qurğularının zədələndiyi hallarda, maraqlı tərəflərin razılığı ilə, zərəri ödəmənin pul forması yol təsərrüfatı orqanının nəzarəti altında avtomobil yolu istifadəçisinin zədələnmiş konstruksiya və qurğularının bərpa işləri ilə də əvəz oluna bilər.

Bərpa işləri yol təsərrüfatı orqanları tərəfindən o şərtlə həyata keçirilə bilər ki, zərər vurmuş istifadəçi tərəflərin razılığı ilə işin icrası üçün kifayət edəcək pul vəsaitini, materialları, konstruksiyaları və digər əmlakı ona versin.

Avtomobil yolu torpaqlarından icazəsiz istifadə, bu torpaqlardan qeyri-qanuni istifadəyə sərf olunan vəsait ödənilmədən dayandırılır.

Zerərin dəyməsində təqsirkar olan istifadəçilər və icarəçilər zərəri ödəməklə yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada başqa məsuliyyətə də cəlb oluna bilərlər.

**Maddə 53. Mübahisələrin həlli qaydası**

Yol fəaliyyətinin həyata keçirilməsi, avtomobil yollarından istifadə və avtomobil yollarının mühafizəsi məsələləri üzrə mübahisələr yol təsərrüfatı orqanları və ya müvafiq məhkəmə tərəfindən öz səlahiyyətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada həll olunur.

Azərbaycan Respublikası ilə xarici dövlətlər və beynəlxalq yol orqanları arasında avtomobil yolları ilə bağlı məsələlər üzrə mübahisələr Azərbaycan Respublikasının

müvafiq beynəlxalq müqavilə və sazişlərinə uyğun olaraq həll edilir.

**Maddə 54. Keçid müddəaları**

Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktları bu Qanuna uyğunlaşdırılana qədər onların bu qanuna zidd olmayan normaları tətbiq edilə bilər.

**"Avtomobil yolları haqqında"**
**Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**
**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin altıncı hissəsində, 14-cü maddəsinin dördüncü hissəsində, 15-ci maddəsinin birinci və üçüncü hissələrində, 16-cı maddəsinin birinci hissəsində, 18-ci maddəsinin birinci hissəsində və beşinci hissəsində (birinci halda), 19-cu maddəsinin birinci hissəsində, 22-ci maddəsinin ikinci və dördüncü hissələrində, 23-cü maddəsinin beşinci və yeddinci hissələrində, 26-cı maddəsinin dördüncü hissəsində, 29-cu maddəsinin üçüncü, altıncı və yeddinci hissələrində, 30-cu maddəsinin üçüncü hissəsində, 31-ci maddədə, 35-ci maddəsinin ikinci hissəsində, 38-ci maddəsinin birinci və dördüncü hissələrində və 40-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 23-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş ümumi istifadədə olan avtomobil yollarının adlandırılması, indeksasiyası və qeydiyyata alınması qaydalarını təsdiq etsin;

həmin Qanunun 43-cü maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş avtomobil yollarının və yol təsərrüfatının digər daşınmaz əmlakının qeydiyyatı qaydası, habelə həmin qeydiyyatı həyata keçirən icra hakimiyyəti orqanı barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; .

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin üçüncü və beşinci hissələrində, 6-cı maddəsinin ikinci hissəsində, 7-ci maddəsinin ikinci və dördüncü hissələrində, 8-ci maddəsinin üçüncü hissəsində, 9-cu maddəsinin üçüncü hissəsində, 10-cu maddəsinin ikinci hissəsində, 11-ci maddəsinin üçüncü hissəsində, 14-cü maddəsinin ikinci və səkkizinci hissələrində, 23-cü maddəsinin dördüncü hissəsində, 28-ci maddəsinin birinci hissəsində, 29-cu maddəsinin on üçüncü və on dördüncü hissələrində və 43-cü maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 21-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, "Azəravtoyol" Dövlət Şirkəti və digər əlaqəli mərkəzi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri hüdudlarında həyata

keçirirlər;

həmin Qanunun 1-ci maddəsinin on birinci abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini, habelə Qanunun mətni üzrə nəzərdə tutulmuş “yol təsərrüfatı orqanı”nın səlahiyyətlərini (dövlət yolları barəsində) “Azəravtoyol” Dövlət Şirkəti həyata keçirir;

həmin Qanunun 18-ci maddəsinin beşinci hissəsində (ikinci halda) nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər.

**Elektrik və istilik stansiyaları haqqında Azərbaycan Respublikasının Qanunu**

*Qəbul edilmişdir: 28 dekabr 1999-cu il, № 784-IQ*

## IFəsil

## Ümumi müddəalar

**Maddə 1. Qanunun tətbiq sahəsi və məqsədi**

Bu Qanun Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq elektrik və istilik enerjisi istehsal edən daimi qurğuların (bundan sonra — elektrik stansiyaları) layihələndirilməsi, inşası, istismarı və istifadəsinin hüquqi əsaslarını müəyyən edir. Qanunla eyni məkanda yerləşən vahid (ayrılmaz) texnoloji əlaqədə olan enerji istehsal qurğuları toplusuna bir elektrik stansiyası kimi baxılır.

**Müstəqil elektrik stansiyaları** — iqtisadi və təşkilati cəhətdən tam müstəqil olan və vahid dövlət elektroenergetika sisteminə tabe olmayan hüquqi şəxslərdir.

Bu Qanunun məqsədi:

- elektrik stansiyalarında, o cümlədən müstəqil elektrik stansiyalarında elektrik və istilik enerjisinin istehsalının;
- elektrik və istilik enerjisi istehsalının sənaye prosesləri̇lə birgə şəraitdə səmərəliliyinin;
- elektrik və istilik enerjisi istehsalçıları, nəqledicilərі və paylaşdırıcıları arasında əməkdaşlığın;
- təhlükəsizliyə, əhalinin sağlamlığına və ətraf mühitə mənfi təsirin məhdudlaşdırılmasının hüquqi təminatından ibarətdir.

**Maddə 2. Elektrik və istilik stansiyalarının tikintisi, yenidən qurulması və istismarı üzrə hüquqlar**

Bu Qanunun müddəalarına əsasən hər hansı üçüncü tərəfin (istənilən fiziki və hüquqi şəxsin) hüquqlarını məhdudlaşdırmadan istənilən fiziki və hüquqi şəxs özünə məxsus olan və ya sahibi tərəfindən bu məqsədlə istifadə etmək üçün ona verilən daşınmaz əmlakdan istifadə edərək elektrik stansiyası tikmək, onu yenidən qurmaq və istismar etmək hüququna malikdir.

## II Fəsil

## Kiçik və sənaye tipli elektrik stansiyaları

**Maddə 3. Kiçik elektrik stansiyaları**

1. Aşağıda müəyyən edilmiş şərtlərə cavab verən və ya aşağıdakı hədlərdə elektrik gücünə malik olan stansiyalara kiçik elektrik stansiyaları kimi baxılır:

a) elektrik və istilik enerjisi istehsal edən günəş elektrik stansiyaları;

b) gücü 10 kilovatdan 100 kilovata qədər olan, hər hansı üçüncü tərəfin daşınmaz əmlakından müvafiq norma və standartlara uyğun məsafədə yerləşdirilən, elektrik enerjisi istehsal edən külək elektrik stansiyaları;

v) gücü 50 kilovatdan 10.000 kilovata qədər olan, sabit su axımında yerləşdirilən və istifadə edilən suyun dərhal yenidən öz məcrasına qaytarılmasını təmin edən su elektrik stansiyaları;

q) təbii odun istisna olmaqla, təqribən 80 faizi bioloji kütlədən alınan qaz və ya digər yanacaq növü vasitəsi ilə elektrik və istilik enerjisi istehsal edən elektrik stansiyaları;

ğ) ümumi elektrik təchizatında fasilələr yarandığı halda yanacaqla işlədilən elektrik enerjisi istehsal edən qəza elektrik stansiyaları. Bu stansiyaların fəaliyyət müddəti ümumi enerji təchizatında yaranan gözlənilməz fasilələr və təmir üçün tələb olunan zamanla məhdudlaşdırılır.

2. Energetika fəaliyyəti ilə məşğul olmağa xüsusi icazəsi olan şəxslərdən aşağıdakı şərtlər təmin edildiyi təqdirdə kiçik elektrik stansiyalarının tikintisi və istismarı üçün xüsusi icazə və tender proseduru tələb edilmir:

a) kiçik elektrik stansiyaları və onlarla birləşən tikililər hüquqi və fiziki şəxslər və ya onların birliklərinin daşınmaz əmlakı və ya onlara istifadəyə verilmiş əmlak üzərində tikilib istismar edilərsə və enerji həmin ərazidə (əmlakda) istifadə olunarsa;

b) elektrik və istilik enerjisi, bir qayda olaraq, hüquqi və fiziki şəxsin və ya onların birliklərinin daşınmaz əmlakı və ya onlara istifadəyə verilmiş əmlak üzərində istehsal olunarsa və üçüncü tərəf bu enerji ilə 6-cı maddədə nəzərdə tutulmuş tələblərə müvafiq təmin edilərsə;

v) elektrik stansiyası və onun komponentləri, ötürücü və paylaşdırıcı xətlər, enerji materiallarının saxlanılması yerləri bu Qanunun müddəalarına müvafiq tikilərsə və istismar edilərsə.

Bərpa olunan enerji mənbələri əsasında işləyən stansiyaların tikintisinə dövlət tərəfindən dotasiya verilə bilər. Həmçinin bu stansiyalarda istehsal edilən enerjinin alınmasına heç bir məhdudiyyət olmadan təminat verilir.

Qanunvericiliklə müəyyən edilən hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən kiçik elektrik stansiyalarının tikintisi qadağan edilə, onların fəaliyyəti yoxlanıla, müvəqqəti dayandırıla və ya fəaliyyətinə xitam verilə bilər.

**Maddə 4. Sənaye tipli elektrik stansiyaları**

1. Bu Qanunun 3-cü maddəsində müəyyən edilmiş elektrik stansiyaları istisna olmaqla, qalan bütün elektrik stansiyalarına sənaye tipli elektrik stansiyaları kimi baxılır. Kiçik elektrik stansiyaları üçün bu Qanunun 3-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulan şərtlər eyni qaydada sənaye tipli elektrik stansiyalarına da şamil edilir.

2. Sənaye tipli elektrik stansiyalarının tikintisi və istismarı üzrə fəaliyyət yalnız müvafiq icra hakimiyyəti orqanının xüsusi icazəsi əsasında həyata keçirilir.

3. Bu Qanunla aşağıdakı hallar elektrik stansiyasının tikintisi kimi qəbul edilir:

a) elektrik stansiyalarının layihədə nəzərdə tutulmuş istehsal gücünün artırılması;

b) elektrik stansiyalarının fəaliyyətini təmin edən enerji daşıyıcılarının layihədə nəzərdə tutulmuş növünün dəyişdirilməsi;

v) ardıcıl olaraq 2 ildən artıq fəaliyyət göstərməyən elektrik stansiyalarının yenidən fəaliyyətə başlaması.

4. Elektrik və istilik enerjisi istehsalı müəssisəsinin əsas sənaye istehsal fəaliyyətinin tərkib hissəsi olarsa, bu maddənin 2-ci bəndi tətbiq olunmur. Bu halda elektrik və istilik enerjisi istehsalının bu müəssisənin əsas fəaliyyət növü üçün alınan icazə əhatəsində baxılır. Bu şərt həmçinin:

a) tərkibində fəaliyyət göstərdiyi sənaye müessisəsinin hüdudlarında elektrik və istilik enerjisinin nəqli və paylaşdırılmasına;

b) ümumi elektrik və istilik təchizatı şəbəkələri ilə əlaqəsi olməyan və onlara ayrılmış torpaq sahəsindən 10.000 metr məsafədə yerləşən istehlakçılara enerji verilməsinə aiddir.

**Maddə 5. Sənaye tipli elektrik stansiyalarının tikintisinə və istismarına əsaslar**

1. Mövcud istehsalçılar və paylayıcılar tərəfindən sifarişçilərə və istehlakçılara elektrik və istilik enerjisi vermək imkanı məhdudlaşarsa, müvafiq icra hakimiyyəti orqanı:

- tikiləcək elektrik stansiyası sifarişçilərin və istehlakçıların cari və perspektiv tələblərini standartlara uyğun, keyfiyyətli, lazımi miqdarda, müntəzəm və vaxtında ödənilməsini təmin etdiyi;
- elektrik stansiyası tərəfindən təklif olunan enerjinin qiymətləri digər təchizatçıların təklif etdiyi qiymətdən aşağı olduğu;
- elektrik stansiyasının istehsal etdiyi enerjinin qiymətləri yalnız təhlükəsizlik, ətraf mühitin qorunması, sağlamlıq tədbirləri və digər sosial problemlərin həlli ilə əlaqədar mövcud qiymətlərdən yüksək olduğu təqdirdə yeni sənaye tipli elektrik stansiyasının tikintisinə xüsusi icazə verir. .

2. Sənaye tipli elektrik stansiyasının tikintisinə və istismarına tələb olunan təşkilati, avadanlıq təminatı, ixtisaslı personal hazırlığı olan şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi icazə verilir.

3. Elektrik stansiyalarının tikintisi və istismarı üçün xüsusi icazə təsdiq olunmuş qaydalar əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

**Maddə 6. Etektrik stansiyalarında istehsal edilmiş elektrik enerjisinin nəql edilməsi və paylaşdırılması**

1. Qanunvericiliklə müəyyən edilmiş qaydada elektrik stansiyasının istismarına icazəsi olan şəxs, ötürücü xətlər onun daşınmaz əmlakında və ya ona istifadəyə verilmiş əmlakda olduğu təqdirdə elektrik enerjisini sənaye müəssisələrinə və başqa istehlakçılara verə bilər.

2. Elektrik stansiyasının istismarına icazəsi olan şəxs, öz qurğularını, elektrik enerjisi paylayıcısının əvvəlcədən yazılı razılığı olmadan onun xətlərinə və nəqletmə qurğularına qoşabilməz.

3. Elektrik stansiyasında istehsal edilmiş elektrik enerjisinin nəql edilməsi və ya paylaşdırılmasının texniki və kommersiya şərtləri açıq şəkildə tərəflər arasında müzakirə edilir və müvafiq qərarlar qəbul edilir.

Bu qərarlar tərəflərin ümumi marağına müvafiq olmalı və aşağıdakıları nəzərdə tutmalıdır:

a) elektrik enerjisi təchizatının kəsilməsinin qarşısını almaq tədbirləri;

b) elektrik enerjisinin nəqli və paylaşdırılması üzrə qarşılıqlı əlaqələrin inkişafı;

v) elektrik enerjisini nəqletmə və paylaşdırma vasitələrinin inkişafı və istismarı;

q) elektrik enerjisinin idxalı, ixracı və tranziti üçün elektrik veriliş xətlərinin tikilməsi və yenidən qurulması.

**Maddə 7. Dövlət əhəmiyyəti kəsb edən müstəqil elektrik stansiyaları üçün dövlət təminatı**

1. Yeni elektrik stansiyasının tikilməsi və ya köhnə elektrik stansiyasının yenidən qurulması bu Qanunun müddəalarına müvafiq aparılırsa, o müstəqil elektrik stansiyası statusuna malikdirsə və ölkə üçün ictimai maraq (dövlət əhəmiyyəti) kəsb edirsə, yerli və xarici investorları cəlb etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı (layihəyə üstünlük statusu verməklə) aşağıda göstərilən üstünlüklərin lazımi səviyyədə və müddətdə istifadəsinə təminat verir:

a) müstəqil elektrik stansiyasının tikintisi üçün lazım olan bütün əsas istehsal fondlarının (avadanlıqların və ya onların hissələrinin) idxalının (geriyə ixracının) bütün növ vergi və rüsumlardan azad edilməsi;

b) digər elektrik stansiyaları ilə müqayisədə heç bir ayrı-seçkiliyə və məhdudlaşdırmaya yol vermədən, müstəqil elektrik stansiyasının (ölkədən və ya xaricdən) yanacaqla təmin olunmasına şərait yaradılması;

v) müstəqil elektrik stansiyası, nəqledici və paylaşdırıcı arasında bağlanan müqaviləyə müvafiq olaraq elektrik enerjisinin istənilən təyinatlı məntəqəyə çatdırılması;

q) müstəqil elektrik stansiyasının istehsal etdiyi enerjinin heç bir məhdudiyyətə və ayrı-seçkiliyə yol vermədən enerji bazarına çıxarılması;

ğ) yerli tələbatı ödəməklə bərabər məhdudiyyət qoymadan və xüsusi icazə tələb etmədən müstəqil elektrik stansiyasının istehsal etdiyi elektrik enerjisinin bütövlüklə və ya qismən ixrac edilməsi;

d) öz gəlir payının və Azərbaycan Respublikasına gətirilmiş ona məxsus əsas fondların satılmasından əldə olunan istənilən pul vəsaitinin investor tərəfindən tam istifadəsi, sərbəst dönərli valyutada xaricə köçürülməsi;

e) qanunvericilikdə nəzərdə tutulmuş digər üstünlüklərin təminatı.

2. Dövlət həmçinin xarici fiziki və hüquqi şəxs olan investorların mülkiyyəti kimi müstəqil elektrik stansiyaların tikilməsinə təminat verir. Bu halda müvafiq hakimiyyət orqanları bu maddənin 1-ci bəndində göstərilən təminatlarla bərabər xarici investorların xərclərini ödəmək məqsədi ilə investorlar qrupunun yaradılması, dövlət qeydiyyatından keçməsi, xüsusi icazələrin verilməsi, idxal, ixrac və valyuta əməliyyatlarının təşkili kimi müvafiq təşkilati məsələlərin həllinə;

müstəqil elektrik stansiyasının dövlət enerji sistemində birgə fəaliyyət göstərməsinə;

elektrik enerjisinin satılmasından əldə edilən xarici paylar da daxil olmaqla, vəsaitin istənilən valyuta ilə ödənilməsinə;

fors-major halları da daxil olmaqla, fövqəladə hadisələr şəraitində uzunmüddətli borcların ödənilməsinə şərait yaradılması üçün təminat verir.

## III Fəsil
## Elektrik stansiyalarının tikintisinə, yenidən qurulmasına və istismarına texniki tələblər

**Maddə 8. Ümumi tələblər**

1. Elektrik stansiyalarının (enerji daşıyıcıları saxlanılan qurğular da daxil olmaqla) bütün qurğuları ümumi, texniki və hüquqi tələb və şərtlərə müvafiq olaraq təhlükəsiz və qabaqcıl texnologiyaya uyğun layihələndirilməli, tikilməli, istismar edilməli və saxlanılmalıdır.

2. Elektrik enerjisinin nəqli və paylaşdırılması şəbəkəsinə qoşulmuş elektrik stansiyaları tərəflərin razılaşdırdıqları texniki tələblərə müvafiq istismar edilir və saxlanılır. Elektrik stansiyasının istismarına icazəsi olan şəxs elektrik enerjisi verilməsinin təmin edilməməsi nəticəsində vurduğu ziyan üçün məsuliyyət daşıyır. Elektrik stansiyası tərəfindən razılaşdırılmış şərtlər pozularsa, elektrik enerjisinin nəqli və paylaşdırılması ilə məşğul olan şəxslər elektrik stansiyasını öz şəbəkələrindən ayıra və ya onun qarşısında müvafiq tələblər qoya bilərlər.

**Maddə 9. Elektrik stansiyaları üçün tullantı hədləri**

Elektrik stansiyalarının fəaliyyəti nəticəsində yaranan bütün tullantı növlərinin hədləri beynəlxalq normalara və standartlara və ya onların əsasında Azərbaycan Respublikasında qəbul edilmiş göstəricilərə müvafiq olmalıdır və onlar bu Qanun qüvvəyə mindikdən sonra tikilən elektrik stansiyalarına tətbiq edilir. Bu şərtlər bu Qanun qüvvəyə mindikdən sonra qurulan və ya istehsal gücü artırılan elektrik stansiyalarının yeni hissəsinə də şamil edilir.

**Maddə 10. Atmosferi çirkləndirən tullantı hədləri**

1. Elektrik stansiyasının istismarına icazəsi olan şəxs elektrik stansiyasının hər istismar saatı üçün orta aylıq və illik tullantıların ümumi həcmi və uçotunun aparılması üçün nəzarət qaydalarını müəyyən edir.

2. Elektrik stansiyalarının nominal gücündən asılı olaraq onun tullantı hədləri beynəlxalq normalara və standartlara və ya onların əsasında Azərbaycan Respublikasında qəbul edilmiş göstəricilərə müvafiq olmalıdır. Tullantılar hər bir elektrik stansiyası üçün müntəzəm olaraq ölçülür.

3. Qaz tullantıları xüsusi borular vasitəsilə elə kənarlaşdırılmalıdır ki, külək onları sərbəst şəkildə apara bilsin. Bu borular norma və standartlara uyğun olmalıdır.

**Maddə 11. Səs-küy, qoxu və titrəyişlərin hədləri**

Elektrik stansiyasının yerləşdiyi sahənin divan və ya hasarında:

elektrik stansiyasından gələn səs-küy 40 db-dən yüksək olmamalıdır;

elektrik stansiyasından heç bir yanıq qoxusu gəlməməlidir;

xüsusi texniki vasitələrdən istifadə etmədən heç bir titrəyiş hiss edilməməlidir.

**Maddə 12. İstifadə edilmiş su tullantılarının tərkibi və istilik hədləri**

Elektrik stansiyalarında istifadə olunmuş su tullantılarının istiliyinin və tərkib elementlərinin hədləri beynəlxalq normalara və standartlara və ya onların əsasında Azərbaycan Respublikasında qəbul edilmiş göstəricilərə müvafiq olmalıdır.

**Maddə 13. Tullantıların azaldılması tədbirləri**

Yeni elektrik stansiyalarında tullantıların minimal səviyyədə olmasını təmin etmək məqsədi ilə tullantılardan digər sənaye sahələrində istifadə edilməsi üçün stansiyalar tələb olunan ən müasir texnologiya əsasında layihələndirilir, tikilir və istismar edilir.

Elektrik stansiyasının tullantıları qanunvericiliyə müvafiq olaraq stansiyanın sərəncamında olur. Elektrik stansiyası təhlükəsizliyə, ətraf mühitə və sağlamlığa göstərilə biləcək təsirin qarşısının alınması üçün bütün tələb olunan tədbirləri görməlidir.

**M addə 14. Qəzalar və bədbəxt hadisələr**

Təhlükəsizliyə, ətraf mühitə və insanların sağlamlığına zərər vura biləcək və ya artıq zərər vurmaqda olan qəza və bədbəxt hadisələr zamanı elektrik stansiyasının

istismarına icazəsi olan şəxs müvafiq icra hakimiyyəti orqanını dərhal xəbərdar edir. Elektrik stansiyasını istismar edən şəxslər qəzaların və bədbəxt hadisələrin qarşısının alınması üçün müvafiq icra hakimiyyəti orqanının buna aidiyyəti olan sərəncamlarının yerinə yetirilməsi üçün bütün tədbirləri görür.

**Maddə 15. Qanunun pozulmasına görə məsuliyyət. Cərimələr**

İnşaat və istismar vaxtından asılı olmayaraq, elektrik stansiyasının tikintisi və ya onun istismarı bu Qanunun tələblərinə uyğun gəlmədikdə və ya ətraf mühitə, əhalinin sağlamlığına və üçüncü şəxslərin əmlakına təhlükə törətdikdə təqsirkar olan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.

Bu barədə yazılı şikayət daxil olduqda, onunla əlaqədar qərar qəbul etmək səlahiyyəti müvafiq icra hakimiyyəti orqanına məxsusdur. Müvafiq icra hakimiyyəti orqanı şikayətlə əlaqədar qəbul edilmiş qərarın nəzərdə tutulmuş müddətdə yerinə yetirilməsini tələb edə bilər.

Müvafiq icra hakimiyyəti orqanı qanunvericilikdə nəzərdə tutulan hallarda müvafiq cərimələr tətbiq etmək hüququna malikdir.

Enerji istehsalçıları və təchizatçıları istehlakçıların hüquqlarının pozulması hallarına səbəb olan hərəkətlərinə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

**"Elektrik və istilik stansiyaları haqqında"**
**Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 5-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulmuş elektrik stansiyalarının tikintisi və istismarı üçün xüsusi içazənin verilməsi qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun 3-cü maddəsinin 2-ci bəndində, 4-cü maddəsinin 2-ci bəndində, 5-ci maddəsinin 1-ci, 2-ci və 3-cü bəndlərində, 7-ci maddəsinin 1-ci bəndində, 14-cü maddəsində və 15-ci maddəsində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

"Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

## Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikasının Qanunu

***Qsbul edilmişdir: 30 dekabr 1999-cu il, № 788-IQ***

*Bu Qanun Azərbaycan Respublikasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların münbitliyinin bərpasının, artırılmasının və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir.*

### I Fəsil

**Əsas müddəalar**

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**torpaqların münbitliyi** — torpağın əlverişli morfoloji, fiziki-kimyəvi, mexaniki və bioloji şəraitdə bitkiləri qida elementləri, rütubət ehtiyatı və onların həyatı üçün digər vacib maddələrlə müntəzəm təmin etmə qabiliyyəti;

**torpaqların münbitliyinin təmin olunması** — torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində həyata keçirilən hüquqi, iqtisadi və təşkilati tədbirlər sistemi;

**torpaqların münbitliyinin bərpası** — təbii və antropogen proseslərin zərərli təsiri nəticəsində torpaqların itirilmiş münbitliyini yaxşılaşdırmaq məqsədi ilə həyata keçirilən aqrotexniki, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlər sistemi;

**torpaqların münbitliyinin artırılması** — düzgün becərilməməsi nəticəsində təbii münbitliyi aşağı düşmüş torpaqların münbitliyinin yüksəldilməsi sahəsində aparılan aqro-texniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlər sistemi;

**torpaqların münbitliyinin mühafizəsi** — hazırda təsərrüfat dövriyyəsində olan, habelə münbitliyi bərpa edilmiş və yaxşılaşdırılmış torpaqların münbitliyinin qorunub saxlanmasına yönəldilmiş aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlər sistemi;

**torpaqların çirklənməsi** — nsanların sağlamlığına, ətraf mühitə və torpağın münbitlik xassələrinə zərərli təsir göstərəcək mlqdarda müxtəlif mənşəli kimyəvi birləşmələrin, ağır metalların, radioaktiv elementlərin, məişət və istehsalat tullantılarının, patogen və digər zərərli orqanizmlərin torpaqlarda toplanma prosesi.

**Maddə 2. Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Torpaqların münbitliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, bu Qanunla əlaqədar qəbul edilmiş normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının torpaq qanunvericiliyindən ibarətdir.

Torpaqların mütabitliyinin bərpası, artırılması və mühafizəsi ilə əlaqədar meydana çıxan yerin təki, meşə, su, bitki və heyvanlar aləmi, mədəni və təbii landşaftlar, habelə mülkiyyət, əmlak və digər münasibətlər bu Qanunla yanaşı Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

**Maddə 3. Torpaqların münbitliyi haqqında qanunvericiliyin məqsəd və vəzifələri**

Torpaqların münbitliyi haqqında qanunvericiliyin məqsədi Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq torpaqların təbii münbitlik xassələrinin bərpası, artırılması və mühafizəsinin dövlət tənzimlənməsinin ümumi qaydalarını müəyyən etməkdir.

Torpaqların münbitliyi haqqında qanunvericiliyin vəzifələri torpaqların səmərəli istifadəsi üçün əlverişli şərait yaradılması, az məhsuldar və istifadəsiz torpaqların münbitliyini yaxşılaşdırmaqla təsərrüfat dövriyyəsinə cəlb etməkdir.

**Maddə 4. Münbitliyi təmin olunan torpaqlar**

Məqsədli istifadəsinə və hüquqi rejiminə görə münbitliyi təmin olunan torpaqlara kənd təsərrüfatı təyinatlı, kənd təsərrüfatı ehtiyacları üçün istifadə olunan və oluna bilən az yararlı və yararsız torpaqlar daxildir.

Torpaqların kənd təsərrüfatı ehtiyacları üçün yararlı olub-olmadığı Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilir.

Başqa kateqoriyalara aid edilmiş torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla bu Qanunla tənzimlənir.

**Maddə 5. Torpaqların münbitliyinin təmin olunmasının əsas prinsipləri**

Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi aşağıdakı priosiplərə əsaslanır:

torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət tənzimlənməsinin və

nəzarətinin zəruriliyi;

torpaqların münbitliyinin bərpasının, artırılmasının və mühafizəsinin müvafiq qaydada təsdiq edilmiş standartlar, normalar, qaydalar, reqlamentlər və digər normativ sənədlər əsasında aparılması;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində vahid elmi-texniki və investisiya siyasətinin həyata keçirilməsi;

torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində həyata keçirilən aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər tədbirlərin ətraf mühitin mühafizəsi ilə əlaqələndirilməsi və uzlaşdırılması.

## II Fəsil
## Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində idarəetmə

**Maddə 6. Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində idarəetmə sistemi**

Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində idarəetmə sisteminə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, bələdiyyələr, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri daxildir.

**Maddə 7. Torpaqların münbitliyinin təmin olunması sahəsində dövlətin vəzifələri**

Torpaqların münbitliyinin təmin olunması sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

- torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin hazırlanması və həyata keçirilməsi;
- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində standartların, normaların, qaydaların, reqlamentlərin və digər normativ hüquqi aktların hazırlanması, qəbul edilməsi, onlara riayət olunmasına nəzarət edilməsi;
- torpaqların münbitliyinin təmin olunması sahəsində məqsədli dövlət və regional proqramların hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi;
- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində vahid elmi-texniki və investisiya siyasətinin həyata keçirilməsi;
- dövlət orqanlarının, bələdiyyələrin, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpaqların münbitliyinin təmin olunması sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi;
- torpaqların münbitlik xassələrini səciyyələndirən göstəricilərin uçotunun və monitorinqinin aparılması;
- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi;
- torpaqların münbitliyinia bərpası, artırılması və mühafizəsi sahəsində dövlət və regional proqramlar əsasında həyata keçirilən layihə-axtarış, elmi-tədqiqat və tətbiq işlərinin maliyyələşdirilməsi;
- Azərbaycan Respublikasının torpaq və aqrar qanunvericiliyi ilə müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş digər vəzifələrin həyata keçirilməsi.

**Maddə 8. Torpaqların münbitliyinin təmin olunması sahəsində bələdiyyələrin vəzifələri**

Torpaqların münbitliyinin təmin olunması sahəsində bələdiyyələrin vəzifələri aşağıdakılardır:

- torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət siyasətinə əməl etmək;
- bələdiyyə mülkiyyətinə aid edilmiş torpaqların münbitliyinin təmin olunması sahəsində qanunvericiliyə uyğun müvafiq qərarlar qəbul etmək;
- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində yerli proqramlar hazırlamaq, həyata keçirmək və icrasına nəzarət etmək;
- torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət orqanları və beynəlxalq təşkilatlar qarşısında müvafiq məsələlər qaldırmaq;
- yerli büdcələrin tərkibində torpaqların münbitliyinin təmin olunması sahəsində

xərclər müəyyənləşdirmək və onların maliyyələşdirilməsini həyata keçirmək;

- öz əraziləri daxilində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən torpaq sahələrində ətraf mühitə və başqalarının torpaqlarına zərərli təsir göstərə bilən tədbirlərin məhdudlaşdırılmasını və dayandırılmasını tələb etmək;
- öz səlahiyyətləri daxilində bələdiyyə torpaqlarının səmərəli istifadəsinə və münbitliyinin mühafizəsinə nəzarət etmək;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə onların səlahiyyətinə aid edilmiş digər vəzifələri həyata keçirmək.

**Maddə 9. Torpaqların münbitliyinin təmin olunması sahəsində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin vəzifələri**

Torpaqların münbitliyinin təmin olunması sahəsində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin vəzifələri aşağıdakılardır:

- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində müəyyən olunmuş standartlara, normalara, qaydalara, reqlamentlərə və digər normativ hüquqi aktlara riayət etmək;
- torpaq sahəsi üzərində hüquqların həyata keçirilməsi zamanı Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş öhdəliklərə, məhdudiyyətlərə və servitutlara əməl etmək;
- torpaqların texnogen çirklənməsi və tənəzzülə uğraması halları barədə müvafiq icra hakimiyyəti orqanlarını məlumatlandırmaq;
- mülkiyyətində, istifadəsində və icarəsində olan torpaqlarda aqrokimyəvi, fitosanitar, ekoloji və toksikoloji müayinələrin, habelə torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotunun və monitorinqinin aparılmasına şərait yaratmaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

## III Fəsil
## Torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət tənzimlənməsi

**Maddə 10. Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində məqsədli proqramlar**

Torpaqların münbitliyinin təmin olunması üçün məqsədli dövlət, regional və yerli proqramlar hazırlanır və həyata keçirilir.

Məqsədli dövlət və regional proqramların hazırlanması, təsdiqi və yerinə yetirilməsi müvafiq icra hakimiyyəti orqanları, yerli proqramların hazırlanması, təsdiq edilməsi və yerinə yetirilməsi isə bələdiyyələr tərəfindən həyata keçirilir.

Müvafiq icra hakimiyyəti orqanı hər il torpaqların dövriyyəsi, münbitliyinin vəziyyəti, bərpasına və artırılmasına yönəldilmiş dövlət himayəsi barədə müvafiq icra hakimiyyəti orqanına milli hesabat təqdim edir.

**Maddə 11. Torpaqların münbitliyinin təmin olunması sahəsində normalaşdırma**

Torpaqların münbitliyinin təmin olunması sahəsində normalaşdırma torpaqların aqro-texniki, aqrokimyəvi, meliorativ, fitosanitar və eroziyaya qarşı mübarizə tədbirləri üzrə tələblərdir və müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş dövlət standartları, normaları, qaydaları və reqlamentləri (normalaşdırma tələbləri) vasitəsi ilə həyata keçirilir.

Torpaqların münbitliyinin təmin olunması sahəsində normalaşdırma tələblərinə əməl edilməsi bütün torpaq mülkiyyətçiləri və istifadəçiləri üçün məcburidir.

**Maddə 12. Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotu və monitorinqi**

Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotu dövlət orqanlarını, bələdiyyələri, hüquqi və fiziki şəxsləri torpaqların münbitliyinin vəziyyəti barədə məlumatlarla təmin etmək məqsədi ilə aparılır.

Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotu torpaq, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə, ekoloji və toksikoloji elmi-tədqiqat işlərinin nəticələrinin məlumat toplusudur, vahid sistem üzrə aparılır və dövlət torpaq kadastrının məlumatlarına daxil edilir.

Torpaqların münbitlik xassələrinin göstəricilərinin uçotunun aparılması qaydaları müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

Münbitlik xassələrinin monitorinqi torpaqların monitorinqinin tərkib hissəsi olaraq Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada aparılır.

**Maddə 13. Torpaqlara aqrokimyəvi xidmət**

Torpaqların münbitlik xassələrini öyrənmək, mineral, üzvi gübrələrə və kimyəvi meliorantlara tələbatını, əkin qatında qida maddələrinin, zəhərli kimyəvi maddələrin, ağır metalların qalıq miqdarını, radiasiya səviyyəsini müəyyən etmək məqsədi ilə torpaqlarda aqrokimyəvi tədqiqat işləri aparılır.

Torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

## IV Fəsil

## Torpaqların münbitliyinin mühafizəsi

**Maddə 14. Torpaqların münbitliyinin mühafizəsinin təşkili**

Torpaqların münbitliyinin mühafizəsi torpaqlardan səmərəli istifadə olunması, münbitliyinin qorunub saxlanması, kənd təsərrüfatı yerlerinin (uqodiyalarının) məqsədli istifadə dövriyyəsindən çıxarılmasına yol verilməməsi, torpaq sahələrinin zərərli təbii və antropogen təsirlərdən qorunması məqsədi ilə həyata keçirilir.

Torpaqların münbitliyinin mühafizəsi istifadənin optimal strukturunu özündə əks etdirən, elmi cəhətdən əsaslandırılmış torpaq istifadəçiliyi normativlərinin istehsalatda tətbiqi, habelə yerquruluşu əsasında ərazinin səmərəli təşkili vasitəsi ilə həyata keçirilir.

Torpaqların münbitliyinin mühafizəsinin əsas istiqamətləri və qaydaları Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 15. Münbitliyi itirilmiş torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması və konservasiyası**

Təbii və antropogen proseslərin zərərli təsiri nəticəsində münbitliyi itirilmiş torpaqların münbitlik xassələrinin bərpası və artırılması məqsədi ilə onlar təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılır və konservasiya edilir.

Münbitliyin itirilmə dərəcəsindən asılı olaraq konservasiya edilmiş torpaqların münbitlik xassələrinin bərpası və artırılması üçün üç dövr müəyyən edilir:

birinci dövr — üç ilədək;

ikinci dövr — üç ildən beş ilədək;

üçüncü dövr — beş ildən artıq.

Mülkiyyət formasından asılı olmayaraq torpaqların təsərrüfat dövriyyəsindən müvəqqəti çıxarılması, konservasiya edilməsi, habelə onların münbitliyinin bərpası və artırılmasına dair kompleks tədbirlər müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Təbii və antropogen proseslərin zərərli təsiri nəticəsində münbitliyi itirilmiş və konservasiya edilmiş torpaqların münbitliyinin bərpası, artırılması, habelə onların təsərrüfat dövriyyəsinə qaytarılması işləri başa çatdırılana qədər həmin torpaqlar dövlətin və ya bələdiyyələrin müvafiq ehtiyat torpaq fonduna keçirilir, torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada torpağın dəyəri ödənilir.

Torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin müraciətinə və müvafiq icra hakimiyyəti orqanının razılığa əsasən konservasiya edilmiş torpaq sahələri təsərrüfat dövriyyəsinə qaytarılana qəder, dövlətin və ya bələdiyyələrin ehtiyat torpaq fondundan, onların müvəqqəti istifadəsinə və ya icarəsinə müvafiq ölçüdə torpaq sahəsi verilə bilər. Belə hallarda torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə

torpağın dəyəri ödənilmir.

Münbitliyi itirilmiş torpaqların konservasiya edilməsi və təsərrüfat dövriyyəsinə qaytarılması qaydaları Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 16. Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində ekoloji tələblər**

Təsərrüfat fəaliyyəti və ya təbii proseslər nəticəsində ətraf mühitə, insanlara, bitki və heyvanlar aləminə zərərli təsir göstərə bilən torpaqların istifadəsinə ekoloji tələblər qoyula bilər.

Torpaqlarda aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər tədbirlər həyata keçirildikdə müəyyən olunmuş ekoloji təhlükəsizlik normativləri və ətraf mühitin mühafizəsi tələbləri nəzərə alınmalıdır.

Ətraf mühitin mühafizəsi, torpaqların keyfiyyətinin yaxşılaşdırılması və səmərəli istifadəsi xeyrinə torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqları Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırıla və ya onlara müvafiq vəzifələr tapşırıla bilər.

Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində tətbiq edilən ekoloji tələblər Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

**Maddə 17. Torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarəti**

Torpaqların münbitliyinin təmin olunması sahəsində dövlət nəzarətinin məqsədi torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən kənd təsərrüfatı yerlərinin (uqodiyalarının) qorunub saxlanmasını, habelə onların keyfiyyətinin yaxşılaşdırılması, münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş normalaşdırma tələblərinə əməl olunmasını təmin etməkdir.

Torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarətini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

Torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarətinin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 18. Torpaqların münbitliyinin sığortası**

Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaqların münbitliyini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq sığortalaya bilərlər.

## V Fəsil
## Torpaqların münbitliyinin təmin olunmasına dövlət himayəsi

**Maddə 19. Torpaqların münbitliyinin təmin olunmasına dövlət himayəsinin əsas istiqamətləri**

Torpaqların münbitliyinin təmin olunmasına dövlət himayəsi aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- torpaqların qorunub saxlanması və münbitliyinin təmin olunması sahəsində investisiyanın ayrılması və investisiya fəaliyyətinin stimullaşdırılması;
- kənd təsərrüfatına texniki, meliorasiya və aqrokimya xidmətinin inkişafı;
- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində elmi-tədqiqat işlərinin aparılması;
- pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər tədbirlərin həyata keçirilməsi üçün maşın və texniki avadanlıq istehsalçılarına əlverişli iqtisadi mühitin yaradılması;
- torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi səhəsində kadrların hazırlanması və ixtisaslarının artırılması.

**Maddə 20. Torpaqların münbitliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin maliyyələşdirilməsi**

Məqsədli dövlət və regional proqramlar əsasında torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində aparılan aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər tədbirlər dövlət büdcəsindən maliyyələşdirilir.

Kənd təsərrüfatı yerlərinin (uqodiyalarının), kənd təsərrüfatına az yararlı və

yararsız torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi dövlət tərəfindən stimullaşdırılır.

Yerli proqramlar əsasında, habelə torpaq mülkiyyətçilərinin, islifadəçilərinin və icarəçilərinin sifarişi ilə həyata keçirilən aqrotexniki, aqrokimyəvi, meliorativ, fitosanitar, eroziyaya qarşı mübarizə və digər tədbirlər mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən maliyyələşdirilir.

Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində elmi-tədqiqat işlərinin aparılması, kadrların hazırlığı və ixtisaslarının artırılması dövlət büdcəsindən və büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilir.

**Maddə 21. Konservasiya edilmiş torpaqların dəyərinin ödənilməsi**

Təbii proseslərin zərərli təsiri nəticəsində münbitliyi itirilmiş və konservasiya edilmiş torpaqların dəyəri dövlət büdcəsindən ödənilir.

Antropogen proseslərin zərərli təsiri nəticəsində münbitliyi itirilmiş və konservasiya edilmiş torpaqların dəyəri təqsirkar şəxslər tərəfindən ödənilir.

## VI Fəsil
## Torpaqların münbitliyi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət və mübahisələrin həlli

**Maddə 22. Əqdlərin etibarsızlığı**

Torpaqların münbitliyi haqqında qanunvericiliyin tələbləri pozulmaqla bağlanmış əqdlər etibarsızdır.

**Maddə 23. Torpaqların münbitliyi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Torpaqların münbitliyi haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 24. Mübahisələrin həlli**

Torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində mübahisəli məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll olunur.

## "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

***Əlavə və dəyişikliklər: 21 dekabr 2001-ci il***

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 17-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 11-ci maddəsinin birinci hissəsində, 15-ci maddəsinin üçüncü və beşinci hissələrində və 17-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

həmin Qanunun 6-cı maddəsində və 10-cu maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və digəf əlaqəli mərkəzi və yerli icra hakimiyyəti orqanları öz səlahiyyətləri hüdudlarındahəyata keəirirlər.

həmin Qanunun 9-cu maddəsinin dördüncü abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Ekologiya və Təbiətdən İstifadayə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi və Kənd Təsərrüfatı Nazirliyi həyata keçirirlər;

həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsində (birinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi həyata keçirir.

## Özəl tibb fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu

***Qəbul edilmişdir: 30 dekabr 1999-cu il, № 789-IQ***

***Əlavə və dəyişikliklər: 1. 20 fevral 2001-ci il, № 89-IIQD 2. 19aprel 2002-ci il***

*Bu Qanün özəl tibb fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini, bu fəaliyyətin təşkilati-hüquqi əsaslarını müəyyən edir.*

### I Fəsil

### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**özəl tibb fəaliyyətinin subyektləri** — tibb fəaliyyətini həyəta keçirən özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər;

**özəl tibbi fəaliyyət** - qanunvericiliklə müəyyən olunmuş qaydada hüquqi şəxs yaratmaqla özəl tibb fəaliyyətinin həyata keçirilməsi;

**özəl tibbi praktika –** ali və ya özəl tibb təhsili olan şəxslər tərəfindən hüquqi şəxs yaratmadan qanunvericiliklə, müəyyən olunmuş qaydada verilən xüsusi razılıq əsasında ixtisasına uyğun həyata keçirilən tibbi yardımın göstərilməsi üzrə fəaliyyət;

**özəl tibb müəssisəsi —** əmlakı xüsusi mülkiyyətə, yaxud icarə müqaviləsi əsasında istifadə olunan mülkiyyətə əsaslanan tibb müəssisəsi;

**tibbi yardım** — xəstəliklərin, zəhərlənmələrin, travmaların profilaktikası və diaqnostikası, xəstələrin müalicəsi və reabilitasiyası hamiləliyin müşahidəsi, doğuşun qəbulu və doğuşdan sonrakı dövrlərin müşahidəsi;

**tibbi xidmət** — müqavilə üzrə müəyyən növ və həcmdə göstərilən əvəzi ödənilən tibbi yardım;

**tibbi yardımın standartları** — müəyyən növ tibbi yardımın norma qayda və xüsusiyyətlərinə, onun nəticəsinə dair tələblərin siyahısı;

**əhaliyə tibbi yardım göstərilməsi üzrə dövlət təminatı proqramları (bundan sonra — dövlət təminatı proqramları) -** əhaliyə büdcə hesabına göstərilən tibbi yardımın növünü, həcmini və şərtlərini müəyyən edən normativ hüquqi aktlar.

**Maddə 2. Özəl tibb fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Özəl tibb fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

**Maddə3.Özəl tibb fəaliyyəti subyektlərinin vəzifəsi**

Özəl tibb fəaliyyəti subyektləri dövlət və bələdiyyə səhiyyə müəssisələri ilə yanaşı, səhiyyə sahəsinin dövlət siyasətinin həyata keçirilməsinə və əhalinin sağlamlığının qorunmasına təminat yaradır.

## II Fəsil

## Özəl tibbi fəaliyyətin və özəl tibbi praktikanın tənzimlənməsi

**Maddə 4. Özəl tibb müəssisəsinin yaradılması, fəaliyyəti və ləğv edilməsi**

Özəl tibb müəssisəsi qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən yaradıla bilər.

Azərbaycan Respublikası tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə digər qaydalar nəzərdə tutulmayıbsa, xarici ölkələrin hüquqi və fiziki şəxsləri, eləcə də Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər tərəfindən özəl tibb müəssisələri qanunvericiliklə müəyyən olunmuş qaydada yaradıla bilər.

Özəl tibb müəssisəsi tibbi fəaliyyətin müəyyən növləri üzrə qanunvericiliyə uyğun olaraq verilən xüsusi razılıq olduqda və tibbi fəaliyyətin hər bir növü üzrə müvafiq sertifikatı olan mütəxəssislərlə əmək müqaviləsi bağladıqda özəl tibbi fəaliyyətlə məşğul ola bilər.

Özəl tibb müəssisəsinin akkreditasiyası tibb işçilərinin peşə birliklərinin iştirakı ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Özəl tibb müəssisəsinin yenidən təşkili və ləğv edilməsi, qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

Özəl tibb müəssisəsi ləğv edildikdə tibbi sənədlər müvafiq icra hakimiyyəti orqanının qərarı ilə bir ay müddətində qanunvericiliklə müəyyən olunmuş qaydada, yaradılan ləğvetmə komissiyasına verilir.

**Maddə 5. Özəl tibbi praktikanın həyata keçirilməsi və ona xitam verilməsi**

Ali və ya orta tibb təhsili olan, qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi fəaliyyətin müəyyən növünə uyğun xüsusi razılıq və attestasiyadan keçdikdən sonra müvafiq sertifikat alan, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə uyğun tibbi iş stajı olan Azərbaycan Respublikasının vətəndaşları özəl tibbi praktika ilə məşğul ola bilərlər.

Əcnəbilərin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin özəl tibbi praktika ilə məşğul olması üçün şərtlər müvafiq icra hakimryyəti orqanı tərəfindən müəyyən edilir.

Özəl tibbi praktikaya qanunvericiliklə müəyyən olunmuş qaydada xitam verilir. Özəl tibbi praktikaya xitam verilməzdən əvvəl, iki həftədən gec olmayaraq, yaxud tibbi yardımın göstərilməsi üzrə müqavilədə göstərilən müddətdə aidiyyəti müəssisələrə və xəstələrə bu barədə məlumat verilməlidir.

**Maddə 6. İlkin tibbi-sanitariya yardımının göstərilmə şərtləri**

Özəl tibb fəaliyyətinin subyektləri tibbi sığorta təşkilatları ilə, eləcə də xəstələrlə bağlanmış müqavilələr əsasında ilkin tibbi-sanitariya yardımı göstərirlər.

**Maddə 7. Tibbi yardım göstərilməsi barədə müqavilə**

Özəl tibb müəssisəsi və özəl tibbi praktika ilə məşğul olan şəxs tərəfindən tibbi yardım göstərilməsi barədə müqavilə bu yardımvn növlərini, həcmini və göstərilmə şərtlərini əks etdirməlidir.

Özəl tibb fəaliyyəti subyektlərinin icbari tibbi sığorta proqramlarında iştirak edib-etməməsindən asılı olmayaraq, icbari tibbi sığorta qaydalarına əsasən əhaliyə təcili tibbi yardım göstərən özəl tibb fəaliyyətinin subyektlərinə ödəniş bu şəxslərin sığortalandığı tibbi sığorta təşkilatları tərəfindən həyata keçirilir.

**Maddə 8. Özəl tibb fəaliyyəti subyektlərinin dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarını, habelə bələdiyyə proqramlarının həyata**

**keçirilməsində iştirakı**

özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər müsabiqə əsasında icbari tibbi sığorta, dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının, habelə bələdiyyə proqramlarının həyata keçirilməsində iştirak edə bilərlər.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərə dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarında iştirak etmək hüququ verən müsabiqələrin keçirilmə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Müsabiqə komissiyasının tərkibinə paritet əsasında müvafiq icra hakimiyyəti orqanının, həmkarlar ittifaqlarının, tibb işçilərinin ictimai birliklərinin və özəl tibb müəssisələrinin, tibbi sığorta təşkilatlarının nümayəndələri daxil olurlar.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərin dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində iştirak etmələri barədə müqavilələr, onların icbari tibbi sığorta proqramlarında iştirakı hallarında, müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, habelə tibbi sığorta təşkilatları ilə bağlanır.

Bu müqavilələrdə:

- tibbi yardımın keyfiyyətinə tələblər;
- tibbi yardımın həcmi;
- tibbi yardıma görə ödənişin şərtləri və qaydaları;
- tibbi yardımın keyfiyyətinə nəzarət qaydaları;
- müqavilə üzrə özəl tibbi fəaliyyət haqqında qeydiyyat və hesabat qaydaları müəyyən edilir.

**Maddə 9. Tibbi sənədləşmələr və hesabatlar**

Özəl tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan şəxslərin verdiyi sənədlər və rəylər dövlət nümuəvi tibbi sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

Müvafiq icra hakimiyyəti orqanı ödəniş əsasında özəl tibb müəssisələrini, özəl tibbi praktika ilə məşğul olan şəxsləri əmək qabiliyyətinin müvəqqəti itirilməsi barədə vərəqələr, doğum və ölüm haqqında arayışlar, güclü təsir göstərən, zəhərli və narkotik maddələrin resept blankları da daxil olmaqla, ciddi hesabatlı dövlət nümunəli tibbi sənədlərin blankları ilə təmin edir.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər Azərbaycan Respublikasının normativ hüquqi aktlarında göstərilən bütün statistik qeydiyyat və hesabatları aparmağa borcludurlar və onların doğruluğuna görə məsuliyyət daşıyırlar.

**Maddə 10. Dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın özəl tibb fəaliyyəti subyektlərinin müvəqqəti istifadəsinə verilməsi**

Dövlət və bələdiyyə mülkiyyətində olan, habelə dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində istifadə olunmayan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada özəl tibb fəaliyyəti subyektlərinin müvəqqəti istifadəsinə verilə bilər.

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər səhiyyə üçün nəzərdə tutulan, tam tikilməyən və əsaslı təmirə ehtiyacı olan binaları müsabiqə yolu ilə müvəqqəti istifadə üçün əldə etmək, dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarında iştirak etmək şərti ilə onların beş ildən az olmayaraq tibbi yardım göstərmək üçün istifadə olunmasına əməl etməlidirlər.

**Maddə 11. Mübahisələrin həlli qaydası**

özəl tibb fəaliyyətinin subyektləri arasında, eləcə də həmin subyektlərlə digər hüquqi və fiziki şəxslər arasında yaranan mübahisələr qanunvericiliklə müəyyən olunmuş qaydada həll edilir.

**Maddə 12. Özəl tibb fəaliyyətinin maliyyələşdirilmə mənbələri**

Özəl tibb fəaliyyəti hüquqi və fiziki şəxslərin vəsaitləri, icbari və könüllü tibbi sığorta vəsaitləri, qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

Özəl tibb fəaliyyəti subyektlərinin dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində iştirakı onları bu işə dəvət edən (razılıq verən) müvafiq icra hakimiyyəti orqanının vəsaiti və icbari tibbi sığorta vəsaitləri hesabına maliyyələşdirilir.

**Maddə 13. Tibbi yardıma görə ödəniş**

Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərin göstərdiyi tibbi yardıma görə ödəniş:

- bilavasitə xəstələrlə bağlanmış müqavilələr;
- üçüncü şəxsin (pasientin) xeyrinə müəssisə və vətəndaşlarla müqavilələr;
- icbari və könüllü tibbi sığorta üzrə göstərilən tibbi yardıma görə tibbi sığorta təşkilatları ilə bağlanmış müqavilələr;
- xeyriyyə proqramları üzrə bağlanmış müqavilələr əsasında həyata keçirilir.

Özəl tibb fəaliyyəti subyektlərinin vətəndaşlar və təşkilatlarla (o cümlədən könüllü tibbi sığorta üzrə tibbi xidmətlər göstərilməsinə dair sığorta təşkilatları ilə) müqavilələr çərçivəsində göstərdikləri tibbi xidmətlərin tarifləri tərəflər arasında razılaşmaya görə müəyyənləşdirilir.

Özəl tibb fəaliyyəti subyektlərinin icbari tibbi sığorta proqramında iştirakından asılı olmayaraq, ehtiyacı olan şəxslərə göstərilən təcili tibbi yardıma görə ödəniş icbari tibbi sığorta qaydalarına əsasan tibbi sığorta təşkilatı tərəfindən həyata keçkilir.

**Maddə 14. Özəl tibb müəssisələrindən və özəl tibbi praktika ilə məşğul olan şəxslərdən vergi tutulması**

Özəl tibb müəssisələrindən və özəl tibbi praktika ilə məşğul olan şəxslərdən qanunvericiliklə müəyyən olunmuş qaydada vergi tutulur.

## III Fəsil
## Özəl tibb fəaliyyəti subyektlərinin hüquq və vəzifələri

**Maddə 15. Özəl tibbi praktika ilə məşğul olan şəxslərin hüquqları**

Özəl tibbi praktika ilə məşğul olan şəxslərin hüquqları aşağıdakılardır:

- qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi yardım göstərmək və məsləhətlər vermək;
- vərəm xəstəliyindən başqa ictimai təhlükəli xəstəliklər və narkoloji xəstələrin müalicəsi istisna olmaqla, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan xəstəliklər üzrə tibbi yardım göstərmək;
- qanunvericiliklə müəyyən olunmuş qaydada xalq təbabətindən istifadə etmək; qanunvericiliklə müəyyən olunmuş qaydadatibbi sənədlər vermək;
- özəl tibb fəaliyyətini həyata keçirmək üçün bütün tibb müəssisələrindən və özəl tibbi praktika ilə məşğul olan digər şəxslərdən məlumat almaq;
- pasientin müayinələrinin nəticələri ilə tanış olmaq, məsləhətçi kimi bütün növbəti müalicə mərhələlərində iştirak etmək;
- peşə fəaliyyətini həyata keçirmək üçün normativ sənədlərlə tanış olmaq;
- ciddi hesabatlı dövlət nümunəli tibbi sənədlərin blanklarından istifadə etmək;
- tibbi yardım göstərmək üçün özəl tibbi praktika ilə məşğul olan digər fiziki şəxslərlə birgə fəaliyyət göstərmək;
- dövlət və bələdiyyə mülkiyyətində olan əmlakı, o cümlədən bina, qurğu və avadanlıqları müvəqqəti istifadəyə götürmək;
- peşə fəaliyyətini təmin etmək üçün əmək müqaviləsi (kontraktı) əsasında işçilər cəlb etmək.

**Maddə 16. Özəl tibbi praktika ilə məşğul olan şəxslərin vəzifətəri**

Özəl tibbi praktika ilə məşğul olan şəxslərin vəzifələr i aşağıdakılardır:

- tibbi yardım şərtlərinə və qaydalarına əməl etmək;
- təxirəsalınmaz tibbi yardıma ehtiyacı olan şəxslərə pulsuz tibbi yardım göstərmək;
- xəstənin sağlamlıq vəziyyətini, ona göstərilən tibbi xidmətlərin həcmini və onların nəticələrini əks etdirən tibbi sənədləşmələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada həyata keçirmək;
- tibbi statistik hesabatları qanunvericilikdə müəyyən olunmuş qaydada və vaxtında təqdim etmək;
- xəstəyə onun sağlamlıq vəziyyəti, müalicənin müddəti, forma və məqsədləri, göstərilən xidmətlərin həcmi və qiyməti, habelə gözlənilən nəticələr və müəyyən risqin mümkünlüyü barədə məlumat vermək;
- özəl tibbi praktikanın həyata keçirilməsinə hüquqi əsas verən sənədlərlə xəstəni tanış etmək;
- həkim sirrinə əməl etmək;
- zəruri hallarda zəstənin vəziyyəti barədə başqa mütəxəssislərlə məsləhətləşmək, xəstəni tibb müəssisəsinə göndərmək;
- qanunvericiliklə müəyyən olunmuş müddətlərdə öz vəsaiti hesabına, göstərilən tibbi yardım maliyyələşdirilən müəssisələrlə müqavilələrdə bu nəzərdə tutulmayıbsa, öz ixtisasını artırmaq və ya yenidən hazırlıq keçməklə peşə sertifikatı almaq.

**Maddə 17. Özəl tibb fəaliyyəti subyektlərinin xalq təbabəti ilə məşğul olmaq hüququ**

Özəl tibb fəaliyyətinin subyektləri qanunvericiliklə müəyyən olunmuş qaydada xalq təbabətindən istifadə üsullarını tətbiq edə bilərlər.

Təbiblik fəaliyyəti üçün xüsusi razılıq qanunvericiliklə müəyyən olunmuş qaydada özəl tibbi praktika ilə məşğul olmaq istəyən şəxsin ərizəsi və ya özəl tibb müəssisəsinin vəsaiti əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

### IV Fəsil
## Yekun müddəaları

**M addə 18. Beynəlxalq əməkdaşlıq**

Özəl tibb fəaliyyəti sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr əsasında həyata keçirilir.

Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət olarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**Maddə 19. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

## "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublik.ası Prezidentinin Fərmanı

"Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi iiə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqı aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş özəl tibbi praktika ilə məşğul olmaq üçün zəruri olan tibbi iş stajını və müvafiq sertifikat alınması qaydasını müəyyən etsin;

həmin Qanunun 5-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş əcnəbilərin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin özəl tibbi praktika ilə məşğul olması üçün şərtlərini müəyyən etsin;

həmin Qanunun 8-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərə dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarında iştirak etmək hüququ verən müsabiqələrin keçirilmə qaydalarını müəyyən etsin;

həmin Qanunun 8-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində və üçüncü hissəsində, 12-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasının və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin birinci və ikinci hissələrində, 8-ci maddəsinin ikinci hissəsinini birinci cümləsində, 15-ci maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 4-cü maddəsinin dördüncü və altıncı hissələrində, 9-cu maddəsinin ikinci hissəsində, 16-cı maddəsinin dördüncü abzasında və 17-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 10-cu maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş dövlət mülkiyyətində olan və dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarının həyata keçirilməsində istifadə olunmayan əmlakın, habelə səhiyyə üçün nəzərdə tutulan, tam tikilməyən və əsaslı təmirə ehtiyacı olan binaların özəl tibb fəaliyyəti subyektlərinə icarəyə verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyi tərəfindən həyata keçirilir.

## Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu

***Qəbul edilmişdir: 24 mart 2000-ci il, № 839-IQ Əlavə və dəyişikliklər: 1. 23 noyabr 2001-ci il***

*Bu Qanun Azərbaycan Respublikasında muzeylərin fəaliyyətinin təşkilati-hüquqi, iqtisadi əsaslarını müəyyən edir və bunlarla bağlı münasibətləri tənzimləyir.*

### I Fəsil

### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**muzey** — maddi-mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsi;

**muzey fondu** — Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərdə daimi saxlanılan, qorunan muzey əşyalarının və kolleksiyalarının məcmusu;

**dövlət muzey fondu** — dövlət muzeylərinin fondlarında saxlanılan mədəniyyət sərvətlərinin məcmusu;

**mədəniyyət sərvətləri** — "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş kateqoriyalara aid edilən, dünyəvi və dini xarakterli, tarixi-bədii əhəmiyyətə malik əşyalar;

**muzey əşyası** — keyfiyyəti və ya xüsusi əlamətlərinə görə cəmiyyət üçün qorunub saxlanılması, öyrənilməsi və kütləvi nümayişi zəruri olan mədəniyyət sərvəti;

**muzey kolleksiyası** — əsas fondun tərkibində vahid tam kimi elmi, tarixi, mədəni əhəmiyyət daşıyan muzey əşyalarının məcmusu;

**muzey fəaliyyəti** — elmi, mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədi ilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət sərvətlərinin və maddi nümunələrin əldə edilməsi, qorunması, uçotu, tədqiqi, təbliği və nümayişi;

**muzey əşyalarının və kolleksiyalarının mühafizəsi** — muzey əşyalarının və kolleksiyalarının qorunub saxlanmasını təmin edən, maddi və hüquqi şərtlərin yaradılmasını nəzərdə tutan muzey fəaliyyəti;

**muzey saxlancları** — müvəqqəti olaraq nümayiş etdirilməyən muzey əşyalarının və kolleksiyalarının saxlandığı yer.

**Maddə 2. Muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri və dövlətin vəzifələri**

Muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

- muzeylərdə mühafizə olunan mədəniyyət sərvətlərinin və əşyaların nümayişinin hamı üçün açıq olması; .
- milli sərvətlərin saxlandığı muzeylərin və muzey fondlarının mühafizəsinə dövlət qayğısı, onların ilk növbədə maliyyələşdirilməsi.
- Muzey fəaliyyəti sahəsində dövlətin vəzifələri aşağıdakılardır:
- elmi tədqiqat və elmi-kütləvi iş aparan maddi mədəniyyət obyektlərinin toplandığı yeni muzeylərin yaradılması;

- muzeylərin fəaliyyəti üçün zəruri olan normativ hüquqi aktların hazırlanması və onların icrasına nəzarət;
- muzeylərin müvafiq binalarla təmin edilməsi, muzey binalarının lazımi vəziyyətdə saxlanılması, muzey əşyalarının və kolleksiyalarının mühafizəsi vasitələri və müasir texniki avadanlıqla təmin edilməsi;
- dövlət muzeylərində muzey kolleksiyalarının konservasiya və bərpası, muzey əşyalarının nadir nümunələrinin surətlərinin çıxarılması, muzey üçün əşyaların və kolleksiyaların satın alınması, elmi işlənilməsi, nəşriyyat fəaliyyəti üçün zəruri olan maliyyə vəsaitinin ayrılması;
- xarici ölkə muzeylərində saxlanılan və Azərbaycan xalqının milli sərvəti olan nadir muzey əşyalarının və kolleksiyalarının tədqiqi, öyrənilməsi və Azərbaycan Respublikasına qaytarılmasının təmin olunması;
- təbii fəlakət, yanğın, silahlı münaqişə, müharibə və digər təhlükə yarandığı zaman muzey fondlarının mühafizəsinin təmin olunması;
- muzeylərin saxlanmasına, inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə maliyyə vəsaitinin ayrılması və muzey kadrlarının hazırlanması.

**Maddə 3. Muzeylər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Muzeylər haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

## II Fəsil

## Muzeylər və muzey fəaliyyəti

**Maddə 4. Muzeylərin yaradılması qaydası və məqsədi**

Azərbaycan Respublikasında muzeylər mədəniyyət, elmi tədqiqat, maarifləndirmə fiınksiyalarını yerinə yetirən müəssisə forması kimi, “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada yaradılırlar.

Azərbaycan Respublikasında muzeylər:

- muzey əşyalarının və kolleksiyalarının aşkar edilməsi, toplanması, qorunması, öyrənilməsi və təbliği;
- Azərbaycan xalqının milli sərvətləri, tarixi və görkəmli şəxsiyyətləri ilə geniş xalq kütlələrini tanış etmək, ayrı-ayrı vətəndaşları həmin sərvətlərin toplanmasına və öyrənilməsinə cəlb etmək;
- Muzey əşyalarının və kolleksiyalarının nümayiş etdirilməsi və təhsil fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə yaradılır.

**Maddə 5. Muzeylərin yenidən təşkili və ləğv olunması**

Azərbaycan Respublikasında muzeylərin yenidən təşkili və ləğv olunması “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Yenidən təşkil olunma nəticəsində muzey fəaliyyətinin məqsədinin dəyişməsinə yol verilmir.

dövlət muzeylərinin ləğvi zamanı həmin muzeylərdə olan muzey əşyaları və kolleksiyaları müvafiq icra hakimiyyəti orqanının qərarı ilə digər dövlət muzeylərinə verilir.

**Maddə 6. Muzey əşyalarının və kolleksiyalarının Azərbaycan Respublikasından müvəqqəti kənara çıxarılması**

Muzey əşyalarının və kolleksiyalarının Azərbaycan Respublikasının müvəqqəti kənara çıxarılması “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

**Maddə 7. Muzeylərin köçürülməsi**

Muzeylər aə onların fondlarına daxil olan ayrı-ayrı muzey əşyaları və kolleksiyaları təbii fəlakət, yanğın, silahlı münaqişə, müharibə və digər təhlükə yarandığı zaman müvafiq icra hakimiyyəti orqanının qərarı ilə ilk növbədə müəyyən olunmuş

qaydada təhlükəsiz yerlərə və yaxud mülki müdafiə qurumlarının müəyyən etdiyi yerlərə köçürülür.

**Maddə 8. Muzey fəaliyyəti və onun növləri**

Azərbaycan Respublikasında dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər fəaliyyət göstərir.

Azərbaycan Respublikasında muzey fəaliyyətinə:

muzey əşyalarının və kolleksiyalarının komplektləşdirilməsi, onların uçotunun, mühafizəsinin təşkili və bütövlüyünün təmin olunması;

muzey kolleksiyaları, arxiv, kitabxana və digər materiallar əsasında elmi tədqiqatlar;

muzey ekspozisiyalarının və sərgilərin təşkili, muzey sahəsində dizayn və tərtibat işlərinin həyata keçirilməsi;

muzey əşyalarının konservasiyası və bərpasının bütün növləri;

muzey kolleksiyalarının kataloqlarının hazırlanması və nəşr olunması;

muzey kolleksiyalarının təbliği daxildir.

**Maddə 9. Milli statusa malik muzeylər**

Fondlarında mühafizə olunan mədəniyyət sərvətlərinin, ayrı-ayrı kolleksiyaların əhəmiyyətlilik dərəcəsinə və ölkənin mədəni həyatındakı roluna görə “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq olaraq muzeylərə milli status verilə bilər.

Milli statusa malik muzeylər xüsusi əhəmiyyətli obyekt kimi dövlət tərəfindən qorunur.

Milli statusa malik muzeylərin işçilərinin əmək haqqına əlavələr müəyyən olunur.

Milli statusa malik muzeyləri ləğv etmək və onların mülkiyyət formasını dəyişdirmək, habelə binalarında kənar təşkilatların yerləşdirilməsi qadağandır.

**Maddə 10. Respublika əhəmiyyətli muzeylər .**

Fondlarının, kolleksiyalarının əhəmiyyətinə və işinin həcminə görə respublika səviyyəsində fəaliyyət göstərən muzeylər respublika əhəmiyyətli muzeylər hesab edilir.

Respublika əhəmiyyətli muzeylərin statusu ve siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Respublika əhəmiyyətli muzeylər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan əsasnaməyə uyğun fəaliyyət göstərirlər.

**Maddə 11. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər**

Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər qanunvericilikdə müəyyən olunmuş qaydada yaradılır və qeydiyyata alınır.

Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylər qeydiyyata alındıqdan sonra müvafiq icra hakimiyyəti orqanlarında uçota götürülür və təsisçilərinin təsdiq etdikləri əsasnaməyə müvafiq fəaliyyət göstərirlər.

Dövlət bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin inkişafına daim qayğı göstərir. Bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin fondları Azərbaycan Respublikasının Dövlət muzey fondunun tərkib hissəsi kimi qorunur.

**Maddə 12. Muzeylərin hüquqları**

Muzeylərin hüquqları aşağıdakılardır:

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə mühafizə olunan, dövlət sirləri istisna olmaqla, mədəni, tarixi, siyasi, təsərrüfat və sosial istiqamətli hadisələri nümayiş etdirmək;
- müvafiq təşkilatların razılığı ilə lazımi sənədlərin surətini çıxarmaq;
- muzeylərin fondlarına qiymətli əşyaların alınması üçün həmin məqsədə ayrılmış maliyyə vəsaitlərindən istifadə etmək;
- öz gəliri hesabına, müqavilə qiyməti ilə muzey əşyaları almaq;
- mətbəə məhsullarını hazırlamaq, nəşr etmək və satmaq;
- gəlir gətirmək məqsədi ilə istehsal edilmiş suvenir və məmulatlar üzərində daşınar və daşınmaz muzey əşyalarının əkslərinin verilməsinə görə müəllif hüquqları onların bilavasitə mənsub olduqları muzeylərə məxsusdur. Muzey fonduna daxil olan hər hansı maddi mədəniyyət abidəsinin əksini məmulat üzərində vermiş hər bir müəssisə, təşkilat əldə etdiyi gəlirin faizini reklam

etdirdiyi maddi mədəniyyət abidəsinin mənsub olduğu mülkiyyətçisinə ödəməlidir.

Dövlət muzeylərinin rəsmi dili Azərbaycan dilidir.

Hüquqi və fiziki şəxslərin muzey əşyalarından və kolleksiyalarından istifadə etməsi ilə bağlı nəşriyyat fəaliyyəti muzeyin razılığı və ona istinad etməklə həyata keçirilir.

**Maddə 13. Muzey əşyalarının və kolleksiyalarının nümayişi**

Muzey fondlarına daxil olan və dövlət muzeylərində saxlanılan muzey əşyaları və kolleksiyaları ilə vətəndaşların tanış olması təmin edilir.

Muzey fondlarına daxil olan muzey əşyalarının və kolleksiyalarının nümayişinin məhdudlaşdırılması mülkiyyətçi tərəfindən aşağıdakı əsaslara görə müəyyən edilə bilər:

- mühafizə olunan muzey əşyalarının ve kolleksiyalarının yararsız vəziyyəti;
- təmir və bərpa işlərinin görülməsi;
- muzey əşyalarının və kolleksiyalarının muzey saxlanclarında yerləşdirilməsi.

Muzey saxlanclarında yerləşən muzey əşyalarının və kolleksiyalarının nümayişi qaydaları və şərtləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilir.

**Maddə 14. Muzey əşyalarının və kolleksiyalarının publikasiyası**

Muzey fondlarına daxil olan və Azərbaycan Respublikası muzeylərində yerləşən muzey əşyaları və kolleksiyaları haqqında ilk publikasiya hüququ həmin muzeylərə məxsusdur.

Muzey fondlarına daxil olan və Azərbaycan Respublikası muzeylərində saxlanılan muzey əşyalarının və kolleksiyalarının kommersiya məqsədi ilə əks etdirilmə hüququ muzeylərə məxsusdur.

## III Fəsil

## Muzey fondları, onların uçotu və mühafizəsi

**Maddə 15. Muzey fondlarının tərkibi**

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən muzeylərin fonduna daxil edilmiş muzey əşyaları və kolleksiyaları Azərbaycan xalqının sərvətidir.

Muzey fondlarının tərkibinə aşağıdakılar daxildir:

- Azərbaycan xalqının tarixi, mədəniyyəti və məişəti ilə, dövlət və cəmiyyətin həyatındakı ən mühüm hadisələrlə, elm və texnikanın, incəsənət və ədəbiyyatın inkişafı ilə, ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, hərbçilərin, tarixi hadisələrin fəal iştirakçılarının həyatı ilə bağlı olan ayrı-ayrı əşyalar və kolleksiyalar;
- incəsənətin memarlıq, təsviri, musiqi, teatr və tətbiqi-sənət, o cümlədən xalq sənəti və digər növlərinə aid əsərlər;
- geologiyanı, paleontologiyanı, mineralogiyanı, fauna və floranı, təbiətşünaslıq tarixini xarakterizə edən ayrı-ayrı əşyalar və kolleksiyalar;
- əlyazmalar, qədim, nadir və qiymətli nəşrlər;
- numizmatika, geraldika, epiqrafika kolleksiyaları və ayrı-ayrı əşyalar;
- silah və hərbə dair atributlar, eləcə də hərb mövzusunda ayrı-ayrı əşyalar və kolleksiyalar;
- qiymətli metal və daşlardan ibarət əşyalar, tərkibində qiymətli metal və daşlar olan tarixi, bədii və ya digər mədəni əhəmiyyətə malik ayrı-ayrı əşyalar və kolleksiyalar;
- tarixi, elmi, bədii və mədəni əhəmiyyət kəsb edən digər əşyalar daxildir.

**Maddə 16. Muzey fondlarının uçotu və mühafizəsi**

Muzey fondlarına daxil olan sərvətlərin mühafizəsi və qorunması dövlət tərəfindən həyata keçirilir.

Muzey fondlarına daxil olan muzey sərvətlərinin uçotu və mühafizəsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Qiymətli muzey əşyalarının mühafizə olunduğu dövlət muzeylərində mülkiyyətçilərin müqavilə öhdəliklərini yerinə yetirə bilməmələri səbəbindən

muzeylərin mühafizəsinin dayandırılması, enerji və rabitə vasitələrinin kəsilməsi qadağandır.

**Maddə 17. Muzey əşyalarının və kolleksiyalarının muzey fondlarına daxil edilməsi və çıxarılması**

Muzey əşyalarının və kolleksiyalarının muzey fondlarına daxil edilməsi müəyyən olunmuş qaydada ekspertiza aparıldıqdan sonra həyata keçirilir.

Muzey əşyaları və kolleksiyaları muzey fondlarının əsas uçot sənədlərində müvafiq qeyd aparıldıqdan sonra muzey fondlarının tərkibində hesab edilir.

Muzey əşyalarının və kolleksiyalarının muzey fondlarının tərkibindən çıxarılması bu Qanunun 20-ci maddəsində göstərilən hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 18. Muzey fondlarının əsas uçot sənədləri**

Muzey fondlarının əsas uçot sənədləri uçot-mühafizə kitabları və kataloqdur. Muzey fondlarının uçot-mühafizə kitabları muzey fondlarına daxil olan hər bir muzey əşyası və kolleksiyası haqqında əsas məlumatı əks etdirən sənəddir.

"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq tərtib edilən "Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət siyahısı" və "Mədəniyyət sərvətlərinin mühafizə siyahısı" muzey fondlarının kataloqu hesab edilir.

Muzey fondlarının əsas uçot sənədləri haqqında Əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**Maddə 19. Muzey fondlarına daxil olan muzey əşyalarının və kolleksiyalarının dövriyyəsi**

Dövlət muzey fondlarına daxil olan muzey əşyaları və kolleksiyaları müəyyən olunmuş qaydada bir hüquqi şəxsdən digərinə müvafiq icra hakimiyyəti orqanının razılığı ilə keçə bilər.

Mədəni sərvətlərin muzey fondlarına daxil edilməsi müvafiq icra hakimiyyəti orqanı nəzdində yaradılmış ekspert komissiyaları, muzeylərdə isə (xüsusi mülkiyyətdə olan muzeylerdən başqa) fond-satınalma komissiyası tərəfindən həyata keçirilir.

Muzey fondlarından muzey əşyalarının və kolleksiyalarının dövlətlər arasında mədəni mübadilə və yaxud müvəqqəti istifadə olunma məqsədi ilə verilməsi müvafiq icra hakimiyyəti orqanının yazılı icazəsi əsasında həyata keçirilir.

Muzey fondlarına daxil olan əşyaların və kolleksiyaların dövriyyə məqsədi ilə verildiyi təşkilatlar əşyaların və kolleksiyaların mühafizəsini, bununla bağlı uçot və qeydiyyatın aparılmasını təmin etməlidirlər.

**Maddə 20. Dövlət muzeyləri fondlarının tərkibi**

Dövlət muzeyləri fondlarının tərkibinə daxil olan muzey əşyaları və kolleksiyaları təbii fəlakət, yanğın, xarab olma, habelə digər muzey əşyalarına və kolleksiyalarına dəyişmə halları istisna edilməklə, muzeydən kənarlaşdırıla bilməz.

**Maddə 21. Muzeylərin fəaliyyətinə dövlət nəzarəti**

Muzeylərin fəaliyyətinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən aşağıdakı qaydada həyata keçirilir:

muzeylərin saxlanması və inkişafı üçün maliyyə vəsaitinin ayrılması və onun xərclənməsinə nəzarət;

muzey əşyalarının və kolleksiyalarının qorunub saxlanma vəziyyətinin və mühafizə şəraitinin yoxlanılması;

muzey fondlarının dövlət qeydiyyatının həyata keçirilməsi üçün muzey əşyaları və kolleksiyaları barədə zəruri informasiyaların alınması və sorğuların göndərilməsi.

**Maddə 22. Muzeylərə dövlət qayğısı**

Müvafiq icra hakimiyyəti orqanı muzey fondlarına daxil olan muzey əşyalarının və kolleksiyalarının mühafizəsi və istifadəsi üçün şərait yaratmalıdır.

Müvafiq icra hakimiyyəti ofqanları unikal bədii-tarixi komplekslərin, habelə ən böyük dövlət muzeylərində mühafizə edilən ümumdünya əhəmiyyətli muzey əşyalarının və kolleksiyalarının qorunması üçün xüsusi qayğı göstərirlər.

**Maddə 23. Muzeylərin yerləşdiyi binalar**

Muzeylərin yerləşdiyi binalar və onların tutduğu sahələr muzeylərin balansına verilməlidir.

## IVFəsil
## Dövlət muzeylərinin maliyyələşdirilməsi və dövlət muzeyləri işçilərinin sosial müdafiəsi

**Maddə 24. Dövlət muzeylərini maliyyələşdirmə mənbələri**

Dövlət muzeylərini maliyyələşdirmə mənbələri aşağıdakılardır:

- büdcədən ayrılan vəsait;
- biletlərin satışından əldə olunan gəlir;
- ekskursiya xidməti, sərgilərin təşkili, çap məhsullarının və suvenirlərin hazırlanması və satışından əldə olunan gəlirlər;
- muzeylərə məxsus bədii salon, emalatxana və digər obyektlərdən yığılan gəlirlər;
- hüquqi və fiziki şəxslərin könüllü ayırmaları;
- məsləhətlər verilməsi və ekspertiza keçirilməsindən əldə olunan gəlirlər;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər xidmətlərdən əldə edilən gəlirlər.

Muzeyə gələnlər üçün biletlərə qiymətlər, ekskursiya xidməti haqqının miqdarı və xidmətin digər növləri muzey tərəfindən müəyyənləşdirilir.

Gəlir və xərclərin smetası muzeylər tərəfindən tərtib olunur ve müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Daxil olan gəlirlər muzeyin saxlanmasına ve muzey işçilərinin əməyinin qiymətləndirilməsinə yönəldilir.

Muzeylərin xarici iqtisadi fəaliyyəti nəticəsində əldə etdiyi gəlirlər, onlara büdcədən ayrılan vəsaitin azaldılması üçün əsas ola bilməz.

**Maddə 25. Muzeylərin təsərrüfat fəaliyyəti**

Muzeylər qanunvericilikdə müəyyən olunmuş qaydada nizamnamələrinə (əsasnamələrinə) uyğun olaraq təsərrüfat fəaliyyəti ilə də məşğul ola bilərlər. Bu fəaliyyətdən əldə edilən gəlir bütövlükdə muzeylərin sərəncamında qalır.

**Maddə 26. Dövlət muzeyləri işçilərinin sosial mudafiəsi**

Dövlət muzeyləri işçilərinin sosial müdafiəsinə dövlət tərəfindən təminat verilir.

Dövlət muzeyləri işçilərinin əmək haqlarına elmi dərəcəyə (elmlər namizədi, elmlər doktoru), fəxri adlara və xarici dillərdə ekskursiyalar aparmağa görə əlavələr müəyyən olunur.

Muzeylərin statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla işçilərə əmək haqqından əlavə, digər ödənişlər tətbiq edilə bilər.

Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə, və təşkilatlar öz tabeliklərində olan muzeylərin işçilərinə əlavə kompensasiyalar müəyyən edə bilərlər. Muzey işçiləri dövlət muzeyləri və sərgilərinə pulsuz tamaşa edə bilərlər.

Dövlət muzeyləri işçilərinin əmək haqları mədəniyyət sahəsində müvafiq icra hakimiyyəti orqanında çalışan işçilərin vəzifə maaşlarına bərabər tutulur.

## VFəsil
## Yekun müddəaları

**Madda 27. Beynəlxalq əməkdaşlıq**

Azərbaycan Respublikasındakı muzeylər Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq beynəlxalq mədəni əməkdaşlığı həyata keçirirlər.

**Maddə 28. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Azərbaycan Respublikasının Qanunu

***Qəbul edilmişdir: 24 mart 2000-ci il, № 840-IQ***

*Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri Azərbaycan Respublikasının milli sərvətidir və xüsusi ekoloji, elmi, mədəni və estetik dəyərə malikdir.*

*Bu Qanun Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və mühafizəsinin, xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edir.*

### I Fəsil

### Ümumi müddəalar

**Maddə 1. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında anlayış**

**Xüsusi mühafizə olunan təbiət əraziləri** — xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır.

**Xüsusi mühafizə olunan təbiət obyektləri —** elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan, nadir, nəsli kəsilmək təhlükəsi qarşısında olan, səciyyəvi, xüsusi mühafizə rejimli zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektləridir.

**Maddə 2. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericilik**

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericilik bu Qanundan, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan və digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 3. Xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin, mühafizəsinin və istifadəsinin aşağıdakı prinsipləri**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, mühafizəsi və istifadəsi aşağıdakı prinsiplərə əsaslanır:

- bioloji müxtəlifliyin və təbii ekoloji sistemin qorunub saxlanılması;
- xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən məqsədli istifadə, habelə elmin, mədəniyyətin, təhsilin və maarifin inkişafı üçün səmərəli istifadə edilməsi;
- sosial-iqtisadi amillərin və yerli əhalinin maraqları nəzərə alınmaqla turizmin və rekreasiyanın inkişafı;
- xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində dövlət tənzimlənməsi və nəzarət;
- xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadənin qanunla nəzərdə tutulmuş hallarda ödənişli olması;
- xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi sahəsində əhalinin və ictimai birliklərin iştirakı;
- beynəlxalq əməkdaşlıq.

**Maddə 4. Xüsusi mühafizə olanan təbiət əraziləri və obyektləri üzərində mülkiyyət**

Azərbaycan Respublikasının ərazisində beynəlxalq, respublika və bölgə

əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin bələdiyyələrin mülkiyyətinə verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahələri olan fiziki və hüquqi şəxslər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri yarada bilərlər.

## II Fəsil

## Xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili

### Maddə 5. Xüsusi mühafizə olunan təbiət ərazilərinin növləri

Azərbaycan Respublikasının ərazisində məqsədindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq xüsusi mühafizə olunan təbiət əraziləri aşağıdakı növlərə ayrılır:

— dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları;
— milli parklar;
— təbiət parkları;
— ekoloji parklar,
— dövlət təbiət yasaqlıqları;
— təbiət abidələri;
— zooloji parklar;
— nəbatat bağları və dendroloji parklar;
— müalicə-sağlamlaşdırma yerləri və kurortlar.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin digər növləri nəzərdə tutula bilər.

Bu maddənin birinci hissəsinin 2-ci, 3-cü, 4-cü, 8-ci və 9-cu abzaslarında göstərilən xüsusi mühafizə olunan təbiət ərazilərinin növlərinə onların kateqoriyasından asılı olmayaraq təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusu verilir. Statusu olan xüsusi mühafizə olunan təbiət əraziləriin rəmzləri (bayraq, emblem və sair) ola bilər.

Bu maddənin birinci hissəsinin 2-ci, 3-cü, 4-cü və 6-cı abzaslarında göstərilən xüsusi mühafizə olunan təbiət ərazilərinin növləri üzrə ümumi əsasnamələr müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

### Maddə 6. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin kateqoriyaları

Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri beynəlxalq, respublika, bölgə və yerli əhəmiyyətli kateqoriyalara bölünür.

Dövlət təbiət qoruqlarının və milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilir.

Dövlət təbiət yasaqlıqları, təbiət parkları, təbiət abidələri, zooloji parklar, nəbatat bağları və dendroloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar respublika əhəmiyyətli və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilə bilər. Təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri kimi elan edilə bilər.

Azərbaycan Respublikasının ərazisində müvafiq icra hakimiyyəti orqanı tərəfindən beynəlxalq əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri müəyyən edilə bilər.

Respublika və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, onların kateqoriyalara aid edilməsi və bir kateqoriyadan digərinə keçirilməsi elmi təşkilatların və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilir.

### Maddə 7. Xüsusi mühafizə olunan təbiət ərazilərinin istifadəsi və icarəsi

Dövlət təbiət qoruqlarının və yasaqlıqlarının, milli parkların, təbiət abidələrinin, zooloji parkların, nəbatat bağlarının və dendroloji parkların fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

Yerli əhəmiyyətli təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar bütövlükdə və ya qismən qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və

hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilməsi qadağandır.

Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri idarəçiliyə, istifadəyə və icarəyə verilərkən onların hüquqi statusu, rejimi və məqsədli təyinatı saxlanılır, istifadəsi və mühafizəsi bu Qanunla, habelə Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.

**Maddə 8. Xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı və yerləşdirilməsi sxemləri və onların yaradılması**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı və yerləşdirilməsi sxemləri sosial-iqtisadi tələblər və ətraf mühitin vəziyyəti nəzərə alınmaqla onların yaradılması üçün perspektiv tələbatı müəyyən edir.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş xüsusi mühafizə olunan təbiət ərazilərinin sxemləri əsasında onların yaradılması və genişləndirilməsi üçün torpaq sahələri müvafiq ehtiyat torpaq fondunda saxlanılır və həmin ərazilərdə torpaqların istifadəsinə məhdudiyyətlər qoyulur.

Xüsusi mühafizə olunan təbiət əraziləri elmi və texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının qərarı ilə yaradılır.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin hər biri üçün pasport hazırlanır və bu ərazilərin və obyektlərin pasportu müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmaqla müəyyən olunmuş qaydada saxlanılır.

**Maddə 9. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin torpaqları**

Məqsədli istifadəsinə və hüquqi rejiminə görə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin topaqlarına təbiəti mühafizə, təbii qoruq, sağlamlaşdırma, istirahət (rekreasiya) və tarix-mədəniyyət təyinatlı torpaqlar daxildir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili məqsədilə başqa kateqoriyalara aid edilmiş torpaqların istifadəyə verilməsi Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə tənzimlənir.

Mülkiyyətdə, istifadədə və icarədə olan torpaq sahələri xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili məqsədilə Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada geri alına bilər.

Üzərində xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri yerləşən torpaq sahələri mülkiyyətçilərdən, istifadəçilərdən və icarəçilərdən geri alınmadan, onların razılığı və ya məhkəmənin qərarı ilə servitut hüququ (özgə torpaq sahəsindən məhdud istifadə hüququ) əsasında istifadə olunur.

**Maddə 10. Xüsusi mühafizə olunan tabiət ərazilərinin və obyektlərinin mühafizəsi**

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üçün xüsusi mühafizənin hüquqi rejimi, yaxud təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilir.

Xüsusi mühafizənin hüquqi rejimi xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində və ya xüsusi ayrılmış sahələrdə ətraf mühitin təbii vəziyyətini pozan hər hansı təsərrüfat fəaliyyətinə, həmçinin digər fəaliyyətlərə qadağalar nəzərdə tutur.

Təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində və ya xüsusi ayrılmış sahələrdə təbii ehtiyatların təsərrüfat istifadəsinə məhdüdiyyətlər nəzərdə tutulur.

Xüsusi mühafizəni təmin etmək üçün xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə bitişik olan torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonalar müəyyən edilə bilər. Bu zonaların torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərinin təbiət komplekslərinə və obyektlərinə zərərli təsir göstərən hər cür fəaliyyət qadağan edilir.

**Maddə 11. Xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadə**

Xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş tələblərə əməl etmək şərtilə aşağıdakı məqsədlərlə istifadə edilə bilər:

— təbiəti mühafizə;

— elmi-tədqiqat;

— ətraf mühitin monitorinqi;
— sağlamlaşdırma;
— təlim-tərbiyə;
— turizm və istirahət (rekreasiya).

Xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində onların məqsədli təyinatına və təbiət komplekslərinin və ayrı-ayrı obyektlərin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan şərtlərlə başqa fəaliyyət növləri həyata keçirilə bilər.

**Maddə 12. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı və monitorinqi**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı bu ərazilərin statusu, onların coğrafi mövqeyi ve sərhədləri, həmin ərazilərin və obyektlərin xüsusi mühafizəsinin rejimi, təbiət istifadəçiləri, ekoloji, elmi, iqtisadi, tarixi və mədəni əhəmiyyəti barədə zəruri məlumatların məcmusudur.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazilərin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədilə aparılır.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrının və monitorinqinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## III Fəsil
## Xüsusi muhafizə olunan təbiət əraziləri və obyektləri sahəsində idarəetmə sistemi

**Maddə 13. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində idarəetmə sistemi**

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində idarəetmə sisteminə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr daxildir.

**Maddə 14. Xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini idarəetmə sahəsində dövlətin səlahiyyətləri**

Xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini idarəetmə sahəsində dövlətin səlahiyyətləri aşağıdakılardır:
— dövlət siyasətini həyata keçirmək və müvafiq normativ hüquqi aktlar qəbul etmək;
— dövlət proqramlarını hazırlayıb təsdiq etmək;
— dövlət nəzarətini həyata keçirmək;
— xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi üzrə tədbirlərə dövlət yardımı;
— beynəlxalq əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini müəyyən etmək;
— respublika və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili ve ləğv edilməsi barədə qərar vermək;
— xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı və yerləşdirilməsi sxemlərini təsdiq etmək;
— xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət qeydiyyatının və kadastrının aparılması qaydalarını müəyyən etmək;
— beynəlxalq əməkdaşlığı həyata keçirmək;
— Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirmək.

**Maddə 15. Xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini idarəetmə sahəsində fiziki və hüquqi şəxslərin və ictimai birliklərin iştirakı**

Fiziki və hüquqi şəxslərin və ictimai birliklərin xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini idarəetmə üzrə tədbirlərdə iştirak etmək üçün aşağıdakı hüquqları vardır:

— xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi üzrə ictimai fondlar yaratmaq;

— xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, onların inkişafı və yerləşdirilməsi sxemlerinin hazırlanması üzrə təkliflər vermək;

— xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzrə ictimai ekspertizanın keçirilməsində iştirak etmək;

— özlərinin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaqlarda qanunvericiliklə müəyyən edilmiş qaydada təbiət parkları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yaratmaq, habelə bu kimi əraziləri məqsədli təyinatı üzrə istifadəyə və icarəyə götürmək;

— xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzərində qanunvericiliklə müəyyən edilmiş qaydada ictimai nəzarəti həyata keçirmək;

— müəyyən edilmiş qaydada dövlət orqanlarından xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında məlumatlar almaq;

— qanunvericiliklə müəyyən edilmiş digər hüquqlara malik olmaq.

Fiziki və hüquqi şəxslər və ictimai birliklər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirməyə borcludurlar.

Dövlət orqanları xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində fiziki və hüquqi şəxslərin və ictimai birliklərin rəy və təkliflərinə baxmalıdırlar.

## V Fəsil

## Dövlət təbiət qoruqları

**Maddə 17. Dövlət təbiət qoruqları və onların təşkili**

Dövlət təbiət qoruqları — səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilərdir.

Dövlət təbiət qoruqları xüsusi ekoloji, elmi və mədəni dəyərə malik olan təbiət obyektlərinin (seciyyəvi və nadir landşaftlar, nadir geoloji törəmələr, bitki və heyvan növləri və sair) yerləşdiyi ərazilərdə (torpaq və su məkanı (akvatoriya) sahələrində) yaradılır.

Dövlət təbiət qoruqlarının əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.

Dövlət təbiət qoruqları elmi təşkilatların və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

Dövlət təbiət qoruqlarının təşkili üçün ayrılmış torpaq sahələri onların daimi istifadəsinə verilir.

Dövlət təbiət qoruqlarının torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağan edilir.

Hər bir dövlət təbiət qoruğunun əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**Maddə 18. Dövlət təbiət qoruqlarının vəzifələri**

Dövlət təbiət qoruqlarının vəzifələri aşağıdakılardır:

— genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin və təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətini qoruyub saxlamaq məqsədilə təbiət ərazilərinin mühafizəsini həyata keçirmək;

— elmi tədqiqatları təşkil etmək və aparmaq, “Təbiət salnaməsi” tərtib etmək;

— ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi çərçivəsində ekoloji monitorinqi həyata keçirmək;

— təsərrüfat obyektlərinin və digər obyektlərin yerləşdirilmesi layihəlerinin və sxemlerinin dövlət ekoloji ekspertizasında iştirak etmək;

— ətraf təbii mühitin mühafizəsi sahəsində elmi kadrların və mütəxəssislərin hazırlanmasına köməklik etmək.

**Maddə 19. Dövlət təbiət qoruqlarında xüsusi mühafizə rejiminin xüsusiyyətləri**

Dövlət təbiət qoruqlarında xüsusi mühafizənin vacib ümumi tədbirlərindən başqa aşağıdakılar qadağan edilir:

— bina və qurğuların, ümumi istifadə üçün yolların, boru kəmərlərinin və digər kommunikasiyaların tikintisi;

— geoloji-kəşfiyyat və müxtəlif axtarış işlərinin aparılması;

— kənd təsərrüfatının, sənayenin, hidroenergetikanın, su nəqliyyatının və digər təsərrüfat ehtiyaclarının suya olan tələbatının ödənilməsi üçün yerüstü və yeraltı sulardan istifadə edilməsi;

— oduncaq tədarükü, ikinci dərəcəli meşə ehtiyatları tədarükü, meşədən əlavə istifadə və ovçuluq təsərrüfatının ehtiyacları üçün meşədən istifadə;

— bitki aləmindən təsərrüfat məqsədilə, habelə biçənək və otlaq kimi istifadə edilməsi;

— ov və balıq ovu, habelə ov və balıqçılıq obyektlərinə aid edilməyən heyvanların təsərrüfat məqsədilə istifadə edilməsi və ovlanması;

— ətraf mühitə hər hansı kimyəvi, bioloji və fiziki təsirin tətbiq edilməsi;

— kolleksiyaların toplanması, xüsusi icazə olmadan bitki və heyvanların təbii mühitdən ayırmaqla elmi tədqiqatların keçirilməsi;

— xüsusi icazə olmadan qoruqların ərazisində olmaq.

**Maddə 20. Dövlət təbiət biosfer qoruqları**

Qlobal ekoloji monitorinqin həyata keçirilməsi üçün fəaliyyət göstərən və ya yenidən təşkil edilən dövlət təbiət qoruqlarının əsasında dövlət təbiət biosfer qoruqları yaradıla bilər.

Hər bir dövlət təbiət biosfer qoruğu haqqında əsasnamə beynəlxalq müqavilələr nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

## V Fəsil

## Milli parklar

**Maddə 21. Milli parklar və onların təşkili**

Milli parklar — xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik ərazilərdir.

Milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olanan təbiət ərazilərinə aiddir və bu ərazilərdə olan torpaq, su, bitki və heyvanlar aləmi onların daimi istifadəsinə verilir.

Milli parkların hüdudlarında ayrı-ayrı hallarda qənunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri daxil edilə bilər.

Milli parklar müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

Hər bir milli park müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

**Maddə 22. Milli parkların əsas vəzifələri**

— təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

— turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

—— təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

— əhalini ekoloji maarifləndirmək;

— ekoloji monitorinqi həyata keçirmək;

— zədələnmiş təbiət və tarixi-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

**Maddə 23. Milli parkların zonalaşdırılması**

Milli parkların ərazilərində onların təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

— xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

— təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;
— turizm və istirahət (rekreasiya) zonaları;
— turistlərə və başqalarına xidmət göstərilən zonalar,
— milli parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

Turizm və istirahət (rekreasiya) zonalarında turizm və istirahət (rekreasiya) məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (ov, idman və həvəskar balıq ovu və sair) yol verilir.

Milli parklarda müəyyən edilmiş qaydada elmi tədqiqatlar, mədəni-maarif və tədris tədbirləri keçirilir.

## VI Fəsil

## Təbiət parkları

### Maddə24. Təbiətparkları və onların təşkili

Təbiət parkları — xüsusi ekoloji və estetik dəyərə malik olan, təbiəti mühafizə və istirahət (rekreasiya) məqsədləri üçün ayrılmış təbiət komplekslərinin yerləşdiyi təbiəti mühafizə idarələri statuslu ərazilərdir.

Təbiət parklarının ərazisindəki torpaq sahələri onların daimi istifadəsinə verilir. Digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaqları ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada təbiət parklarının istifadəsinə verilə bilər.

Təbiət parkları respublika və ya bölgə əhəmiyyətli ola bilər. Bu ərazilər yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri kimi elan edilə bilər.

Yerli əhəmiyyətli təbiət parklarının məqsədli təyinatı üzrə fiziki və hüquqi şəxslərin idarəçiliyinə, habelə istifadəsinə və icarəsinə verilə bilər.

Hər bir təbiət parkının əsasnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

### Maddə 25. Təbiət parklarının vəzifələri

Təbiət parklarının vəzifələri təbii mühiti, təbii landşaftları və rekreasiya resurslarını mühafizə etmək, istirahət üçün şərait yaratmaq, təbiəti mühafizənin effektli metodlarını hazırlamaq və tətbiq etmək, habelə rekreasiya istifadəsi şəraitində ekoloji tarazlığı qoruyub saxlamaqdır.

### Maddə 26. Təbiət parklarının zonalaşdırılması

Təbiət parklarının ərazilərində təbii sahələrin ekoloji və rekreasiya əhəmiyyətindən asılı olaraq xüsusi mühafizənin və istifadənin ayrı-ayrı rejimləri müəyyən edilir.

Təbiət parklarının ərazilərində təbiəti mühafizə, istirahət (rekreasiya) tarix-mədəniyyət komplekslərinin və obyektlərinin mühafizə zonaları və digər fəaliyyət zonaları müəyyən edilə bilər.

Təbiət parklarının ərazilərində onların ekoloji, istirahət (rekreasiya) və estetik keyfiyyətinə mənfi təsir göstərən, tarix-mədəniyyət abidələrinin qorunub saxlanılması rejimini pozan fəaliyyət qadağan edilir.

Təbiət parklarının sərhədlərində onların ekoloji, mədəni, istirahət (rekreasiya) və estetik əhəmiyyətini aşağı salan fəaliyyət qadağan edilə və ya məhdudlaşdırıla bilər.

## VII Fəsil

## Dövlət təbiət yasaqlıqları

### Maddə 27. Dövlət təbiət yasaqlıqları və onların təşkili

Dövlət təbiət yasaqlıqları — təbiət komplekslerinin və ya onların komponentlərinin qorunması və ya bərpası, habelə ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazilərdir.

Dövlət təbiət yasaqlıqları torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən torpaq sahələri alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilə bilər.

Dövlət təbiət yasaqlıqları respublika və ya bölgə əhəmiyyətli ola bilər.

Dövlət təbiət yasaqlıqları müxtəlif profilli, o cümlədən kompleks, bioloji, paleontoloji, hidroloji və geoloji profilli ola bilər.

Dövlət təbiət yasaqlıqları müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir.

**Maddə 28. Dövlət təbiət yasaqlıqlarının xüsusi mühafizə rejimi və onlardan istifadə**

Dövlət təbiət yasaqlıqlarında təbiət komplekslərinə və onların komponentlərinə zərər vura bilən hər hansı fəaliyyət qadağan edilir.

Dövlət təbiət yasaqlıqlarının vəzifələri və xüsusi mühafizə rejiminin xüsusiyyətləri onların hər biri haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnamə ilə müəyyən edilir

Dövlət təbiət yasaqlıqları müəyyən edilmiş qaydada elmi, mədəni, tədris və məhdud təsərrüfat məqsədləri üçün istifadə edilə bilər.

Torpaq mülkiyyətçiləri və istifadəçiləri dövlət təbiət yasaqlıqlarında təsərrüfat fəaliyyətini müəyyən edilmiş məhdudiyyətlərə əməl etməklə həyata keçirə bilərlər.

## VIII Fəsil Təbiət abidələri

**Maddə 29. Təbiət abidələri**

Təbiət abidələri xüsusi ekoloji, elmi, mədəni və estetik əhəmiyyəti olan təbiət obyektləridir.

Təbiət abidəsi obyektlərinə konkret coğrafi zona üçün səciyyəvi olan nadir landşaftlar və yaxud ayrı-ayrı ünsürlər, yerli ağac qruplarının etalonunu təşkil edən və nadir növ tərkibinə görə seçilən qiymətli meşə sahələri, endemik və ya məhv olmaq təhlükəsinə məruz qalan bitkilərin yayıldığı yerlər, çox yaşlı ayrı-ayrı ağaclar, həmçinin geoloji açılışlar, mağaralar, paleontoloji və paleonəbatat qalıqlarının çöküntüləri, bulaqlar, nadir göllər və digər yerlər aid edilir.

Təbiət abidələri yerləşən ərazilərdə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir və onların təbii vəziyyəti qorunub saxlanılır.

Təbiət abidələri respublika və ya bölgə əhəmiyyətli ola bilər.

**Maddə 30. Təbiət abidələrinin təşkilinin, mühafizəsinin və onlardan istifadənin xüsusiyyətləri**

Təbiət abidələri torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən torpaq sahələri alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilə bilər.

Təbiət abidələrinin və onların yerləşdiyi ərazilərin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Təbiət abidələrinə aid edilən obyektlər və onların yerləşdiyi ərazilər təsərrüfat istismarından çıxarılır və orada təbiət abidələrinin təbii vəziyyətini pozan hər hansı fəaliyyət qadağan edilir.

Təbiət abidələrindən müəyyən edilmiş qaydada elmi, mədəni və tədris məqsədləri üçün istifadə edilə bilər.

## IX Fəsil

## Zooloji parklar

**Maddə 31. Zooloji parklar**

Zooloji parklar — heyvanlar aləminin mühafizəsi, törəyib artması və onlardan istifadə üçün ayrılmış təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan xüsusi mühafizə olunan təbiət əraziləridir.

Zooloji parklar respublika, bölgə və ya yerli əhəmiyyətli ola bilər

**Maddə 32. Zooloji parkların təşkili, zonalaşdırılması və mühafizəsinin xususiyyətləri**

Zooloji parkların təşkili üçün torpaq sahələri qanunvericiliklə müəyyən edilmiş qaydada onların daimi istifadəsinə verilir.

Zooloji parklarda heyvanların saxlanılması və artırılması, habelə ora gələn adamlara göstərilməsi üçün — ekspozisiya, elmi tədqiqatların aparılması məqsədilə — elmi, gələn adamlara xidmət göstərilməsi üçün — ictimai, inzibati və təsərrüfat-istehsalat zonaları ayrılır.

Zooloji parklarda onların vəzifələrinin həyata keçirilməsi ilə bağlı olmayan və orada saxlanılan heyvanların məhvinə səbəb ola bilən hər hansı fəaliyyət və hərəkət qadağandır.

**Maddə 33. Zooloji parklarda heyvanların artırılması**

Zooloji parklar Azərbaycan Respublikası və dünya faunasının heyvan kolleksiyalarını formalaşdırır və onların qorunub saxlanılmasını təmin edir.

Zooloji parklar müəyyən edilmiş qaydada heyvanların idxalını və ixracını, başqa zooloji profilli idarələrlə onların dəyişdirilməsini həyata keçirir.

Zooloji parklarda baytarlıq və zootexniki xidmət, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərinin nəsil verməsi üçün məntəqə yaradılır.

**Maddə 34. Zooloji parklardan istifadənin xüsusiyyətləri**

Zooloji parklardan elmi, mədəni və tədris məqsədləri üçün istifadə edilir.

Zooloji parklarda elmi tədqiqatlar heyvanların qeyri-sərbəst və ya yarımsərbəst şəraitdə saxlanılması və yetişdirilməsi sahəsində aparılır.

Zooloji parklar elmi məlumat bankları, fondlar, muzeylər, kitabxanalar və arxivlər yarada, onların fəaliyyəti ilə bağlı elmi, elmi-populyar və başqa ədəbiyyatlar nəşr edə, habelə mədəni-maarif, baytarlıq təbabəti, seleksiya-damazlıq işləri sahəsində əhaliyə ödənişli xidmətlər göstərə bilər.

Zooloji parklarda bu idarələrin profilinə uyğun olaraq təsərrüfat fəaliyyəti üçün zəruri olan yardımçı təsərrüfatlar, emalatxanalar, zooloji mağazalar və başqa obyektlər ola bilər.

## X Fəsil

## Nəbatat bağları və dendroloji parklar

**Maddə 35. Nəbatat bağları və dendroloji parklar**

Nəbatat bağları və dendroloji parklar — bitki aləminin müxtəlifliyini qoruyub saxlamaq və onu zənginləşdirmək məqsədilə yaradılan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan ərazilərdir.

Nəbatat bağları və dendroloji parklar respublika və ya bölgə əhəmiyyətli ola bilər.

**Maddə 36. Nəbatat bağlarının və dendroloji parkların zonalaşdırılması və mühafizəsinin xüsusiyyətləri**

Nəbatat bağlarının və dendroloji parkların təşkili üçün torpaq sahələri qanunvericiliklə müəyyən edilmiş qaydada onların daimi istifadəsinə verilir.

Nəbatat bağlarında və dendroloji parklarda bitkiləri yetişdirmək və onları ora gələn adamlara göstərmək üçün — ekspozisiya, elmi tədqiqatlar aparmaq üçün — elmi, gələn adamlara xidmət göstərmək üçün — ictimai, inzibati və təsərrüfat-istehsalat zonaları ayrılır.

Nəbatat bağlarında və dendroloji parklarda onların vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar olmayan və orada yetişdirilən bitkilərin məhvinə səbəb ola bilən hər hansı fəaliyyət və təsir qadağandır.

**Maddə 37. Nəbatat bağlarında və dendroloji parklarda bitkilərin yetişdirilməsi**

Nəbatat bağları və dendroloji parklar Azərbaycan Respublikası və dünya florasının bitki kolleksiyalarını formalaşdırır və onların qorunub saxlanılmasını təmin edir.

Nəbatat bağları və dendroloji parklar müəyyən edilmiş qaydada bitkilərin idxalını və ixracını, onların başqa botaniki profilli idarələrlə dəyişdirilməsini təmin edir.

Nəbatat bağlarında və dendroloji parklarda kolleksiya və təcrübə sahələri, tingliklər, herbarilər və toxum fondları yaradılır.

**Maddə 38. Nəbatat bağlarından və dendroloji parklardan istifadənin xüsusiyyətləri**

Nəbatat bağlarından və dendroloji parklardan elmi, mədəni-maarif və tədris məqsədləri üçün istifadə edilir.

Nəbatat bağlarında və dendroloji parklarda elmi tədqiqatlar qiymətli, nadir və məhv olmaq təhlükəsi qarşısında olan bitki növlərinin yetişdirilməsi, seleksiyası və artırılması sahəsində aparılır.

Nəbatat bağları və dendroloji parklar elmi məlumat bankları, fondlar, muzeylər, kitabxanalar və arxivlər yarada, onların fəaliyyəti barədə elmi, elmi-populyar və başqa ədəbiyyatlar nəşr edə, habelə seleksiya, toxumçuluq və tingçilik sahəsində əhaliyə

ödənişli xidmətlər göstərə bilər.

Nəbatat bağlarında və dendroloji parklarda bu idarələrin profilinə uyğun olaraq təsərrüfat fəaliyyəti üçün zəruri olan yardımçı təsərrüfatlar, emalatxanalar, bitkilərin satışı üçün ixtisaslaşdırılmış mağazalar və başqa obyektlər ola bilər.

## XI Fəsil

## Müalicə-sağlamlaşdırma yerləri və kurortlar

**Maddə 39. Müalicə-sağlamlaşdırma yerləri və kurortlar**

Müalicə-sağlamlaşdırma yerlərinə xəstəliklərin müalicəsinin və profilaktikasının, habelə əhalinin istirahətinin təşkili üçün yararlı olan və təbii müalicəvi resurslara (mineral sular, müalicəvi palçıqlar, şor göllər, müalicəvi iqlim, çimərliklər və sair) malik olan ərazilər aid edilə bilər.

Müalicə-sağlamlaşdırma yerləri və kurortlar onların səmərəli istifadə edilməsi və təbii müalicəvi resursların və sağlamlaşdırma xassələrinin qorunub saxlanılması məqsədilə yaradılır.

Müalicə-sağlamlaşdırma yerləri və kurortlar beynəlxalq, respublika, bölgə və yerli əhəmiyyətli ola bilər.

Yerli əhəmiyyətli müalicə-sağlamlaşdırma yerləri və kurortlar məqsədli təyinatı üzrə fiziki və hüquqi şəxslərin idarəçiliyinə, habelə istifadəsinə və icarəsinə verilə bilər.

Ərazilərin müalicə-sağlamlaşdırma yerlərinə və kurortlara aid edilməsi qaydası, mühafizəsi və onların fəaliyyəti qanunvericiliklə müəyyən edilir.

**Maddə 40. Müalicə-sağlamlaşdırma yerlərinin və kurortların mühafizəsi**

Təbii müalicə amillərinin və təbii resursların mühafizəsi məqsədilə müalicə-sağlamlaşdırma yerlərinin və kurortların ətrafında sanitariya mühafizə zonaları müəyyən edilir.

Müalicə-sağlamlaşdırma yerlərinin və kurortlarin ərazisində, eləcə də onların ətrafında yaradılan sanitariya mühafizə zonalarında xəstəliklərin profilaktikası və müalicəsi, əhalinin istirahəti, habelə təbii müalicəvi resursların mühafizəsi müvafiq normativ hüquqi aktlatla tənzimlənir.

Müəyyən edilmiş sanitariya rejimi ilə əlaqədar, torpaq sahələrinin təsərrüfat dövriyyəsindən tam çıxarılması nəzərdə tutulduğu hallar istisna edilməklə, sanitariya mühafizə zonalarının hüdudlarında olan torpaq sahələri torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən geri alınmır.

## XII Fəsil

## Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin maliyyələşdirilmə mənbələri

**Maddə 41. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin maliyyələşdirilmə mənbələri**

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri dövlət büdcəsindən, yerli büdcələrdən, büdcədənkənar vəsaitlərdən, ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına və qanunvericiliklə qadağan edilməyən digər maliyyə mənbələrindən maliyyələşdirilir.

Respublika və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və bərpası, onların inkişafı və yerləşdirilməsi üzrə respublika sxeminin hazırlanması, dövlət kadastrının aparılması, elmi, mədəni-maarif və tədris tədbirləri dövlət büdcəsinin və ətraf mühitin mühafizəsi üzrə fondların vəsaitləri hesabına maliyyələşdirilir.

Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin saxlanması və təşkil edilməsi, onların inkişafı və yerləşdirilməsi üzrə sxemlərin hazırlanması, elmi, mədəni-maarif və tədris tələbləri yerli büdcələrin və büdcədənkənar vəsaitlərin hesabına maliyyələşdirilir.

**Maddə 42. Xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən ödənişli istifadə**

Fiziki və xüsusi şəxslər elmi, mədəni, tədris, turizm, istirahət (rekreasiya) və

məhdud təsərrüfat məqsədləri ilə xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadəni ödənişli əsaslarla həyata keçirirlər.

Xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində elmi, mədəni-maarif, tədris, turizm, xidmət və istirahət (rekreasiya) fəaliyyətini həyata keçirmək üçün bina və qurğuların fiziki və hüquqi şəxslərə verilməsinə, bu Qanunla nəzərdə tutulan hallar istisna olmaqla, müəyyən edilmiş qaydada və ödənişli əsaslarla yol verilir.

**Maddə 43. Xüsusi mühafizə olunan təbiət əraziləri üçün xüsusi vəsaitlər və fondlar**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və vəsaitləri ola bilər. Bu fondların və vəsaitlərin yaradılması və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Xüsusi mühafizə olunan təbiət əraziləri üçün nəzərdə tutulmuş məqsədti ayırmalarından, onların xüsusi vəsaitlərindən və fondundan bu ərazilərin saxlanılması və inkişafı ilə bağlı olmayan məqsədlər üçün istifadə edilməsi qadağandır.

**Maddə 44. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin iqtisadi stimullaşdırılması**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin iqtisadi stimullaşdırılması sahəsində məqsədli investisiya, kredit və vergi siyasəti həyata keçirilir.

## XIII Fəsil
## Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə və istifadəsinə nəzarət

**Maddə 45. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə, qorunmasına və istifadəsinə dövlət nəzarəti**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə, qorunmasına və istifadəsinə dövlət nəzarətinin məqsədi bu ərazilərin və obyektlərin vəziyyətinə, onların mühafizəsi, qorunması, bərpası və istifadəsi üzrə tədbirlərin yerinə yetirilməsinə nəzarət etmək, qanunvericiliklə nəzərdə tutulmuş qaydalara və tələblərə əməl olunmasını təmin etməkdir.

Bu sahədə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində müəyyən olunmuş qaydada həyata keçirirlər.

Dövlət nəzarəti məqsədilə aşağıdakılar həyata keçirilir:

— dövlət təbiət qoruq fondunun mühafizəsi və bərpası üzrə tədbirlərin yerinə yetirilməsini yoxlamaq;

— xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadə hüququna dair sənədləri yoxlamaq, nəqliyyat vasitələrini və gəmiləri, ov alətlərini, əldə edilmiş məhsulları və başqa əşyaları yoxlamaq, hüquqpozmaya səbəb olmuş alətləri, cihazları və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, habelə müvafiq sənədləri götürmək;

— xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyi pozmuş, cinayət və ya inzibati hüquqpozma törətmiş şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada saxlamaq, onları hüquq mühafizə orqanlarının sərəncamına vermək;

— xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və istifadəsi sahəsində inzibati hüquqpozma haqqında protokollar (aktlar) tərtib etmək;

— xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və istifadəsi sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə və istifadəsinə dövlət nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinə xidməti vəzifəni yerinə yetirərkən xüsusi geyim forması daşımaqla Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xidməti silahı saxlamaq və gəzdirmək hüququ verilir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin vəzifəli şəxslərinin hüquqları müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi əsasnamə ilə müəyyən edilir.

**Maddə 46. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin**

**mühafizəsinə və istifadəsinə ictimai nəzarət**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsinə və istifadəsinə ictimai nəzarət Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## XIV Fəsil
## Xüsusi mühafizə oiunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasınagörə məsuliyyət və mübahisələrin həlli

**Maddə 47. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, maddi, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

**Maddə 48. Mübahisələrin həlli**

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və istifadəsi sahəsində mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

## XV Fəsil
## Beynəlxalq əməkdaşlıq

**Maddə 49. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində beynəlxalq əməkdaşlıq**

Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikası ilə başqa dövlətlər arasında bağlanmış müqavilələr, sazişlər, razılaşmalar və digər beynəlxalq hüquq normaları əsasında həyata keçirilir.

**Maddə 50. Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri sahəsində müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalardan fərqli olduqda beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

## "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları və milli parklar haqqında ümumi

əsasnamələrin layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; təbiət parkları və dövlət təbiət yasaqlıqları haqqında ümumi əsasnamələrini təsdiq etsin;

həmin Qanunun 12-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrının və monitorinqinin aparılması qaydasını müəyyən etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsbiq edilməsini təmin etsin;

həmin Qanunun 13-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qammundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin dördüncü hissəsində, 17-ci maddəsinin dördüncü hissəsində, 21-ci maddəsinin dördüncü və beşinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 5-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti (dövlət təbiət qoruqlarına, o cümlədən biosfer qoruqlarına və milli parklara münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (təbiət parkları və dövlət təbiət yasaqlıqlarına münasibətdə) həyata keçirirlər;

həmin Qanunun 6-cı maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş "müvafiq dövlət orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti (dövlət təbiət qoruqlarına, o cümlədən biosfer qoruqlarına və milli parklara münasibətdə) və Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi (digər xüsusi mühafizə olunan təbiət ərazilərinin növlərinə münasibətdə) həyata keçirirlər;

həmin Qanunun 6-cı maddəsinin beşinci hissəsində və 8-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti (dövlət təbiət qoruqlarına, o cümlədən biosfer qoruqlara və milli parklara münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (digər xüsusi mühafizə olunan təbiət ərazilərinin növlərinə münasibətdə) həyata keçirirlər;

həmin Qanunun 8-ci maddəsinin ikinci hissəsində, 12-ci maddəsinin üçüncü hissəsində, 17-ci maddəsinin yeddinci hissəsində, 20-ci maddəsinin ikinci hissəsində, 27-ci maddəsinin beşinci hissəsində, 30-cu maddəsinin ikinci hissəsində, 43-cü maddəsinin birinci hissəsində, 45-ci maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, habelə 17-ci maddəsinin dördüncü hissəsində və 21-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş "müvafiq dövlət orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanun 8-ci maddəsinin dördüncü hissəsində, 15-ci maddəsinin ikinci abzasında, 24-cü maddəsinin beşinci hissəsində, 28-ci maddəsinin ikinci hissəsində, 45-ci maddəsinin ikinci və dördüncü hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, habelə 27-ci maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş "müvafiq dövlət orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi həyata keçirir.

**Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında Azərbaycan Respublikasının Qanunu**

***Qəbul edilmişdir: 14 aprel 2000-ci il, № 857-IQ***

*Bu Qanun Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması və sanitariya-epidemioloji salamatlığının təmin edilməsi məqsədi ilə yoluxucu xəstəliklərin immunoprofilaktikası sahəsində həyata keçirilən dövlət siyasətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir.*

## I Fəsil

## Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**yoluxucu xəstəliklərin immunoprofilaktikası** (bundan sonra — **immunoprofilaktika)** — profilaktik peyvəndlər vasitəsi ilə yoluxucu xəstəliklərin qarşısının alınması, yayılmasının məhdudlaşdırılması və ya ləğv edilməsi;

**profilaktik peyvəndlər** — yoluxucu xəstəliklərə qarşı spesifik immunitetin yaradılması üçün insan orqanizminə tibbi immunobioloji preparatların yeridilməsi;

**tibbi immunobioloji preparatlar** — yoluxucu xəstəliklərin inkişafının və yayılmasının qarşısının alınması üçün tətbiq edilən vaksinlər, immunoqlobulinlər və digər preparatlar;

**postvaksinal fəsadlar** — profilaktik peyvəndlər nəticəsində sağlamlığın müxtəlif dərəcədə pozulması;

**profilaktik peyvəndlərin sertifikatı** — profilaktik peyvəndlərin qeydiyyat sənədi.

**Maddə 2. İmmunoprofilaktika haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

İmmunoprofilaktika haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

**Maddə 3. İmmunoprofilaktika sahəsində dövlət siyasətinin əsas prinsipləri**

İmmunoprofilaktika sahəsində dövlət siyasəti yoluxucu xəstəliklərin yayılmasının məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəldilmişdir.

İmmunoprofilaktika sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

- bütün vətəndaşlar üçün profilaktik peyvəndlərin zəruriliyi;
- dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvəndlərin əhaliyə pulsuz aparılması;
- məqsədli dövlət proqramlarının və regional proqramların həyata keçirilməsi;
- immunoprofilaktikanın aparılması üçün səmərəli tibbi immunobioloji preparatlardan istifadə olunması;
- tibbi immunobioloji preparatların keyfiyyətinə, təhlükəsizliyinə, saxlanmasına və daşınmasına dövlət nəzarəti;
- yeni tibbi immunobioloji preparatların işlənib hazırlanması sahəsində aparılan elmi tədqiqatlara dövlət qayğısı, tibbi immunobioloji preparatların müasir tələblərə cavab verən istehsalatının təmin edilməsi;
- tibbi immunobioloji preparatların yerli istehsalçılarına dövlət qayğısı;
- immunoprofilaktika sahəsində tibb işçilərinin hazırlanması;
- postvaksinal fəsadlar baş verdikdə vətəndaşların sosial müdafiəsi;
- statistik müşahidə sisteminin təkmilləşdirilməsi;
- immunoprofilaktika sahəsində humanitar təşkilatların iştirakına şərait yaradılması;
- beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

## II Fəsil

## İmmunoprofilaktikanın təşkilati əsasları və maliyyələşdirilməsi

**Maddə 4. İmmunoprofilaktikanın təşkilati əsasları**

İmmunoprofilaktikanın həyata keçirilməsini müvafiq icra hakimiyyəti orqanı təmin edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələrdə immunoprofilaktikanın həyata keçirilməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən təmin edilir.

**Maddə 5. Epidemik göstərişlərə görə profilaktik peyvəndlər**

Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoluxucu xəstəliklərin baş verməsi təhlükəsi olduqda epidemik göstərişlərə görə profilaktik peyvəndlər məcburi aparılır.

Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 6. Profilaktik peyvəndlər üçün tələblər**

Profilaktik peyvəndlər dövlət və bələdiyyə tibb müəssisələrində və ya özəl tibb fəaliyyəti üçün qanunvericiliklə müəyyən olunmuş qaydada xüsusi razılıq alan hüquqi və fiziki şəxslər tərəfindən aparılır.

Profilaktik peyvəndlər vətəndaşların razılığı əsasında aparılır.

Qanunvericiliklə müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilən və ya yetkinlik yaşına çatmayan şəxslərə profilaktik peyvəndlər valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı əsasında aparılır.

Profilaktik peyvəndlər müvafiq icra hakimiyyətı orqanı tərəfindən müəyyən edilmiş tibbi-sanitariya qaydalarına və tələblərinə əməl etməklə tibbi əks göstərişləri olmayan vətəndaşlara aparılır.

Profilaktik peyvəndlərin aparılmasına tibbi əks-göstərişlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Profilaktik peyvəndlərin aparılmaması:

beynəlxalq tibbi-sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəlişin dayandırılması və ya məhdudlaşdırılması;

kütləvi yoluxucu xəstəliklər baş verdikdə və ya epidemiya təhlükəsi olduqda qanunvericiliklə müəyyən olunmuş qaydada təhsil və sağlamlıq müəssisələrinə şəxslərin qəbul edilməsinin müvəqqəti dayandırılması ilə nəticələnir.

Yoluxucu xəstəliklərin baş verməsinin yüksək riski ilə əlaqədar və profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunür.

**Maddə 7. Profilaktik peyvəndlərin təqvimi**

Profilaktik peyvəndlərin təqvimi (bundan sonra — təqvim) — vətəndaşlara profilaktik peyvəndlərin aparılması qaydasını, müddətlərini, peyvənd aparılması zəruri olan xəstəliklərin siyahısını müəyyən edən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan sənəddir.

Təqvimə daxil edilmiş profilaktik peyvəndlər müəyyən edilmiş müddətlərdə Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə aparılır.

**Maddə 8. Tibbi immunobioloji preparatlar üçün tələblər**

İmmunoprofiləktika üçün qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçən və sertifikatlandırılan tibbi immunobioloji preparatlardan istifadə olunur.

Tibbi immunobioloji preparatların buraxılışı həkim resepti əsasında ixtisaslaşdırılmış tibb müəssisələri tərəfindən həyata keçirilir.

**Maddə 9. Tibbi immunobioloji preparatların saxlanılması və daşınması**

Tibbi immunobioloji preparatların saxlanılması və daşınması sanitariya qaydalarına əməl olunmaqla həyata keçirilir.

**Maddə 10. Tibbi immunobioloji preparatlara dövlət nəzarəti**

Tibbi immunobioloji preparatların keyfiyyətinə, təhlükəsizliyinə, saxlanılmasına və daşınmasına dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 11. İmmunoprofilaktikanın maliyyələşdirilməsi**

İmmunoprofilaktikanın maliyyələşdirilməsi dövlət büdcəsi və qanunvericiliklə qadağan

olunmayan digər mənbələr hesabına həyata keçirilir.

**Maddə 12. Tibbi immunobioloji preparatlarla təchizat**

Təqvimə daxil edilən və epidemik göstərişlərə görə müəyyən edilən tibbi immunobioloji preparatlarla tibb müəssisələrinin təchizatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

**Maddə 13. İmmunoprofilaktika sahəsində dövlət statistika müşahidəsi**

Profilaktik peyvəndlər, postvaksinal fəsadlar, epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtina halları haqqında məlumatlar tibbi sənədlərdə qeyd olunur və onların dövlət statistik uçotu aparılır.

Profilaktik peyvəndlərin, postvaksinal fəsadların qeydiyyatı qaydaları, epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtinanın əsaslandırılması, habelə tibbi sənədlərin və profilaktik peyvəndlərin sertifikatlarının forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Profilaktik peyvəndlərin nəticəsinin keyfiyyəti olması üçün mütləq və müvəqqəti əks-göstərişlər nəzərə alınmalıdır. Müvəqqəti əks-göstərişlər nəticəsində peyvənddən kənarlaşdırılmış şəxslər nəzarət altında saxlanılmalı, mümkün olduqda, onlara profilaktik peyvəndlər aparılmalıdır.

## III Fəsil
## İmmunoprofilaktika sahəsində vətəndaşların hüquq və vəzifələri

**Maddə 14. İmmunoprofilaktika sahəsində vətəndaşların hüquq və vəzifələri**

İmmunoprofilaktika sahəsində vətəndaşların:

- profilaktik peyvəndlərin aparılmasının zəruriliyi, onlardan imtina edilməsinin nəticələri, mümkün postvaksinal fəsadlar haqqında tibb işçilərindən tam və obyektiv məlumat almaq;
- mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələrini və ya özəl tibb fəaliyyəti ilə məşğul şəxsləri seçmək;
- dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvəndlərdən əvvəl büdcə vəsaitləri hesabına tibbi baxışdan keçmək və müayinə olunmaq, epidemik göstərişlərə görə profilaktik peyvənd olunmaq, postvaksinal fəsadlar baş verdikdə müalicə olunmaq;
- real əks-göstərişlər olduqda epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtina etmək hüququ vardır.

İmmunoprofilaktika sahəsində vətəndaşların vəzifələri aşağıdakılardır:

- tibb işçilərinin immunoprofilaktika ilə bağlı göstərişlərini yerinə yetirmək;
- epidemik göstərişlərə görə aparılan və ya təqvimdə nəzərdə tutulan profilaktik peyvəndlərdən imtina etməsinin səbəbini yazılı şəkildə bildirmək.

**Maddə 15. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət**

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət almaq hüququ verən postvaksinal fəsadların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Əmək qabitiyyətinin müvəqqəti itirilməsi postvaksinal fəsadla əlaqədar olduqda vətəndaş fasiləsiz iş stajından asılı olmayaraq, aldığı orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.

Yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona qanunvericilikdə müəyyən edilən qaydada əlillik qrupu verilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi fasiləsiz iş stajından asılı olmayaraq orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.

Ölümə səbəb olan postvaksinal fəsadlara görə birdəfəlik müavinət almaq hüququ olan ailə üzvlərinin siyahısı və həmin müavinətin həcmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## IV Fəsil
## Yekun müddəaları

**Maddə 16. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikası qanunvericiliyində müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 17. Beynəlxalq əməkdaşlıq**

İmmunoprofilaktika sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən həyata keçirilir.

Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət olarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında"**
**Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**
**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 5-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddətini və qaydasını müəyyən etsin;

həmin Qanunun 6-cı maddəsinin altınmcı hissəsində nəzərdə tutulmuş profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin siyahısını müəyyən etsin;

həmin Qanunun 15-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş ölümə səbəb olan postvaksinal fəsadlara görə birdəfəlik müavinət almaq hüququ olan ailə üzvlərinin siyahısını və həmin müavinətin həcmini müəyyən etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "Yoluxucu xəstəliklerin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin birinci və ikinci hissələrində, 6-cı maddəsinin altıncı hissəsində və 15-ci maddəsinin birinci və dördüncü hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 4-cü maddəsinin birinci hissəsində, 6-cı maddəsinin üçüncü və dördüncü hissələrində, 7-ci maddəsinin birinci hissəsində, 10-cu və 12-ci maddələrində və 13-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı" nın 'səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 4-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi, Hərbi Əks-kəşfiyyat Xidməti və Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi həyata keçirirlər;

həmin Qanunun 6-cı maddəsinin birinci hissəsində "xüsusi razılıq alan hüquqi və fiziki şəxslər" dedikdə, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Xüsusi razılıq (lisenziya) tələb

olunan fəaliyyət növlərinin və onları verən icra hakimiyyəti orqanlarının siyahısı”nın 36-cı bəndinə müvafiq olaraq xüsusi razılıq (lisenziya) almış hüquqi və fiziki şəxslər nəzərdə tutulur.